# Mirişli
# ocağının
# işığı

*Mirişlilər ailəsi bu kitabın ərsəyə gəlməsində göstərdikləri köməyə və dəstəyə görə* ***Azər Rzayevə, Fərəməz Quliyevə, Nizami Alıyevə, Mircamal və Mirmehdi Seyidovlara, Sevda Mikayılqızına, Qoçəli Dünyamalıyevə, Asif Kəngərliyə, Şamil Qurbanova, Kamal Səfərova və Bahadura, Emin Dünyamalıyevə*** *öz dərin minnətdarlığını bildirir.*

---

Redaktor: **Tofiq Cəfərov**
Məsləhətçi: **Asif Kəngərli**
Nəşriyyat redaktoru: **Sevda Mikayılqızı**

İdeya müəllifi: **Mir Ələkbər Seyidov**
Koordinator - əlaqələndiricilər: **Mir Ələkbər Seyidov, Mir Asəf Mirişli, Aybəniz Mirişli, Emin Mirişli və "AqRa" Elmin İnkişafına Dəstək ictimai birliyinin üzvləri**

**MİRİŞLİ OCAĞININ İŞIĞI.**
Bakı, "Ziya" NPM, 2018. s.264,

*Sizə təqdim olunan bu kitabda Naxçıvandakı Mirişlilər nəsli və həmin nəslin ən bariz nümayəndələrindən biri görkəmli həkim - ziyalı, müəllim-pedaqoq, doktor Adil Mirişli və həmin nəsil barədə materiallar toplanmışdır.*

$M \frac{4702010000\text{-}201}{Z\text{-}098\text{-}2018}$

© Müəllif hüquqları qorunur

## MİRİŞLİLƏR NƏSLİ
## və görkəmli həkim-ziyalı, müəllim-pedoqoq, doktor
## ADİL MİRİŞLİ BARƏDƏ

Sizə təqdim olunan bu kitabda Naxçıvandakı Mirişlilər nəsli və həmin nəslin ən bariz nümayəndələrindən biri görkəmli həkim-ziyalı, müəllim-pedaqoq, doktor Adil Mirişli və həmin nəsil barədə əldə edə bildiyimiz materiallar toplanmışdır.

2018-ci ilin avqust ayında Adil Mircəfər oğlu Mirişlinin 80 yaşı tamam olur. Bu münasibətlə Adil həkimin övladları: Mir Asəf, Emin və Aybəniz Xanımla son 2 ayda bir araya gəldik, eyni zamanda "AqRa" Elmin İnkişafına Dəstək ictimai birliyinin üzvləri və bizi dəstəkləyənlərin köməyi ilə qarşınızda olan bu kitab yarandı, meydana çıxdı. Kitabda imkan qədərində toplaya bildiyimiz – həm Mirişlilər nəsli həm Naxçıvanda yaşayaraq dünyaya yayılan həmin nəslin nümayəndələri, həm də onlar barədə digər şəxslərin yazı materialları öz əksini tapmışdır.

Onları Naxçıvanda tanımayan yoxdur…

Mövzu barədə mənbə olaraq həm indiyə kimi nəşr olunan kitablardan, qəzetlərdən, xalq arasında yayılan deyimlərdən, həm də bu kitabda yer alan müəlliflərin yazılarından istifadə etməyə çalışmışıq…

## ADİL MİRİŞLİNİN QISA TƏRCÜMEYİ-HALI



Mirişli Adil Mircəfər oğlu – 25.08.1938 il tarixində Naxçıvan şəhərində anadan olub.

Atası Mircəfər Mirişli əməkdar müəllim (1943), 1949-cu ildə Lenin ordeni ilə təltif olunmuşdur.

Anası Püstə xanım Mirişli (1905-1984) evdar qadın idi. Püstə xanım Naxçıvanın Qaraçux kəndində maarifpərvər mülkədar ailəsində anadan olmuşdur. Dini təhsil ilə yanaşı rus məktəbində ibtidai təhsil almışdı, buda o dövrdə çox nadir təsadüf edilirdi.

Adil Mirişli 1945 ildə Naxçıvan şəhər Üzeyir Hacıbəyov adına 1 nömrəli oğlan orta məktəbində təhsilinə başlamış, 1955-ci ildə həmin məktəbi qızıl medal ilə bitirmişdir.

1956-1962 illərdə N.Nərimanov adına Azərbaycan dövlət Tibb institutunun pediatriya fakültəsində təhsilinə davam etmişdir.

1962-1964 illərdə Naxçıcan MR Nehrəm kəndində həkim-pediatr vəzifəsində çalışmışdır.

1964-1969 illərdə Naxçıvan şəhər uşaq xəstəxanasında sahə həkimi kimi fəaliyyət göstərmişdir.

1969-1970 illərdə Naxçıvan respublika xəstəxanasında pediatr-infeksionist vəzifəsində çalişmışdır.

1970-1973 illərdə SSRİ Tibb Elmləri Akademiyasının Moskva elmi tədqiqat Pediatriya institutunda məqsədli aspiranturada oxumuş ve 1973-cü ilin oktyabr ayında akademik S.Nosov və professor N.Vorotınsevanın rəhbərliyi altında "Uşaqlarda respirator - virus mikoplazma infeksiyasının immunokliniki xarakteristikası" adlı dissertasiyasını müvəffəqiyyətlə mudafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1966-1970 illər arası Naxçıvan Tibb məktəbində pediatriya üzrə dərslər vermiş, daha sonrasında, 1974-cü ildən – 2000-ci ilə qədər dövlət imtahan komissiyası sədrliyi vəzifəsini yerinə yetirmişdir.

1973-cü ilin noyabr ayından etibarən 2006-cı ilin oktaybrına qədər (33 il) Naxçıvan MR Səhiyyə nazirliyinin baş pediatrı vəzifəsində çalışıb. Eyni zamanda Naxçıvan uşaq xəstəxanası somatik şöbəsində həkim-pediatr olaraq fəaliyyət göstərib. Uşaq xəstəxanasındakı vəzifəsinə isə 2013-cü ilin avqust ayınadək (40 il) davam etmişdir.

1988 ilin iyun ayında Azərbaycan Respublikası əməkdar həkimi adına layiq görülmüşdür.

1991 ilin mart ayından "Naxçıvan MR Xeyriyyə Cəmiyyəti"nin İdarə heyətinin 5 üzvündən (diğər üzvlər: Sahib Axundov, Yaqub Seyidov, Arif Mirişli, Molla Məzahir) və tə'sis konfransının təşkilatçılarından biri olmuşdur. Xeyriyyə cəmiyətinin yığıncaqları Zaviyə mə'bədində olardı: həyata keçirdiği əsas işlərdən xəstələrə, kimsəsizlərə və ehtiyacı olanlara xususi yardımlar, Naxçıvan MR ziyarətgah-

larında və inanç yerlərində təmizlik işlərinin aparılması, əhalinin müqəddəs yerlərə ziyarətlərinin təşkili.

2001 ci il may ayında Naxçıvan dövlət universitetinin Tibb fakültəsində ilk pediatriya kafedrasının yaradılmasında yaxından iştirak etmiş və həmin kafedranın rəhbərliyinə başlamışdır. 12 il müddətində həmin kafedranın müdürü olaraq çalışmışdır. O zaman müddətində, 2006 ilin aprel ayında Azərbaycan Ali attestasiya komissiyası tərəfindən dosent elmi adına layiq görülmüşdür.

- Bu dövrlərdə muxtəlif illərdə Naxçıvan MR səhiyyə nazriliyi, Azerbaycan təhsil nazirliyi tərəfindən fəxri fərmanlarla təltif olunmuş. SSRİ Səhiyye nazirliyi ve SSRİ Mudafiyə nazirliyi tərəfindən "Səhiyyə ə`laçısı" və "Sanitariya ə`laçısı" döş nişanlarıyla təltif olunmuşdur.

Baş pediatr vəzifəsində çalışdığı dövrdə müxtəlif dərgilərdə həmkarları və tələbələri ilə birlikdə hazırladığı elmi məqalələri, eləcə də konfranslardakı çıxışlarının mətni nəşr olunmuşdur.

Həkim pediatrların göstərdiyi xidmətlərdə olan çətinlikləri nəzərə alaraq bu barədə aşağıdakı kitabları yazmışdır və bu kitablar gələcək həkimlerin yetişməsində böyuk rol oynamışdır:

1. Anaların mə`lumat kitabı. (Tofiq Cəfərov və Ruqiyyə İbadullayeva ilə birgə) – Naxçıvan, 2005
2. Erkən yaşlı uşaqlarda həzm sistemi ve qidalanma (Tofiq Cəfərovla birgə) – Naxçıvan, 2006
3. Uşaqlarda maddələr mubadiləsinin xususiyyətləri. Diatezlər. (Bəhruz Məmmədovla birgə) – Bakı, 2010
4. Uşaqlarda endokrin sistemi və onun xəstəlikləri. (Bəhruz Məmmədov və Elsevər Əsədovla birgə) – Bakı, 2011

2013 ildə öz arzusu ilə təqaüdə ayrılmışdır.

Adil Mirişli 3 uşaq atasıdır, 5 nəvəsi var.

Həyat yoldaşı Tamilla Mirişli – həkim –pediatr, Naxçıvan MR əməkdar həkimidir.

Oğlu Mir Asəf Mirişli (1963-cü il təvəllüdlü), Leninqrad Elektrotexnika institutunun məzunudur.

Oğlu Emin Mirişli (1967-ci il təvəllüdlü), M.Lomonosov adına Moskva Dövlət Universitetinin Fizika və Hüquq fakültələrini, eləcə də Fəlsəfə fakültəsinin Dinşünaslıq kafedrasının aspiranturasını bitirib.

Qızı Aybəniz Mirişli (1972-ci il təvəllüddlü), Azərbaycan Neft akademiyası məzunudur.

Naxçıvan elminə, mədəniyyətinə onlarla görkəmli sima bəxş etmiş Mirişlilər nəslinin Naxçıvana gəlməsi və burada qol-budaq atıb məskunlaşması tarixi bir neçə əsr əvvəllərə gedib çıxır. Əldə olan tarixi məxəzlərə görə Mirişlilərin ulu babası Şəms ibn Min-əl Əms Yaxın Şərq ölkələrindən Naxçıvana köçmüş müqəddəs bir şəxs idi. Onun övladlarından biri Seyid Kazım ən-Hüseyni artıq XVIII əsrdə Naxçıvanda tanınmış və nüfuzlu bir sima olmuş, ətraf mahallarda Seyid Kazım əl-Nəxcuvani kimi məşhurlaşmışdır.

Hazırda Mirişlərin ailə arxivində saxlanılan, yaşı məlum olmayan şəcərədən (XIX əsrdə bu sənədin surəti imza və möhürlənib təsdiq edilmişdir) mə`lum olur ki, XVIII-XX əsrlərdə bu nəslin Seyid Məhəmməd, Seyid Nurəddin, Ağa Seyid Məhəmməd Hüseyn, Ağa Mir Ağa kimi savadlı, nüfuzlu, hörmətli nümayəndələri yaşamışlar. XIX əsrin sonları – XX əsrin əvvəlləri bu seyidlər ailəsinin ən görkəmli nümayəndəsi Ağa Mir Ağa olmuşdur.



**MİRİŞ AĞA** (əsl adı Ağa Mir Ağa; -----1906, Naxçıvan ş.)- el ağsaqqalı. Ulu babası orta əsrlərdə Yaxın Şərqdən Naxçıvana gəlmiş Şəms İbn Min əl-Əms adlı müqəddəs bir şəxs olmuşdur. “Mirişli” soyadı Ağa Mir Ağanın xalq arasında yayılan “Miriş Ağa” ləqəbi ilə bağlı yaranmışdır. Miriş Ağanın evi xalqın inam və e`tiqad yerinə, pirə çevrilmişdir. Miriş Ağa şəhərin digər din icmalarının da hörmətini qazanmışdı. Deyilənə görə, Miriş Ağa rəhmətə gedənə qədər Naxçıvan xanı Cəfərqulu xan və rus keşişi hər il Novruz bayramında ağanın evinə gəlib, onu təbrik edərlərmiş. Naxçıvan Dövlət Arxivində saxlanan bir sənəddə deyilir ki, 1905-ci ilin ortalarında Cəhri kəndində qanlı erməni-müsəlman qırğınının qarşısı məhz Miriş Ağa tərəfindən alınmışdır. (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)

XIX əsrin əvvəllərində ərəb dilində tərtib edilmiş bir təzkirədə Miriş ağa haqqında deyilir: “…Təbiətcə müdrik, elmli, xeyirxahlığı, istedadı, bacarığı ilə başqalarından üstün olan Ağa Mir Ağa … bütün ali dərəcəli xoşbəxt seyidlər, şanlı və adlı-sanlı adamlar və müasirləri arasında seçilir”.

“Miriş Ağa deyir ki: “Söz çox, vaxt yox”.

*Hüseyn Cavid Əfəndimizin professor Əziz Şərifin atası Qurbanəli Şərifzadəyə 1906-cı ilin oktyabrında yazdığı məktubda*

Ağa Mir Ağanın sözlərini məsəl gətirir: “Söz çox, vaqt yox” (*Əziz Şərifin* ***“Keçmiş günlərdən”*** *adlı kitabından, ikinci kitab:* ***“Adamlar”****; rəyçi akademik Mirzə İbrahimov, redaktoru Azərbaycan SSR EA-nın müxbir üzvü Abbas Zamanov; Bakı, “Yazıçı” 1986, səh. 36-41).*

Miriş Ağanın üç oğlu – Mircəfər, Mir Həsən və Mir Aqil onun xeyirxah əməllərini, nurlu işlərini davam etdirmişlər. *(Mirişlilərin nəsil şəcərəsi - ərəb və azərbaycan dillərində bu kitabda verilmişdir).*

Mircəfər Ağa 8 yaşında atasını itirib və ocağın, ailəsinin yaşca böyük kişi xeylağı olub. Mircəfər Ağa Naxçıvan ziyalılarının və varlılarının təsis etdiyi xeyriyyə cəmiyyətinin vəsaiti hesabına Naxçıvan Came məscidinin nəzdindəki ibtidai məktəbi bitirib.

1916-cı ildə müəllimliyə başlayır və “Vətən dili” dərsini aparır. Sovet hakimiyyəti illərində öz istedadı və səyi nəticəsində orta məktəb təhsili həcmində imtahan verib. Azərbaycan Pedaqoji İnstitunun dil-ədəbiyyat fakültəsinə daxil olur. 30-cu illərin əvvəllərində Naxçıvan diyarının barmaqla sayıla bilən ali təhsilli müəllimlərindən biri də Mircəfər müəllim idi. Yaşlı nəsil Mircəfər müəllimi əsil maarif fədaisi, məktəb xadimi kimi xatırlayır. Təsadüfi deyil ki, hətta 30-40-cı illərdə, bolşevik hakimiyyətinin seyidləri, din xadimlərini təqib etdiyi, sürgün və həbslərə atdığı bir zamanda Mircəfər müəllim böyük hörmət və nüfuz qazanmış, 1943-cü ildə “əməkdar müəllim” adı almış, 1949-cu ildə isə ali dövlət mükafatı-Lenin ordeni ilə təltif edilmişdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, digər görkəmli şəxsiyyətlərə - elm xadimləri Həsən Əliyevə, Məmmədcəfər Cəfərova, Əli Sultanlıya və başqalarına dərs demişdir.



**MİRİŞLİ** Mircəfər Miriş ağa oğlu (1898 – 1979, Naxçıvan ş.) – maarif xadimi. Naxçıvan MR-in əməkdar müəllimi (1943). Naxçıvan Came məscidi nəzdindəki ibtidai məktəbi, Bakı Pedaqoji Texnikumunu və Azərb. Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. 1916 ildən müəllimlik etmiş, ömrünün sonunadək Naxçıvan şəhər 3 saylı orta məktəbində "Ana dili"ndən dərs demişdir, əlavə iş yeri -Naxçıvan tibb məktəbi olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevə, görkəmli şəxsiyyətlərə - elm xadimləri Həsən Əliyevə, Məmməd Cəfər Cəfərova, Əli Sultanlıya və başqalarına dərs demişdir. "Lenin" ordeni ilə təltif edilmişdir. (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)

1974 ildə Naxçıvan Muxtar respublikasının 50 illik yubileyi keçirilirdi. Heydər Əliyev Naxcıvanda Böyük bağda yerləşən məzarları ziyarət edirdi. Uzaq məsafədən skamiyada oturan Mir Cəfər müəllimini gördü və bir neçə onilliklər keçdiyinə baxmayaraq tanıdı. Mircəfər müəllimə yaxınlaşaraq müraciət edərək, ona xoş sözlər dedi. Həmin tarixdə "Kommunist" qəzetində H.Əliyevin nitqi nəşr olundu, orada "Mirişli Mircəfər mənim müəllimim olub" deyərək qeyd etdi... (*Adil Mirişlinin xatirəsi)*

II Dünya  müharibəsinin acı günləri Mirişlilər ailəsindən də yan keçməmişdir.

**MİRİŞLİ** Ağa Mirağa (Ağoş)  Mircəfər oğlu (1923 – 19.03.1944 Ukrayna,Volınsk vilayəti), Böyük Vətən Müharibəsində qəhrəmancasına həlak olmuşdur.

Tarixi ənənə və qəbul edilmiş qayda budur ki, seyidlər həmişə xalqın ehsanı və nəzirləri hesabına yaşayır, dini işlərlə və ibadətlə məşğul olurlar. Lakin demokratik fikirli, mütərəqqi dünyagörüşlü və dünyəvi işlərlə daha çox meyl etməsi ilə fərqlənən Mirişli nəslinin seyidləri fədakar ziyalılar olmuş, gündəlik halal çörəklərini öz zəhmətləri ilə qazanmışlar.  Bu nəsil dindar olsa da, xürafatçı olmamışdır. Miriş ağanın ikinci oğlu Mir Həsən, indi bizə qəribə görünsə də öz əczaçılıq peşəsini artistliklə əvəz etmiş, Naxçıvan teatrının səhnəsində bir-birindən maraqlı obrazlar yaratmışdı.

**MİRİŞLİ** Mir Həsən Miriş ağa oğlu (1903-1973, Naxçıvan ş.) – aktyor. Azərbaycan Respublikasının əməkdar artisti. Naxçıvanda təhsil almış, burada ilk əczaçılardan olmuş, uzun müddət bu sahədə fəaliyyət göstərmişdir. Sonralar həyatını bütünlüklə gənc yaşlarından böyük həvəs göstərdiyi teatr sənəti ilə bağlamış,  C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. Mir Həsən Ağa bu teatrın səhnəsində müxtəlif səpkili bir sıra yaddaqalan obrazlar yaratmışdır. Əsas rolları: Kərəmov ("Toy", S. Rəhman), Rüstəm bəy ("O olmasın, bu olsun", Üzeyir Hacıbəyov), Platon ("Şeyx Sənan" H.Cavid), Vəzir ("Vaqif", S.Vurğun), Şahqulu ("Günəş doğur", Ə.Abbasquliyev), Kərbəlayi Həsənalı ("Beş manatlıq

gəlin", M.S.Ordubadi, S.Rüstəmov) və s. Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuşdur. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)



**MİRİŞLİ** Mir Aqil Miriş ağa oğlu *(1905 - 4.4.1945, Naxçıvan ş.)* – pedaqoq. İlk təhsilini Naxçıvanda almış, uzun müddət Naxçıvan şəhər orta məktəbində coğrafiyadan dərs demiş, Şərur, Ordubad və Şahbuz rayon maarif şö`bələrinin müdiri işləmişdir. Təhsilini Leninqradda *(indiki Sankt-Peterburq)* davam etdirərkən ordu sıralarına çağırılmış, Böyük Vətən müharibəsində (1941- 1945) iştirak etmişdir. Mir Aqil Mirişli öz xeyirxahlığı, alicənablığı ilə fərqlənmişdi. Böyük Vətən Müharibəsində aldığı ağır yaralardan tərxis olunduqdan sonra, 1945-ci ildə vəfat etmişdir.

Böyük qardaşı kimi pedaqoqluq yolunu seçən Mir Aqil ağa da Şərur, Ordubad, Şahbuz rayonlarında müəllimlik etmiş, maarif şöbə müdiri işləmiş, öz xeyirxahlığı, alicənablığı ilə fərqlənmişdi. Mir Aqil ağa da Böyük Vətən Müharibəsində aldığı ağır yaralardan tərxis olunduqdan sonra, 1945-ci ildə vəfat etmişdi. (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)

Bu nəslin qadınları da kişiləri kimi alicənab, mütərəqqi fikirli, maarif fədaisi, xalqa xidmət nümunəsi olmuşlar.

1945-ci ildə Mir Aqil Ağanın vaxtsız vəfatından sonra onun ömür-gün yoldaşı Adilə xanım nəinki azyaşlı övladlarını böyütdü, habelə bütün qüvvəsini xalqın maariflənməsi işinə həsr etdi. Xalq təhsili sahəsindəki müstəsna xidmətlərinə görə qaynı Mir Cəfər müəllimdən sonra o da 1962-ci ildə Lenin ordeni ilə təltif olundu.

**MİRİŞLİ** Adilə Yusif qızı (1913 - 23.5.1987, Naxçıvan ş.) – maarif xadimi. Azərbaycan Respublikasının əməkdar müəllimi (1960). Naxçıvan Pedaqoji Texnikumunu (1929) və Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitunun fizika-riyaziyyat fakültəsini (1950) bitirmişdir. 1929 - 1931 illərdə Ordubad şəhər yeddillik məktəbində və savad kurslarında dərs demişdir. 1931 ildən Naxçıvan şəhərinin müxtəlif məktəblərində müəllim, dərs hissə müdiri, direktor işləmişdir. 1971 ildən fərdi təqaüdçü idi. “Lenin” ordeni ilə təltif olunmuşdur. (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)

## BİR QƏDƏR DƏ MİRİŞLİ OCAĞI BARƏDƏ

***Mirişlilər ocağının mö`cüzələrindən:***

Miriş Ağa təqribən 1907 ildə vəfat etdikdən sonra 5 həddi - buluğa çatmayan uşağı analarının öhdəsində qalmışlar.

Bu dövrə aid bir neçə mö`cüzəyə bənzəyən hadisələr ailəsinin və məhəllə camaatının yaddaşında qalmışdır.

1. Miriş ağanın vəfatından sonrakı növbəti qış Naxçıvanda həddindən artıq şaxtalı və qarlı keçirdi. Evi qızdırmaq üçün odun qurtarmaq üzərində idi, almaq üçün isə vəsait çatmırdı. Bir gün hələ Miriş ağanın qırxı çıxmamışdan həyətin qapısı döyülür, tanış odunçu: "Miriş Ağa odun göndərdi" deyərək odunu həyətdəki saraya boşaltdı. Ev sakinləri çox tutuldular, Miriş ağanın həyat yoldaşı ağladı. Yaxınlaşan qonşular odunçuya "Sən bilmirsən ki, Miriş Ağa rəhmətə gedib? Niyə ailəsini üzürsən" deyirdilər. O isə, birdən elə bil yuxudan öyanarkən: "Həlbəttə bilirəm, onun yasına da gəlmişdim. Allaha and olsun mən onu gördüm, ayaq yalın məscidə namaza yollanırdı, odunun pulunu da mənə verdi".
2. Miriş ağanın ocağında cümə günləri plov bişirirdilər. Həmin gün evdə qonaq olmayanda Miriş ağa çıxıb yolda ilk gördüyü adamı evə də`vət edirdi - qonaqsız süfrəyə oturmurdu. Miriş ağanın vəfatından sonra 3 yaşlı oğlu Aqil anasından toyuqlu cümə plovu istəmişdi. Anası isə demişdi ki, indi toyuq kəsməyə

imkanımız yoxdu, qavırmalı plov olacaq, balaca Aqil ağlayıb yatmışdı.

Tezdən sübh namazına qalxdıqda həyətdə tut ağacının dibinə iki ayağí bağlí toyuq qoyulmuşdur. Küçə qapısı içəridən bağli, həyətdə qalın qar örtüyü üzərində isə, ayaq izləri yox idi.

3. Xəstəlikdən olan fəsad nəticəsində 6-7 yaşında olarkən Mircəfər aganın ayaqları tutulmuşdur. Qoltuq ağacsız hərəkət edə bilmirmiş. Miriş ağa vəfatından bir neçə ay əvvəl Məşhədə ziyarətə gedəndə bütün ailə üzvlərini də o cümlədən Mircəfəri də aparıb. Ziyarət zamanı İmam Rza məscidinin işçilərindən xahiş edib ki, şikəst uşaq imamın qəbrinin yanında yatıb bəlkə şəfa tapsın. Bu yasaq olduğuna baxmayaraq icazə verilib. Hər gecə olduğu kimi məscidin qapıları bağlanır və Mircəfər İmamın qəbrinin yanında yatır. Sübh namazı vaxtı Miriş Ağa məscidə uşağını götürməyə gəlir. Gözətçi həyəcanla xəbər verir ki, qoltuqağacları yoxa çıxıb. Təəccüblə qeyd edir ki, qapılar bağlı olduğuna görə təsəvvür etmirlər kim onları oğurlaya bilər. Həm də bu muqəddəs yerdə kim buna cəhd göstərər?!



*Mircəfər Mirişli və Püstəxanım...*

Miriş ağa ağlaya-ağlaya əlində gəzdiyi çəliyi məscid gözətçisinə verərək buyurub: “Oğluma söyləyin dursun və tək bu çəliklə gəlsin yanıma. Böyük Allahdan ona şəfa verilib”. Mircəfər ağa ömrünün sonuna qədər çəliklə hərəkət edərdi.

## KİTABLARDAN ALINTILAR...

Şair-dramaturq Kəmalə Ağayevanın babası Hacı Həsən Ağayev şeyx Məhəmmədəli Ağa Naxçıvani oğlu - Miriş ağanın kürəkəni olmuşdur (Kəmalə xanımın atasının atası) ağır seyyidlərdən sayılan Miriş Ağanın qızı Fatimə xanımla ailə qurmuşdur. Bu izdivacdan Kəmalənin atası Ağa və əmisi Xəlil dünyaya gəlmişlər. Kəmalə xanım da həyat yoldaşı Məmməd Qasımovla birgə uzun illər Naxçıvanda təhsilin və mədəniyyətin inkişafına xidmət etmişlər ***(Əli Səfərli, Aybəniz Ağaqızı, “Nuh yurdunun Heyranı” kitabından, Bakı, 2015.)***

...**Vahid Rzayev**.— Yaradanımız Rəhmət Eləsin anama. Axır vaxtlarda anam ahıl yaşlarına çatmışdı və mən istəmirdim ki, o, Yaradan Qabağında qaranlıqla qalxsın. Odur ki, söhbətlərimlə onu “qaldırırdım”, qalxırdı göylərə. Bir gün bu cür söhbətlərin birinin arasında anam məndən soruşur ki, “Vahid, Məhəmməd Peyğəmbərin oğlunun adı Qasım idi?”. Halbuki, söhbətimiz tamamilə başqa bir mövzunun üstündə idi. Mən də cavab verdim ki, “hə, ana, Peyğəmbərin oğlunun adı Qasım idi”. Həmin bu anda, yenə də deyirəm ki, halbuki, göylərin haralarında biz İşıqların içərisində idik və mən hər ikimizin bu vəziyyətimizi Görürdüm. Mənim güldüyümü görüb, dedi ki, “məni bağışla, mən bu

şeylərin çoxunu başa düşə bilmirəm; amma çox istəyirəm ki, bunlardan mənə danışasan, mən isə qulaq asam".

**Fikrət Rzayev** — Yaxşı deyiblər ki, söz sözü çəkər. Neçə illər bundan qabaq anam arada ki, xəstələnmişdi, mən gəlmişdim Naxçıvana; həmin günlərin birində yataqda uzanan anam mənə dedi ki, Fikrət, cibindəki o "Yasin" surəsini, istəyirəm ki, Miriş ağanın ruhuna oxuyasan, mən isə qulaq asam. Dedim ki, ay ana, düzdür, bu "Yasin" surəsi Kirill əlifbası ilə yazılıb deyə, məsələ mənim üçün bir qədər asanlaşıb; amma məşq etmədiyimdən qorxuram ki, sözləri düzgün tələffüz etməyim. Bu isə o qədər də caiz deyil. Həm də bunu insanlar adətən avaz ilə oxuyurlar, bunu isə mən heç bacarmaram. Dedi ki, eybi yoxdur, Allah da, Miriş ağanın ruhu da səni bağışlayar, nə cür bacarırsan, eləcə də oxu. Mən də oxudum. Həmən saatda anam yağışın yağması üçün vaxtilə, Naxçıvanın hansısa bir quraqlıq ilində camaatın xahişi ilə Miriş ağanın müsəlləhə çıxdığını və yağış yağdırtdığını söylədi.

Naxçıvanda Miriş ağanın ailəsinin evlərinin yerində indi möhtəşəm bir məscid tikilib. Mirişlilərdən bəstəkar Ramizin özündən kiçik qardaşı Rəfiq ilə orta məktəbdə bir sinifdə oxumuşduq. 1953-cu ildə 9-cu sinifdə oxuyarkən, Rəfiq Tanrının rəhmətinə getdi. Yaradanımız, Ulu Tanrımız o ailənin və ümumiyyətlə, yer üzünün bütün seyid ailələrinin gedənlərinin hamısına Rəhmət Eləsin, qalanlarını isə daha da İşıqlı, Nurlu Şərəfə Çatdırsın. Axı, "seyid", "seyyid", "səid", "saud" sözlərinin bir deyil, bir neçə mə'nası var. Məsələn, Ərəbistanda islamiyyətə qədər tayfa rəhbərinə, müsəlman dünyasında isə Mühəmmədin (ə.s.) nəslindən olub onun nəvəsi Hüseynlə bağlı adamların fəxri təxəllüsüdür. İlk müsəlmanlardan birisi Xalid bin Said

olmuşdur. Seyidlər dindarlar arasında böyük nüfuza malik olmuş və indi də belə bir nüfuz sahibidirlər. Şərqin bir çox ölkələrində seyid termini öz xüsusi mə'nasını itirmişdir və sadəcə olaraq "cənab", "ağa" kimi işlədilir. Onu da deyim ki, təhlilə görə başqa bir mə'nası "İşıqlı insan", "İşıqlı adam" deməkdir; bu da onların tarixlərinin çox qədim olduğunu bildirir və Böyük Yaradanın onların silsiləsinə bir İşıqlı Baxışından xəbər verir. Onların bu dünyada həddini aşmayan bə'zi imtiyazlılığı da məhz buradan irəli gəlir. Buyur, söhbətinə davam et…

*(Vahid Rzayev və Fikrət Rzayevin **"Yaranış haqqında söhbət"**- (III hissə, 2000 ci il.) kitabından.*

*Müəlliflər barədə: **Vahid Zeynal oğlu Rzayev** 1947-ci ildə Naxçıvan şəhərində qulluqçu ailəsində dünyaya gəlmişdir. **"Yaranış"** kitabının (1999-cu il) çapından sonra 6 kitabı nəşr olunmuşdur.*

***Fikrət Həsən oğlu Rzayev** (1936-2013) - ixtisasca mühəndis-konstruktor, bir neçə elmi məqaləsi, 7 kitabı (bunlardan 3-ü Vahid Rzayevlə birgə) çap olunmuşdur.*

*Ramiz Mirişlinin qardaşı rəhmətlik Rəfiqlə eyni sinifdə oxumuşdur. Azərbaycan və dünya elmi qarşısında xdmətlərinə görə "AqRa" Elmin İnkişafına Dəstək İctimai Birliyi"-nin "Fəxri Üzvü" - seçilmişdir.*



*Mircəfər ağa, həyat yoldaşı Püstə xanım*



*Mircəfər ağa nəvəsi Səadətlə.*
*Şərq qapısı, 1963*



*Adil Mirişli atası ilə*



*Arif Mirişli ailəsi ilə.  1962-ci il*

## HƏZRƏTİ ZƏHRA MƏSCİDİ



Mirişlilərin ata-baba evi indiki bağ məhəlləsi deyilən ərazidə idi. Bura naxçıvanlıların və ətraf kəndlərin əhalisinin inanc və pənah yeri, ocaq idi. Mirişlilər özləri çox firavan dolanmasalar da, çətində-darda imkansızlarla son tikələrini bölürdülər.

Miriş ağanın Sarvanlar məhəlləsindəki ocağının sökülüb yerində Səadət sarayının tikilməsinə 1958-ci ildə qərar verilmişdi. 1962-ci il noyabrın 29-u o ərazidəki bütün tikililər sökülüb yerində inşa olunacaq binanın özülü üçün böyük bir çuxur qazılmışdı. 1977 ildə isə bu ərazidə yerləşən Miriş ağanın övladlarının evləri də tam söküldü.

1992-ci ilə qədər burada Səadət sarayı, yaşayış binası, mehmanxana və başqa binaların tikintisi heç bir nəticə vermədi.

Sarvanlılar məhəlləsinin sakinlərinin dediklərinə görə tikinti sahəsində qəribə hadislər baş verirdi. Gah texnikanın sıradan çıxması, gah buldozerçinin psixikasının pozulması kimi bir çox əfsanələrə bənzəyən hekayələr yayılırdı. Ən qəribəsi də sonunda inşaat çuxurunun hardan gəldiyi



mə`lum olmayan su ilə dolması oldu. Bu səbəbdən də inşaat dayandırıldı.

1992-ci ildə isə, Heydər Əliyev Naxçıvana qayıtdıqdan sonra, respublikamızın ağır ekonomik durumuna, ermənilər tərəfindən ərazimizin bir hissəsinin işğalına baxmayaraq bir qərarla Miriş Ağanın ocağının yerində məscid inşaatına başlanmasına əmr verir. 1999-ci ildə bu Həzrəti Zəhra adı verildiyi məscidin açılış mərasimində şəxsən Heydər Əliyevin özü iştirak edir.



Şəhərimizin ən gözəl məscidlərindən biri hesab edilən bu me`marlıq abidəsində Mirişlilər ailəsinə və Heydər Əliyevin xatirəsinə həsr edilmiş otaqlar vardır.

Məsciddə keçirilən bütün mərasimlərdə ilk dualar Mirişlilərə və Heydər Əliyevə oxunaraq onların ruhları yad edilir. *(H.Əliyevin məscidin açılışındakı nitqinin tam mətni bu kitabda verilmişdir.)*

Ailənin ağsaqqalı Mircəfər Mirişli ömrünün son illərini 5 mərtəbəli binadakı mənzilində keçirir. 1979-cu ildə Mir Cəfər müəllim, 1984-ci ildə isə onun xanımı vəfat etdikdə Adil Mirişli mənzilin açarlarını şəhər sovetinə təqdim edir, həmin mənzili növbədə olan bir müharibə veteranına-qadına verirlər. Çoxları Adil həkimin yerinə olsaydı özünün böyük hörmət və nüfuzundan istifadə edib çoxdan ailə üzvlərindən birinin adına keçirərdi. Lakin həmin çoxları üçün Adil Mirişlinin dayandığı paklıq və alicənablıq zirvəsi bəlkə də dərkedilməzdir. *"Naxçıvan və Naxçıvanlılar" kitabından (İsmayıl Hacıyev, Şükür Məmmədov) Səhifə: 98-105;*



*Şəhərimizin ən gözəl məscidlərindən biri hesab edilən bu memarlıq abidəsində Mirişlilər ailəsinə və Heydər Əliyevin xatirəsinə həsr edilmiş otaqlar vardır*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TİKİLƏN YENİ MƏSCİDİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏKİ NİTQİ

*(10 oktyabr 1999-cu il)*

Əziz naxçıvanlılar!

Əziz müsəlmanlar!

Əziz qonaqlar!

Bu gün Naxçıvan Muxtar Respublikasının, Azərbaycan Respublikasının həyatında çox böyük bir hadisə baş verir. Biz Naxçıvanda yeni bir məscidin, Allah evinin açılışına toplaşmışıq. Bu, bizim üçün böyük bayramdır. Xüsusən onu qeyd etmək istəyirəm ki, bu günlər Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi keçirilir. Məscidin məhz bu günlərdə açılması 75 il ərzində Naxçıvan Muxtar Respublikası vətəndaşlarının, insanlarının, müsəlmanlarının - naxçıvanlıların öz islam dininə nə qədər bağlı olduğunu və islam dininin ənənələrini yaşatdığını göstərir.

Mən bu əlamətdar hadisə münasibətilə sizin hamınızı, Naxçıvan Muxtar Respublikasının əhalisini, İran İslam Cümhuriyyətindən bizə təşrif gətirmiş hörmətli qonaqlarımızı ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu məscid yüz illərlə yaşayacaq, Naxçıvan Azərbaycan xalqının öz islam dini ilə daim birlikdə olmasına xidmət göstərəcək və xalqımızın mənəvi dəyərlərini inkişaf etdirəcəkdir.

Məscidin yaranması, tarixi haqqında burada məlumatlar verildi. Ancaq mən də bu barədə demək istəyirəm. Çün-



ki mən bu gün böyük sevinc, iftixar hissi keçirirəm. Ona görə ki, bu məscidin burada, Naxçıvanda tikilməsinin, yaranmasının təşəbbüskarıyam. Mən bu məscidin memarıyam, mən bunun təməlini qoyanam.

O illərdə və xüsusən 1992-ci ildə, Allah-Taalanın əmri ilə mən Naxçıvan Muxtar Respublikasında yaşadığım və bu muxtar respublikaya rəhbərlik etdiyim zaman Naxçıvan məscidini daim ziyarət edirdim, dindarlarla görüşürdüm. Mən o məscidi yaxşı tanıyıram. Çünki uşaq ikən atam, anam məni həmin məscidə aparırdı. Doğrudur, o vaxt biz sovet hakimiyyəti dövründə kommunist ideologiyasını həyata keçirən bir ölkədə yaşayırdıq. O vaxt din qadağan edilmişdi ardıcıl surətdə din əleyhinə yəni ateist təbliğatı aparılırdı insanları dindən ayırmağa çalışırdılar. O vaxtkı dövlət buna zahirən müəyyən qədər nail ola bilirdisə də, daxilən heç bir şey əldə edə bilmirdi.

Mənim atam da anam da namaz qılırdılar. Onlar daim məscidə gedirdilər uşaq ikən məni də məscidə aparırdılar.

Mənim o uşaqlıq dövrümdə məktəbdə aldığım təhsil, tərbiyə ilə bərabər, məscidə getməyim paklıq, sədaqət formalaşmasında da öz əksini tapıbdır.

Xatirimdədir, o məscidin həyəti var idi. Onun bir tərəfini məktəb etmişdilər. Çünki o vaxt Naxçıvanda məktəblər yaranırdı, bina isə yox idi. Məscid binasının indi görünən tərəfinin arxasında böyük bir həyət var idi, həyətin yan tərəfində binalar var idi, - yəqin onlar da məscidin binaları imiş. Ancaq mən görən zaman orada məktəb var idi. Uşaqlar məktəbdən çıxıb məscidin həyətinə, oradan da məscidə girirdilər. O məscidin həyətində Aşura günlərinin keçirilməsi mənim xatirimdədir. Mən onların hamısını görmüşdüm.

Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin islam dini ilə həmişə fəxr etmişəm. Şübhə etmirdim ki, vaxt gələcək, bizim ölkədə də insanlar tam azad olacaqlar, o cümlədən insanlara vicdan azadlığı veriləcək və onda onlar öz arzu və istəklərini daha da açıq bildirə biləcəklər.

Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük superdövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12 nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin o Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovetlər İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi, hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım.

Mənim dostum, hörmətli şeyxülislam Hacı Allahşükür Paşazadə həyatımda faciəvi bir hadisəni xatırlatdı. 1985-

ci ildə mən Moskvada həmin dövlətin rəhbərlərindən biri olduğum zaman həyat yoldaşım Zərifə xanım vəfat etdi. Onu Moskvanın, Rusiyanın ən mötəbər qəbiristanında dəfn etdik. Çünki mən də, ailəm də Moskvada yaşayırdıq. Sonra mən o qəbiristanı dəfələrlə gəzirdim və orada bir dənə də müsəlman qəbri görmədim. Ancaq dəfn zamanı şeyxülislam Allahşükür Paşazadə mənim yanımda idi. Bəli, bu həqiqətdir. O bunu mənim yadıma saldı. Bir tərəfdən böyük bir dövlətin rəhbərləri dəfn mərasimində iştirak edirdilər, o birisi tərəfdən Qafqaz müsəlmanlarının şeyxülislamı Quran oxuyur və bu dəfn mərasimini bütün adət-ənənələrə görə həyata keçirməyə çalışırdı.

Mən Moskvadan ayrılıb gəlib Naxçıvanda yaşayarkən çox sıxılırdım. Ona görə ki, mənim həyat yoldaşım yad bir yerdə idi. Amma o vaxt onu vətən torpağına gətirməyə mənim imkanım yox idi. Burada bilənlər var ki, o vaxt Moskvada mənim əleyhimə çox böyük işlər görülürdü, böhtanlar atılırdı. Mən istefa vermişdim. Çoxları demişdi ki, müsəlman artıq bu yüksək vəzifədə ola bilməz. Təəssüflər olsun ki, o illər Azərbaycanda da vəziyyət çox gərgin idi. Ancaq mən 1993-cü ildə Azərbaycanın rəhbərliyinə dəvət olunandan sonra həyat yoldaşımın cənazəsini dərhal, yenə də hörmətli Allahşükür Paşazadə ilə bərabər gətirib öz vətənimizdə torpağa verdik.

Mən bunu birinci dəfədir danışıram. Ona görə danışıram ki, mən öz doğulduğum torpaqdayam, öz dostlarımın arasındayam. Ona görə danışıram ki, onun bugünkü gün ilə də müəyyən münasibəti vardır. Mən 1990-1993-cü illərdə burada işləyəndə məscidə gedirdim, dindarlarla görüşürdüm, öz duyğularımı, hissiyyatlarımı orada həyata keçirirdim. Ancaq düşünürdüm ki, indi artıq milli azadlı-

ğımızı, vicdan azadlığımızı əldə edəndən sonra Naxçıvan üçün daha da böyük bina, müasir tələblərə daha da uyğun bir məscid lazımdır.

Mən bu barədə çox fikirləşdim, ancaq əlimdə bir imkan yox idi. Bilirsiniz ki, 1992-ci ilin avqust ayında Azərbaycan ağır bir dövr yaşadığı zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın doğma torpağı olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə 1988-ci ildən Azərbaycanla müharibəyə başlamışdı. Bu müharibə Azərbaycan üçün çox böyük zərərlər gətirmiş, qanlar tökülmüşdür. Azərbaycanlılar, müsəlmanlar ermənilərlə vuruşarkən şəhid olmuşlar. Bunun nəticəsində də Dağlıq Qarabağ uğrunda müharibə getdiyi zaman Naxçıvan Azərbaycanın əsas torpağından Ermənistan ərazisi vasitəsilə ayrı düşdüyünə görə Azərbaycanın paytaxtı Bakı və başqa şəhərlər ilə Naxçıvanın əlaqələri tamamilə kəsilmişdi.

Burada bizim elektrik enerjimiz, qazımız yox idi. Su çox az olurdu. İnsanların yaşayışı çətin, ağır idi. O zaman İran İslam Cümhuriyyətinin hörmətli prezidenti Haşimi Rəfsəncani və İranın xarici işlər naziri hörmətli Əli Əkbər Vilayəti məni Tehrana dəvət etdilər. Biz Naxçıvana yardım məsələlərini orada müzakirə etdik. Bizim imzaladığımız protokollara əsasən ondan sonra Naxçıvana İrandan müəyyən qədər elektrik enerjisi verilməyə başlandı. Naxçıvana müəyyən ərzaq yardımı göstərildi. Naxçıvan ilə İran arasındakı körpüdən gediş-gəliş məsələləri müəyyən qədər yüngülləşdirildi. Naxçıvanlıların İrana getməsi və iranlıların Naxçıvana gəlməsi və beləliklə də insanların ticarət etməsi məsələləri yüngülləşdirildi. Bir çox başqa işlər də görüldü.

Ancaq mən oraya Ermənistanın mühasirəsində qalmış Naxçıvanı xilas etmək üçün, İran İslam Cümhuriyyətindən

yardım almaq üçün getmişdim. Mən bu yardımları müəyyən qədər aldım. Bütün bu çətin işlərlə bərabər, mən Naxçıvanda məscid tikilməsi məsələsini də bir nömrəli məsələ kimi müzakirəyə qoydum. Bu barədə prezident Ağayi Haşimi Rəfsəncani ilə danışdım, Məşhədə getdim, İmam Rzanın qəbrini ziyarət etdim, o vaxt orada olan zati-aliləri Ayətulla Xamneyi ilə görüşdüm və bu fikirlərimi, arzularımı bildirdim. İranın ali rəhbəri zati-aliləri Ayətulla Xamneyinin xeyir-duası ilə mənim əziz dostum, möhtərəm Ağayi Rəfiqdust və onun başçılıq etdiyi təşkilat Naxçıvanda məscid tikilməsi haqqında qərar qəbul etdilər, biz protokol imzaladıq.

Bir daha deyirəm, o vaxt Naxçıvan çox böyük sıxıntılar içərisində yaşayırdı, qışda insanlar donurdu, yemək yox idi. Amma bunlara baxmayaraq biz məscid məsələsini unutmuruq. Bir müddətdən sonra Ağayi Rəfiqdust Naxçıvana gəldi. Biz onunla görüşdük. Mən ona dedim ki, gərək biz məscidin təməlini ataq, külüngü vuraq. Dedi ki, harada vuraq? Bildirdim ki, yer seçmişəm. Bax, bu yeri seçmişdim.

***Nə üçün bu yeri seçmişdim? Çünki, birincisi, bu yer Naxçıvan şəhərinin gözəl bir guşəsidir. İkincisi də, naxçıvanlılar bilir, bu yerdə böyük bir seyidlər ailəsi yaşamışdır. Mircəfər Seyidov mənim müəllimim olubdur, onun qardaşı Aqil Seyidov müəllimlik edibdir, Mirhəsən Seyidov Naxçıvanın teatrının aktyoru olubdur. Mən bu ailədən olanlara Seyidov dedim, çünki onlar seyid idilər. Amma əslində onlar Mircəfər Mirişli, Aqil Mirişli, Mirhəsən Mirişli və bu gün Azərbaycanın böyük bir bəstəkarı olan Ramiz Mirişlidir.***

Mən o illərdə bax, burada onların evlərini görmüşdüm. Sonra isə buraya gələndə gördüm ki, onlarının evlə-

rinin bir qismi sökülüb, bir qismi qalıbdır, bu yerdə başqa - yararsız binalar da var. Mən buranı seçdim ki, məscid tikilsin. Biz Ağayi Rəfiqdust ilə birlikdə gəldik - bilmirəm, yaxud oradır, haradırsa - külüngü vurduq. Onların şəkli qalıb, yoxsa yox?

***Vasif Talıbov:*** Qalıbdır.

***Heydər Əliyev:*** Biz külüngü vurduq. Mən külüngü vurdum, o külüngü vurdu və biz bu məscidin təməlini qoyduq. Bu, hadisə 1992-ci ildə olubdur. Düzdür, bu işə başlanması bir az uzandı. Ağayi Rəfiqdust mənə söz vermişdi ki, bunu tez edəcəkdir. Amma sonra Azərbaycanda ara qarışdı. Ondan bir il sonra az, təxminən 8-9 ay sonra mən buradan Bakıya getdim, Azərbaycana rəhbər seçildim. Orada başım çox qarışdı. Amma mən Vasif Talıbovdan daim soruşurdum ki, məscidin tikintisi nə yerdədir. Bəzən deyirdi ki, işlər gedir, bəzən də deyirdi ki, işlər dayanıb. Soruşurdum ki, niyə dayanıb? Cavab verirdi ki, İranın Qərbi Azərbaycanından, Şərqi Azərbaycanından nəsə gətirirlər, kimsə gəlir, kimsə gəlmir.

Mən Ağayi Rəfiqdusta telefonla zəng etdim ki, qardaş, belə olmaz, protokolu yerinə yetirmək lazımdır. Bu, uzun bir söhbətdir. Nəhayət, Ağayi Rəfiqdustu Bakıya dəvət etdim. Onda mən Azərbaycanın prezidenti idim. Biz Bakıda çox gözəl söhbət etdik. O, mənim əziz qonağım oldu. Ona dedim ki, sənə dörd ay vaxt verirəm, bu vaxt ərzində məscidin tikintisini qurtarmalısan. Bu gün minnətdaram ki, o, mənim xahişimi və mənə verdiyi sözü yerinə yetiribdir. Məscidin binası çoxdan hazırdır. Ancaq bunun açılışı mərasiminin keçirilməsinə görə həm İran üçün, həm də Azərbaycan üçün, yəni mənim üçün bir münasib vaxt tapılması lazım idi. Bu münasib vaxtı tapdıq, buraya gəldik, indi bax, bir yerdəyik.

Mən bunları ona görə geniş danışıram ki, bir də deyim, - bu gün özümü çox xoşbəxt hesab edirəm. Mən çox şadam, çox sevinirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda yaratdığım böyük memarlıq əsərləri ilə yanaşı, İran İslam Cümhuriyyəti ilə bərabər, bilavasitə onların köməyi ilə Naxçıvanda yeni məscid, eyni zamanda Şərq aləminin memarlıq nümunəsi olan böyük bir bina yarada bilmişik.

Naxçıvanda indiki məscidin, səhv etmirəmsə, 100-dən çox yaşı vardır. Amma bu yeni bina yüz illər yaşayacaqdır. Bizdən sonra gələn nəsillər bizə rəhmət oxuyacaqlar. Mənim üçün isə bundan böyük mükafat ola bilməz.

Mən bu məscidin tikilməsindən çox məmnunam. Çox məmnunam ki, məscidin açılışı mərasiminə İran İslam Cümhuriyyətindən böyük, çox mötəbər, möhtərəm qonaqlarımız, dostlarımız gəliblər. Mən bu görüşdən də çox məmnunam.

Bu məscid böyük məna daşıyır. Bu da ondan ibarətdir ki, o, İran-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz, dostumuz, qardaşımız İran İslam Cümhuriyyəti ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Hesab edirəm ki, bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda mən Naxçıvanda olarkən biz bu əməkdaşlıq sayəsində qısa bir zamanda çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enerjisi gəldi. İrandan 40 meqovat elektrik enerjisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerji müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir.

Məni sevindirən odur ki, İran ilə Naxçıvan arasındakı yollar çox sərbəstləşdirilibdir. Hesab edirəm, İran hökumə-

ti bu sahədə çox səxavət göstəribdir, gözəl bir siyasət aparır ki, insanlar 24 saat müddətində Naxçıvandan İrana gedib, İrandan Naxçıvana gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu, bizim arzumuz olubdur.

Bilirsiniz, biz istəyirik ki, müstəqil Azərbaycandan hər bir ölkəyə - əlbəttə, dost ölkəyə - geniş gediş-gəlişimiz çox olsun. Amma İran axı, burada xüsusi yer tutur. Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan azərbaycanlıların, müsəlmanların orada İrandakı Qərb ölkələrinə, Avropa ölkələrinə keçənləri demirəm, keçmiş vaxtları nəzərdə tuturam, - elə İranın özündə də, xüsusən onun Şimal hissəsində ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 il idi ki, bundan məhrum idik. Mən bunların hamısını öz gözümlə görmüşəm. İnsanlar göstərməyə qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu vardır. Onda onu işdən çıxarırdılar, cəzalandırırdılar. Ona görə də hamı İranda qohumları olduğunu gizlədirdi. Elə ki, sərhəd açıldı, o qədər qohumlar meydana çıxdı ki! Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir. İndi Naxçıvan ilə İran arasında olan əlaqələr ən gözəl, nümunəvi əlaqələrdir.

Mən arzu edirəm ki, bu əlaqələr bundan sonra daha da inkişaf etsin. Bu gün İran-Azərbaycan dostluğu haqqında danışarkən o vaxt Azərbaycana, Naxçıvana göstərilən xidmətə görə İranın rəhbərlərinə - zati-aliləri Ayətulla Xamneiyə, prezident Haşimi Rəfsəncaniyə, xarici işlər naziri Ağayi Vilayətiyə və başqa rəhbərlərə təşəkkür edirəm.

Mən Şərqi Azərbaycanın o vaxtkı ostandarı, indi isə İran hökumətinin naziri olan Əli Əbdüləlizadəyə təşəkkür edirəm. Çünki Naxçıvan Şərqi Azərbaycanla da çox yaxındır. Əli Əbdüləlizadə o vaxt Naxçıvana qardaşlıq diqqəti

göstərirdi. Mən məmnunam ki, indi o, İran hökumətinin naziridir.

Mən o vaxt Naxçıvana çox gedib-gəlmiş və uzun müddət Azərbaycan-İran müştərək komissiyasının sədri olmuş Ağayi Şafeyiyə, o zaman Naxçıvana yardım göstərmiş bir çox dostlarımıza təşəkkür edirəm.

Ağayi Rəfiqdust təkcə məscid tikmək üçün yox, ticarət üçün də burada yaxşı bir dükan, mağaza açdı, gətirib mal da satdı. Mən də ona yer verirdim. Ona görə də deyirdim ki, mən onu Bakıya, Azərbaycana ticarət naziri vəzifəsinə aparacağam.

Bilirsiniz, mən o günlər haqqında bir tərəfdən kədərlə danışıram, çünki biz çox çətin bir dövr keçirdik. İkinci tərəfdən, iftixar hissi ilə danışıram, çünki o çətin, ağır dövrdə biz yaşadıq, sınmadıq, əyilmədik, öz torpağımızı müdafiə etdik və respublikamızı inkişaf etdirdik.

Xatirimdədir, ağayi Əbdüləlizadə bir dəfə böyük bir nümayəndə heyəti ilə Naxçıvana gəlmişdi. O vaxt qış idi. Naxçıvanlılar bilir ki, buranın qışı çox sərt olur. Mən onu qonaq çağırmışdım. Biz Naxçıvandakı qonaq otağında oturmuşduq, üşüyə-üşüyə yemək yeyirdik, əlimizi cibimizdən çıxara bilmirdik. Paltomuz əynimizdə idi. Dostum, bunlar yadındadır? Əli Əbdüləlizadə baxıb soruşdu ki, burada necə yaşayırsınız? Dedim ki, gör indi biz burada necə yaşayırıq. Belə səhifələr olubdur.

Biz indi, bu gün tamamilə başqa şəraitdəyik. Doğrudur, Azərbaycanın hələ çox böyük çətinlikləri vardır. O cümlədən, Naxçıvanın ən böyük çətinliyi odur ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə Naxçıvan bu gün də Azərbaycanla, yəni Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlaya bilir. Başqa bir əlaqə yoxdur. Mən burada yenə də İranın Azərbaycana, Naxçıvana yardımını qeyd edirəm və

təşəkkürümü bildirirəm. Yollar bağlananda İran hökuməti Naxçıvandan Bakıya avtomobillərin gedib-gəlməsi üçün yol verdi və biz həmin yoldan indiyə qədər istifadə edirik. Görürsünüz, nə qədər faktlar, misallar vardır. Mən bundan da çoxunu deyə bilərəm.

Beləliklə, bizim bugünkü günümüz İran-Azərbaycan dostluğunun bayramıdır, iftixarıdır. İran böyük, güclü bir dövlət, islam dinini qoruyub inkişaf etdirən bir dövlətdir. İslam inqilabı bu ölkənin həyatını kökündən dəyişmiş, onun inkişaf etməsi, xalqın daha da yaxşı yaşaması üçün böyük imkanlar yaratmış və İranı şahlıq istibdadından xilas etmişdir.

İran İslam Cümhuriyyətidir. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa o cür qəbul edirik. Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki, heç bir dövlət başqa bir dövlətin daxili işinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır.

Mən bu sözləri ona görə deyirəm ki, Azərbaycanda bəzi adamlar, o cümlədən bizə müxalif olan adamlar var. Onlar belə söhbətlər aparırlar ki, İranda azadlıq, filan yoxdur. Mən bu fikirləri tamamilə rədd edirəm. Hesab edirəm ki, Azərbaycandan heç kəs İranın daxili işlərinə qarışmamalıdır. Mən bu gün bunu bəyan edirəm ki, hamı bilsin.

Ancaq indi mətbuat azadlığıdır. İnsanlar qəzetlərdə nə istəyirlər - onu yazırlar. O cümlədən, Azərbaycan prezidenti Heydər Əliyev haqqında da demək olar ki, hər gün müxalifət qəzetlərində yalan, böhtan məlumatlar yazırlar. Bəzən İranın da bir sıra qəzetlərində Heydər Əliyev haqqında yalanlar, böhtanlar yazırlar. Amma mən nə ona, nə də buna fikir verirəm. Bu, əsas deyil. Mən bilirəm ki, o da yalandır, bu da yalandır, o da böhtandır, bu da böhtandır.

Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Biz müstəqilliyimizi əldə edəndən sonra bu yolu tutmuşuq, bu yolla gedirik və bu yolla gedəcəyik. Çünki son iki əsrdə Azərbaycanın həyatında yaranmış proseslər Azərbaycanı məhz demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etdirməyin əsasını qoymuşdur. Bu, bizim yolumuzdur. Biz bu yolla gedirik. Dünyəvi dövlət, eyni zamanda vicdan azadlığı; dünyəvi dövlət, eyni zamanda islam dininin bütün mənəvi dəyərlərinin hamısından istifadə etmək - bundan kim necə istəyirsə, o cür istifadə etsin - bu yol ilə gedirik. Görürsünüz, nə qədər maraqlı, gözəl bir siyasətdir. Biz bu siyasəti aparırıq və bu siyasəti də aparacağıq.

Hesab edirəm ki, hər bir ölkə başqa ölkənin dövlət quruluşuna, siyasətinə, daxili vəziyyətinə hörmətlə yanaşmalıdır. Biz İranın daxili quruluşuna və daxili siyasətinə böyük hörmətlə yanaşırıq. İran da Azərbaycanın daxili vəziyyətinə, dövlət quruluşu prosesinə, dünyəvi dövlət olmasına hörmətlə yanaşır. Bu, bizim dostluğumuzun, qardaşlığımızın əsas prinsiplərindən biridir.

Bizi daha da yaxınlaşdıran odur ki, xalqlarımızın qədim tarixi köklərinin hamısı birdir. Bizim tarixi köklərimiz birdir. Biz bir kökə, bir tarixə malik insanlarıq. Ulu babalarımız İranda da, Azərbaycanda da bu gün bizim üçün dəyərli olan ənənələri yaradıblar. İran ilə Azərbaycan kimi bir-birinə bu qədər bənzər olan digər ölkə yoxdur. Əvvəllər, sovet hakimiyyəti vaxtında Araz çayı maneə idi, indi bu maneə də aradan götürülüb. İndi bu çayın üzərində körpülər tikilir. Hesab edirəm, yeniləri də tikiləcək və bizim əlaqələrimiz daha çox inkişaf edəcəkdir.

Mən bu gün İran xalqına sülh, əmin-amanlıq arzulayıram. Mən bu gün İran xalqına rifah arzulayıram. İran xalqı

demokratik seçkilər əsasında öz dövlətinin başçısını, zati-aliləri Xatəmini ölkənin prezidenti seçibdir. Mən bu seçki başa çatan kimi Qərbin bir neçə ölkəsini təmsil edən mətbuat nümayəndələri qarşısında bildirdim: Siz deyirsiniz ki, İranda demokratiya yoxdur. Bundan artıq nə cür demokratiya ola bilər? Həmin seçkilərin özü İranda demokratiyanın çox yüksək səviyyədə olduğunu göstərir.

Ancaq təbiidir ki, hər ölkənin özünəməxsus xüsusiyyəti var. Mən heç razı ola bilmərəm ki, Azərbaycanda hər bir şey Fransadakı, İngiltərədəki, Amerikadakı kimi olsun. Mən buna razı ola bilmərəm. Mən Azərbaycanda demokratik dövlət yaradıram. Amma Azərbaycanın öz milli-mənəvi ənənələri vardır. İranın da özünün milli-mənəvi ənənələri vardır. İran islam dövlətidir. Belə bir şəraitdə demokratik seçkilər keçirmək, bir neçə namizədin içərisindən xalqın iradəsi ilə prezident seçmək İran İslam İnqilabının ən gözəl nəticələrindən biridir.

Hesab edirəm ki, İran xalqı tərəfindən seçilmiş prezident, zati-aliləri Xatəmi İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinə çox böyük diqqət göstərir. Mən onunla Tehranda görüşüb ətraflı söhbət edərkən bunu hiss etdim. Ondan sonra bir sıra məktublar vasitəsilə əlaqələrimizdən də və xüsusən son dəfə Azərbaycanda səfərdə olmuş Ağayi Əbdüləlizadə ilə söhbətimdən də bunu hiss etdim.

Mən bu gün bir daha bəyan edirəm ki, əziz dostlar, siz də bilin və İran prezidenti zati-aliləri Xatəmi də bilsin ki, Azərbaycanın prezidenti kimi mən İran-Azərbaycan əlaqələrinin sağlam olması yolunda, onun daim inkişaf etməsi üçün çalışıram və bundan sonra da çalışacağam. Bu, bizim xalqlarımız, dövlətlərimiz üçün lazımdır. Mənim bu siyasətimi heç kəs dəyişdirə bilməz.

Bu gün biz islam dininin mənəvi dəyərlərinin təzahürünü bir daha görürük. İslam dininin mənəvi dəyərləri ən yüksək qiymətə malikdir. Hər bir xalq həmişə özünün mənsub olduğu dini təbliğ edir, tərifləyir. Amma eyni zamanda, müqayisə etməyə imkan vardır. Şübhəsiz ki, müqayisə edəndə görürsən ki, həzrəti Məhəmməd peyğəmbərin yaratdığı islam dini və onun yaratdığı Qurani-şərif əsrlər boyu bizim xalqlarımıza mənəvi qida olmuşdur və bundan sonra da olacaqdır. Azərbaycan müsəlmanları həmişə belə olacaqlar.

Mən İrandan gəlmiş qonaqlarımızı bir daha salamlayıram. Təbrizin imam cüməsi Ayətullah Mücrəndi Şəbüstərinin buradakı çox dəyərli çıxışını məmnuniyyətlə dinlədim. Güman edirəm ki, biz bu cür çıxışlarla, danışıqlarla, təmaslarla öz dostluğumuzu, qardaşlığımızı daha da irəliyə aparacağıq.

İrandan gəlmiş bütün qonaqlara təşəkkür edirəm. Sizinlə görüşümdən çox məmnunam və sizi, bütün naxçıvanlıları bugünkü əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

*«Azərbaycan» qəzeti,*
*12 oktyabr 1999-cu il.*

## TARİXİ ARAYIŞ

***Mirişlilər ocağının Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində yerləşdiyi yer barədə Vahid Rzayevin "Həzrəti Nuhla xilas və ərazı" məqaləsindən bir hissə***

...Əbubəkr Əcəmi Naxçıvani Mömünə – Xatun türbəsini müqəddəs qaya silsiləsi üzərində inşa edib.

O qaya silsiləsinin müqəddəslik, hifz edici, xilas edici xususiyyəti var.

Qaya silsiləsi indiki Xal – Xal meşəsindən yuxarıya Şimali – Şərq səmtdən başlayır. Naxçıvan şəhərindən keçməklə Nehrəm kəndinin, Əshabül – Kəhf ( yeddi kimsənələr) istiqamətində Araz çayına yaxın hissədə sönür.

O qaya silsiləsindən çox saylı su çeşmələri, kəhrizlər axır.

Naxçıvan şəhərində Sarvanlar məhəlləsinin başlanğıcında (Şimal səmt) çeşmə var. O qaya silsiləsi üzərində Cənuba doğru Kəblə Musa çeşməsi yerləşir. Təxminən 2,5 km sonra Qızlar bulağı yerləşir. (O Qızlar bulağı sıldırım qayalar arasında qaya daşlarından çox təmiz, sərin su sızır. O qayaların yuxarı hissəsindən dəfələrlə, kəl arabası, at arabası, yaşlı adam, uşaq ehtiyatsızlıqdan hündürlükdən qayalar arasına düşməsinə baxmayaraq, sağ qalmaqla yanaşı heç bir yara da almayıblar. Əhali qaya hissəsinin müqəddəslik daşıyıcısı olduğuna bir daha əmin olublar)

Sarvanlar məhəlləsində o qaya silsiləsi üzərində ağır seyyidlər Miriş ağa, Mirişlilərin evləri yerləşirdi. Sonralar onların evi yerində möhtəşəm məscid kompleksi inşa edildi.

Qızlar bulağı ardınca təxminən 1 km məsafədə Mömünə – Xatun türbəsinin aşağı hissəsində əvvəllər çeşmə axırdı.

Türbənin o sahədə, yüksəklikdə inşasının üç mə`nası var idi. Əvvala müqəddəslik daşıyıcısı qaya silsiləsi, səhər günəşinin çıxma və batmasında türbənin işıq əhatəsində olması və o türbənin (Xan diki də deyilir o sahəyə) aşağısından axar çeşmə, türbəni yer altı sulardan, nəmişlikdən qoruma anlamı daşıyıb.

Amma türbənin aşağısından bir vaxtlar axan çeşmə gözü tutulduqdan yer altı sular geriyə sıxıldığından türbə nəm çəkmə səbəbindən Şimal səmti güclü nəmişlikdədir.

Mömünə Xatun türbəsindən sonra həzrəti Nuh məzarı, Nuh məqbərəsi yerləşir.

Həzrəti Nuh məqbərəsi yüksəklikdə həmin qaya silsiləsi üzərindədir.

Onun aşağısında da çeşmə axır. O axar çeşmə də, üzərində həzrəti Nuh məqbərəsi, Mömünə Xatun türbəsinin yerləşməsi, möhtəşəm Məscid kompleksi, Qızlar bulağı və s. Mə`na daşıyıcılarıdır.

Onlar yer seçməyiblər, o yer onları seçib. Şəhərdə Sarvanlar məhəlləsi də o qaya silsiləsi üzərində yerləşir.

Şəhərdə dörd yol deyilən yerdən yollar ayrılır – Şimala doğru: Şahbuza, Qərbə doğru: Şərura, Şərqə doğru: Ordubada, Cənuba doğru: Naxçıvan şəhəri yerləşir.

Naxçıvan ərazisi çox – çox qədimdən duz yolu kimi və Naxçıvanda olan çox elastik və Şəffaf ipəyinə görə İpək yolu kimi də tanınıb, tarixləşib. Tarixi mənbələrdə öz yerini həzrəti Nuhla da tapıb.

Azərbaycan və Naxçıvan ərazisi İşıq ərazisidir. Tarixlərdən mə`lumdur ki, Azərbaycan və xüsusi ilə Naxçıvana bir çox sərkərdələr qoşunla hərbi yürüşlər ediblər. Naxçıvan ərazisinə, işıq ərazisinə, sahib olmaq istəyiblər. Naxçıvan əhalisi mətinliklə mübarizə apararaq, hər bir döyüşcü bir sərkərdə olub.

Amma o yürüşlərin sonluğu, o sərkərdə və qoşunu bir müddətdən sonra o ərazidən geriyə dönüblər. Onunla da o sərkərdə və qoşun, öz ərazisi ilə süquta məhkum olunublar.

Çünki, Azərbaycan ərazisinin ilkdən İşıq Sahibi var, Mütləq olan O İşıq Sahibinə isə, sahib olmaq olmaz.

*("Azad Azərbaycan" – qəzetində 24.06.2014 N 87 (2532) və Əjdər Fərzəlinin "Ноев ковчег и Гямигая Гобустанский алфавит» kitabında (Bakı, 2015) çap edilmişdir. Kitabın 1-ci və 2-ci nəşrinin elmi redaktoru və 2-ci nəşrinə rə`y yazanlardan biri də akademik İsa Həbibbəylidir.)*

**Bismillahir rəmanir rəhim!**

Ağa Mirağa (Miriş Ağa) şəcərəsinin qısa məzmunu və əlavəsi haqqında açıqlama.

Şəcərənin Ağa Mir Ağa (Miriş Ağa)-nın böyük oğlu Mircəfər Ağada olan nüsxəsi hicri 1217-ci ildə tərtib edilibdir, 1291-ci ildə cəmadiül-əvvəl ayında ikinci dəfə tərtib edilibdir. Son babamız Ağa Mir Ağa – yəni Miriş Ağa yazılıbdır ki, haliyyədəki familyamız olan Mirişli həmin babamızın adından götürülübdür. Rəhmətlik atam Mircəfər Ağa deyirdi: « 1920-ci illərdə familiya yazılanda rəhmətlik Əqil əmim familiyamızın Mirişli olmasını təklif edib, beləliklə də biz əmioğullarımızdan fərqli, yəni onların familiyası Seyidov, bizimki isə Mirişli olubdur».

**Şəcərə belə başlayır:** Allah fəzilətinə qoşulmuş, Allah cəlalından olan, dünya və axirət işığı «Səyyidi səadət»lar ucalığına şükürlər olsun. Qələminin işığı dünyanı nurlandıran, bəlağətli qələmi aləmi bəzəyən, Utarid *(Merkuri)* nişanlı bu doğruluq, mötəbərlik ifadə edən və həqiqət bəyan edən səhifə üzərində bu vicdanlı, şölə saçan tələbin *(iddianın)* yerinə yetirilməsini bildirir və elan edir ki, həqiqətən şöhrəti *(soyadı)* və nəsli adlı-sanlı əlahəzrət hakimə çatan, təbiətən müdrik, elmli, xeyirxahlığı, istedadı, bacarığı ilə başqalarından üstün olan Ağa Mir Ağa ibn Səyyid Məhəmməd Hüseyn, ibn Səyyid Nurəddin, ibn Səyyid Məhəmməd, ibn Səyyid Kazım əl-Hüseyni, əl-Naxçıvani vaizlərin fikrincə günəşdən parlaq, güclü dövlətin əbədi müddət davam etməsinə qələbə çaldı. Keçmişdəkinə yenidən baxaraq, sübut edildi ki, bütün ali dərəcəli xoşbəxt səyyidlər şanlı və adlı-sanlı adamlar və müasirləri arasında seçilir. Beləliklə,



الحمد لله الذی فضل السادات بین الطبقات بالفضل الجلی

وشرفهم بما فی حدیث الوسیلة بالشرف العلی والصلوة

علی سیدنا محمد وآله الفائزین من الله العلی

الاعلی بشرافة قل لا اسئلکم علیه اجراً الا المودة فی

القربی وبعد الحمد والتحیة والثناء مصباح خامه جهان

افروز درافشان ومشکوة قلم عالم آرای عطارد نشان در سطح این

صحیفهٔ حقیقت تبیان و حقیقت بنیان بادای این مدعای صدق بیان نور پاش

اظهار و اعلان میگردد که چون صحت نسب و شهرت حسب عالیحضرت

سیادت فطرت فضیلت منقبت آقا میرآقا ابن آقا سید محمد حسین

ابن سید نورالدین ابن سید محمد ابن سید کاظم الحسینی النخجوانی نزد اعیان

دوام دولت ابد مدت قاهره اظهر من الشمس و ابین من الامس

ثابت و واضح و یقین و لایح گردیده که از جملهٔ سادات عالی درجات سرافراز

و بحلیهٔ عزت و آبرو بین الاماثل و الاقارن ممتاز میباشد پس بکافهٔ مسلمین

و قاطبهٔ مؤمنین لاسیما ارباب ثروت و اصحاب مکنت و معرفت را لازم است

که بمصداق حدیث حضرت خیرالانام علیه و آله الصلوة و السلام که در یوم القیام خطاب

به اهل محشر نموده میفرماید که ایها الناس من له علی ید او منة فلیقم حتی اکافیه یعنی ای

مردمان هرکس که او را در گردن من عطایی و نعمتی و حقی داشته باشد باید که برخیزد تا من

عوض و تلافی آنرا به او کنم خلایق عرض میکنند و گویند که یا رسول الله چه عطا و چه حق ما را بر تو هست

آنحضرت در جواب ایشان فرماید بل من احسن الی ذریتی و اوی طریدهم و اشبع جائعهم

او کسا عاریهم فلیقم حتی اکافیه یعنی هرکسیکه به ذریه و اولاد من احسانی کرده و رانده

ایشانرا جا داده یا برهنهٔ ایشان را پوشانیده باشد پس باید برخیزد تا به او تلافی نمایم الخ در مراعات

و اعانت و تعظیم و توقیر آقای مذکور بایصال وجه خمس و نذر یا تبرعاً کمال سعی و اهتمام

بعمل آورند که البته عند الله و عند الرسول ضایع نخواهد شد و باعث نجات یوم لا ینفع مال

و لا بنون خواهد شد المعین معان و الله المستعان و کان ذلک فی ۲۲ شهر جمادی الاولی سنه ۱۲۹۱

bütün müsəlman və tamam möminlər və xüsusilə imtiyazlı ağalar və var-dövlət və mərifət sahibləri lazımdır ki, hədisin məzmununu bilsinlər: Həzrəti əl-ənam (insanların ən yaxşısı deməkdir və Məhəmməd peyğəmbərin (s.a.s) epitetlərindən biridir) qiyam günü məhşər əhlinə müraciət edərək bildirir ki, "Ey insanlar! Hər kəs ki,ona hədiyyə, mal-dövlət verib və mükafatlandırıb gərəkdir ki, ayağa qalxa və mən onların əvəzini və mükafatını ona edəm". Yaradılanlar ərz edir ki, ya Allahın Rəsulu, bizim Sənin üzərində nə kimi hüququmuz və payımız var? O Həzrət onlara cavabında buyurdu ki, hər bir kəs mənim zürriyyətimə (Yəni nəslimdən olana) və övladıma əl tutub, onların qovulmuşlarına yer verib, onların hamısını geyindirib gərək ayağa qalxa ki, onu mükafatlandırım. Bu hədisdən belə çıxır ki, bütün müsəlmanlara məsləhətdir ki, bunlara hərtərəfli kömək etsinlər, kömək edənlərə qiyamətin günündə əhli-məhşərə Peyğəmbər (s.a.s) sədası çatacaq, onun balalarına kömək edənlərə Peyğəmbər (s.a.s) özü kömək olacaq.

Va-llahu mostəan – Allah hamıdan rəhmli, hamıdan güclüdür.

Miriş Ağanın üç oğlu olub:

Mircəfər Ağa, Mirhəsən Ağa, Mir Aqil Ağa.

Mircəfər Ağanın 4 oğlu olub:

Ağa – yəni babasının adı Ağa Mir Ağa, Arif, Akif, Adil.

Mirhəsən Ağaın 1 oğlu olub – Rəşid.

Mir Aqil Ağanın 3 oğlu olub: Ramiz, Rəfiq, Faiq.

Bu əlavə və yazıları 5 mart 2000-ci ildə Mircəfər Ağanın kiçik oğlu Hacı Adil Mircəfər oğlu Mirişli tərtib etdi.

**Naxçıvan Şəhəri.**

Miriş ağanın nəvələri-artıq XX əsrdəki III Mirişlilər sülaləsi ziyalılıq ənənələrini əzmlə davam etdirmişlər.

**MİRİŞLİ Arif** Mir Cəfər oğlu (1926-1997 Naxçıvan), Naxçıvan MR əməkdar müəllimi. Hüseyn Cavid irsinin ciddi araşdırıcılarından biri olmaqla, dahi mütəfəkkirin bir çöx pyes və şe`rlərini əzbərdən bilmişdir.

**MİRİŞLİ Akif** Mir Cəfər oğlu (1933 - 2017, Bakı) - kimyaçı, Qorki Dövlət Universitetinin məzunu, SSRİ-nin əməkdar ixtiraçısı olmuşdur.

**MİRİŞLİ Rəşid** Mir Həsən oğlu (1930-1975) - Azərbaycan Xarici Dillər institunun alman dili fakültəsinin və Əzim Əzimzadə adina rəssamlıq məktəbinin məzunu.

**MİRİŞLİ Rəfiq** Aqil oğlu (1936-1953) yeniyetmə yaşlarında vəfat etmişdir.



**MİRİŞLİ Ramiz** Aqil oğlu *(16.04.1934, Naxçıvan ş. - 17.04.2015 Bakı ş 1-ci Fəxri Xiyaban)* – bəstəkar. Azərbaycan Respublikasının xalq artisti *(1990)*, professor *(1993)*. Mir Aqil Mirişlinin oğludur. Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu *(1954)* və Azərbaycan Dövlət Konservatoriyasının *(indiki Bakı Musiqi Akademiyası)* bəstəkarlıq fakültəsini *(1962; Cövdət Hacıyevin sinfi)* bitirmişdir. 1962 ildən Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Musiqi Baş Redaksiyasında böyük redaktor işləmişdir. 1963 ildən Bakı Musiqi

Akademiyası xalq çalğı alətləri kafedrasının müəllimi *(1993 ildən professor)*, 1996 ildən eyni zamanda Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində musiqi redaksiyasının baş redaktoru vəzifəsində çalışmışdır. 1987-95 illərdə Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri olmuşdur. Ramiz Mirişli fortopiano üçün 12 prelüd, fortopiano triosu, simli kvartet, 2 simfonik poema, tar və simfonik orkestr üçün konsert, kamera orkestri üçün simfoniya, onlarca kinofilmə və teatr tamaşasına musiqi, xalq çalğı alətləri orkesri üçün konsertlər və süitalar, 3 balet süitası, 500-dən çox mahnı və romans, " Qaçırılmış qız" və "Gəl qohum olaq" operettaları, 9 simfonik süita, uşaqlar üçün musiqi və s. əsərlərin müəllifidir.

Ramiz Mirişli 1978-98 illərdə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şö`bəsinə də rəhbərlik etmişdir. Yaradıcılığında Naxçıvan mövzusu əhəmiyyətli yer tutur: xalq çalğı alətləri orkestri üçün "Naxçıvan lövhələri" süitası, Məmməd Arazın sözlərinə "Doğma diyar" vokalorkestr süitası, İ.Səfərli, Məmməd Araz, Fikrət Qoca və başqalarının sözlərinə mahnılar və s. bəstələmişdir. Bir sıra Şərur yallısını nota almışdır. 2004-cü ildə "Şöhrət", 2014-cü ildə "Şərəf" ordenləri ilə təltif olunmuşdur.

Naxçıvan diyarının sayseçmə yetirmələrindən biri bu torpağın bəstəkar oğlu Ramiz Mirişli də məhz belə bir nəsildən çıxmışdır. Ramiz Mir Aqil oğlu Mirişli 1934-cü ildə Naxçıvan şəhərində anadan olmuş, orta təhsilini və ibtidai musiqi təhsilini də anası Adilə xanımın ciddi nəzarəti altında burada almışdır. Az sonra A.Zeynallı adına orta ixtisas musiqi məktəbini, onun ardınca isə Azərbaycan Dövlət Konservatoriyasında məşhur bəstəkar Cövdət Hacıyevin sinfini bitirmişdir.

Ramiz Mirişlinin bəstəkar taleyi, musiqi qisməti, heç şübhəsiz ki, ilahinin yazısıdır. Belə deyirlər ki, yaradıcı insanlar Allaha daha yaxındırlar. Əgər belədirsə ulu bir nəsilə, müqəddəs ocağa məxsus Ramiz Mirişli peyğəmbər nəsli kimi Tanrıya ikiqat yaxındır. Bəstəkarın həyat yolu seçimində heç şübhəsiz ki, nəslin demokratik ənənələri, əmisi aktyor Mir Həsən Mirişlinin şəxsi tə`siri az rol oynamamışdır.

Lakin həyatda onun ən böyük qazancı xalq sevgisi, el məhəbbəti olmuşdur. 30-dan artıq bədii filmə, əlliyə yaxın tamaşaya musiqi bəstələmiş Ramiz Mirişli, həm də onlarla simfonik əsərin müəllifidir. Lakin bəstəkara hörmət qazandıran, el sevgisi gətirən onun mahnılarıdır. Saf məhəbbət, əməkçi insana hörmət, vətən sevgisi, füsunkar Azərbaycan təbiətinin vəsfi bu lirik nəğmələrin əsas leytmotividir. Bir neçə il bundan əvvəl Ramiz Mirişlinin Kərbala ziyarəti onun yaradıcılığına dərin tə`sir göstərmişdir, bəstəkar ulu peyğəmbərimizin şərəfinə B.Vahabzadənin sözlərinə "İlahi" nəğməsini yazmışdır. Beləliklə, bəstəkarın dini motivlərlə şərtlənən yeni yaradıcılıq istiqaməti yaranmışdır.

Həssas dinləyici, musiqi duyumu olan hər kəs Ramiz Mirişli musiqisini onun adı e`lan edilmədən də dərhal duya bilər. Çünki onun istənilən nəğməsinin cövhərində Naxçıvan ritimləri, doğma torpağın təranələri durur. Bu ritmlərdə, səslər mozaikasında Haçadağın qüruru, Əlincə dəyanəti, Əshabül-Kəhf sirri, Araz həsrəti duyulmaqdadır. Bəlkə də, məhz buna görədir ki, bəstəkarın "Dalğalar", "Qızlar bulağı", "Ay qəlbi kövrək", "Səndən danışdı" və başqa mahnıları həmişə təravətli, ürəkləri fəth edən, repertuarlardan düşməyəndir. Ölməz "Cahargah", "Qarabağ şikəstəsi" kimi.

Olduqca sadə və mehriban bir insan olan Ramiz Mirişli də bütün qalan Mirişlilər kimi həmişə məğrur və qürurlu olmuşdur. Həyatda heç kəsə borclu olmadığını, həmmişə yalnız "Tanrıma minnətdaram" söyləmişdir.

**MİRİŞLİ Faiq** Agil oğlu (01.01.1939 Naxçıvan), fizika-riyaziyyat elmləri namizədi, Naxçıvan Dövlət Universitetinin dosenti, oradakı bir çox texniki kafedraların rəhbəri, prorektoru. Çoxillik və səmərəli pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosent Faiq Mirişli də öz nəcib işləri ilə Miriş ağanın layiqli varisi olduğunu sübut emişdir.

*Mənbələr: "Naxşıvan və Naxçıvanlılar" kitabı, İsmayıl Hacıyev, Şükür Məmmədov, səhifə 98-105"* (Bax: *Naxçıvan Ensiklopediyası. II cildə, II cild Naxçıvan. 2005. səh. 43-45.*)

Bu gün Mirişlilərin böyüməkdə olan gənc IV və V sülaləsi müəllim, həkim, hüquqşünas, musiqiçi və s. peşələrə yiyələnməkdədir. Yaşlı nəsil çalışır ki, gənclər Mirişli ocağına mənsub olduqlarını unutmasınlar, xalqa təmənnasız xidmət, xeyirxahlıq və paklıq ənənələrini də davam etdirsinlər.

**MİRİŞLİ Mircəfər** ağanın oğlanları:

**MİRİŞLİ Ağoş** 1923-1943, müəllim, Böyük Vətən Müharibəsində həlak olmuşdu.

**MİRİŞLİ Arif** 1926-1997

qızı Səmayə xanım - 1950, müəllimə.

qızı Səadət xanım - 1953, həkim-pediatr;

Mirişli Mirməhəmməd Arif oğlu, 1958, sürücü – texnik;

Mirişli Mirrəsul Arif oğlu, 1960-2004, musiqiçi.

**MİRİŞLİ Akif** 1933-2017: İxtiraçı-alim 1954, Qorki Dövlət Universitetinin mə`zunu (radiofizika).

Mirişli Alim Akif oğlu, 1954, radiotexnik

**MİRİŞLİ Adil**, 1938. övladları:

IV və V nəsil Mirişlilər

MİRİŞLİ Mir Asəf Adil oğlu, 1963, Leninqrad Elektrotexnika İnstitutunun mə`zunu. Oğlu MİRİŞLİ Cəfər, 1998 il (Mircəfər babasından düz 100 il sonra anadan olmuşdu), hazırda Moskva Humanitar Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin 2 kurs tələbəsi. Qızı Tamilla (nənəsinin adı), 2001; 2018 ildə orta məktəb mə`zunu. Qızı Mədinə, 2006, 6-cı sinif şagirdi. Uşaqların ana babası Azərbaycan Respublikasının xalq artisti Cahangir Novruzov.

MİRİŞLİ Emin Adil oğlu 1967, Moskva Dövlət Universitetinin mə`zunu (fizika və hüquq), qızı Əminə, 2013

MİRİŞLİ Aybəniz Adil qızı, 1972, Azərbaycan Neft Akademiyasının mə`zunu, qızı Günel, 2003; 10 sinif şagirdi. Həyat yoldaşı MİRİŞLİ Yusif, bəstəkar, xalq artisti Ramiz Mirişlinin oğlu.

**MİRİŞLİ Mirhəsən ağanın övladları:**

**MİRİŞLİ Rəşid**, 1930-1975, rəssam

Oğlu Mirişli Fuad Rəşid oğlu, 1952, iktisad elmləri doktoru, professor

**qızı İradə Xanım** 1923-1996, Azərbaycan Dövlət İncəsənət institutunun mə`zunu;

**MİRİŞLİ Mir Aqil ağanın övladları:**

**qızı Xalidə Xanım,** 1933, müəllimə

**MİRİŞLİ Ramiz,** 1934-2015, övladları:

MİRİŞLİ Nazim Ramiz oğlu, 1962, bəstəkar, pedaqoq, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, professor

MİRİŞLİ Yusif Ramiz oğlu, 1966, bəstəkar, pedaqoq, professor

MİRİŞLİ Aqil Ramiz oğlu, 1966, hüquqşünas.

**MİRİŞLİ Rəfiq, 1936-1953**

**MİRİŞLİ Faiq,** 1939 övladları:

MİRİŞLİ Rəfiq Faiq oğlu, 1972, həkim-stamatoloq

Adilə, 1974, müəllimə

Aygün, 1976, həkim-anesteziolog-reanimatoloq

MİRİŞLİ Şahin Faiq oğlu, 1983, hüquqşunas

*Materialları toplayıb – mətni tərtib etdilər:*
***Mirələkbər Seyidov,***
***Mir Asəf, Emin və Aybəniz Mirişlilər***





*Mircəfər Mirişlı, 1964 il*



*Qardaşı Akif Mirişli ilə*



*Adil tələbəlik illərində*



*Atası Mircəfər Mirişli*



*Mircəfər müəllim 3 nömrəli məktəbin məzunları ilə*



*Həzrəti Zəhra məsçidində Mirişlilərin xatirə güşəsi*



*Adil Mirişlinin atası Mirişli Mircəfər*
*və anası Mirişli Püstəxanım*





*Həyat yoldaşı Tamilla xanım*

*qızı Aybəniz Mirişli*



*Akif, Püstə xanım, Mircəfər Mirişli və qaynı Orxan Novruzov.*
*Lenenqrad. 1964*



*Mir Asəf və Emin.*
*1970*



*Anası Püstəxanım Mirişli ilə*



*Birgə həyatın başlanğıcı,*
*1962*



*Yoldaşı Tamilla həkim,*
*1984*



*Mircəfər müəllim 3 nömrəli rus məktəbinin kollektivi ilə*



*Əziz Əliyev adına Naxçıvan Uşaq Xəstəxanasında, 1989*



*Tələbəlik illəri 1961*




*Tibb İnstitutunun məzun fotosu 1962*



*Qəhrəman Əliyev ilə*



*Atası, övladları və qaynı Orxan Novruzov ilə 1978*



*Adil, Akif, Arif, MirAsəf Mirişlilər və həkim Polad Sultanov*



*Atası, anası, həyat yoldaşı və qardaşının həyat yoldaşı Səyyarə Mirişli*



*Atası Mircəfər Mirişli,*
*oğlu Mir Asəf Mirişli ilə. 1963*



*Tamilla Mirişli 1983*



*Oğlu  Mir Asəf Mirişli ilə*



*Gənc ailə 1966*



*Ailəsi ilə birlikdə. 1987*



*Atası Mircəfər Mirişli 1948*



*2008*



*2013*



*2015*



*Sağdan Ramiz Mirişli, Faiq Mirişli, Adil Mirişli,*
*Həsənağa Qurbanov və Zaur Rzayev*




*Həc ziyarətinə yola salan dostları Fərman İbrahimov və Sədrəddin Kazımov*
*1998*

## EL GÖZÜNDƏ UCALAN İNSAN

*«Şərq Qapısı» qəzeti 28.08.1998." Tofiq Cəfərov, Naxçıvan MR Səhiyyə nazirinin müavini.*
***Adil Mirişlinin 60 illiyi münasibəti ilə.***

Muxtar respublikamızda hamımızın istəklisi, təvazökar, alicənab, zəhmətsevər, nurlu sifətli, hər kəsə qarşı mehriban olan Adil Mirişlinin adı çəkilən yerdə, məclislərdə həyəcansız söhbət açmaq mümkün deyildir. Onun keçdiyi 60 illik mə'nalı, çox ibrətamiz həyat yolu hamımız üçün bir örnəkdir.

Naxçıvan şəhərində hamının inanc yeri olan Mirişlilər ocağında 15 avqust 1938 ildə Mircəfər müəllimin 4-cü oğlu Adil dünyaya gəlmişdir. Uşaqlıq illəri müharibə dövrünə düşdüyünə görə yaşıdları kimi o da çətinliklərlə üzləşmişdir. 1955-ci ildə Naxçıvan şəhərindəki 1 nömrəli orta məktəbi qızıl medalla bitirmiş və həmin il Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsinə qəbul olunmuşdur. Elə həmin il oktyabr ayının 24-də həkim olmaq qərarına gəlir və ərizə verərək institutdan çıxmışdır.

1956-cı ildə imtahanları müvəffəqiyyətlə verərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna - pediatriya fakültəsinə qəbul olunmuş, 1962-cı ildə institutu bitirdikdən sonra tə'yinatla Nehrəm kənd sahə xəstəxanasına pediatr göndərilmişdir. Həmin vaxt xəstəxananın baş həkimi Əqil müəllim idi. Onlar iki il iki ayadək bir yerdə işləmişdilər. Kənddə az müddət işləməsinə baxmayaraq Adil Mirişli əhali arasında çox böyük hörmət qazanmışdır.

Naxçıvan şəhərində yaşadığına görə onun hər gün kəndə gedib qayıtması çətinlik törətdiyi üçün 1964-cü il oktyabr ayının 7-də Naxçıvan şəhər uşaq xəstəxanasının poliklinika şö`bəsinə sahə pediatrı vəzifəsinə dəyişdirilərək 5 il sahə pediatrı işləmişdir. 1966-cı ilin fevral ayında Azərbaycan dövlət həkimləri Təkmilləşdirilmə İnstitutunda pediatriya üzrə kursdan keçən Adil Mirişli 1969-cu il 10 oktyabrda N.Nərimanov adına respublika xəstəxanasının yoluxucu xəstəliklər şö`bəsinə həkim tə`yin edilir. O, 1970-ci il fevral ayının 11-dən iyulun 30-dək Ə.Əliyev adına Azərbaycan Dövlət həkimləri Təkmilləşdirilmə İnstitutunda yoluxucu xəstəliklər üzrə ixtisaslaşma kursundan və attestasiyadan keçərək birinci dərəcə alır.

Kursdan qayıtdıqdan sonra üç ayadək xəstəxanada işləyir, sənədlərini aspiranturaya verir və SSRİ Tibb EA-nın Pediatriya İnstitutunun aspiranturasına qəbul olunur. Beləliklə o, 1 oktyabr 1970-ci ildən 1 oktyabr 1973-ci ılədək Moskvada əyani oxuyur, aspiranturanı bitirən kimi akademik S. D. Nosovun və professor N.V.Vorotınsevanın rəhbərliyi altında hazırladığı "Uşaqlarda respirator - virus mikoplazma infeksiyasının immunokliniki xarakteristikası"mövzusunda dissertasiya müdafiə edir, ona Lenin və Qirmizi Əmək Bayrağı ordenli Pediatriya institutunun elmi sovetinin 30 oktyabr 1973-cü il tarixli qərarı ilə tibb elmləri namizədi alimlik dərəcəsi verilir.

Aspiranturanı bitirdikdən sonra A.Mirişli bir müddət həmin institutda həkim - infeksionist işləyir, sonra o, Naxçıvana qayıdır. 30 oktyabr 1973-cü ildən Naxçıvan MR Səhiyyə Nazirliyinin baş pediatrı vəzifəsinə tə`yin edilir və uzun müddət həmin vəzifədə layiqincə çalışır. Pediatrlar xəstəliyin diaqnostikası və xəstələrin mualicəsi sahəsində hər han-

sı bir çətinliklə qarşılaşanda mütləq Adil Mirişliyə müraciət edirlər. A.Mirişli uşaqların düzgün qidalanmasına və xəstəliklərin profilaktikasına xüsusi diqqət verir. Onun pediatrlarla apardığı səmərəli işin nəticəsidir ki, muxtar respublikada uşaq ölümü Azərbaycan Respublikası göstəricisindən aşağı olur. O, 1966-cı ildən Naxçıvan Tibb məktəbində orta tibb işçilərinin hazırlanmasında gərgin əmək sərf edərək fəaliyyət göstərmişdir - orta tibb işçilərinin çoxu onun tələbəsidir.

Adil həkim 1980-ci ildə SSRİ Səhiyyə nazirliyinin əmri ilə "Səhiyyə əlaçısı" nişanı ilə təltif olunmuş, ona 1988-cı ildə Azərbaycanın "Əməkdar həkimi" fəxri adı verilmişdir.

1997-ci ilin sentyabr ayında Bakı şəhərində keçirilən Türk dilli ölkələrin Milli Pediatriya cəmiyyətlərinin IV Beynəlxalq Konqresində iştirak etmişdir.

Adil Mirişli gözəl ailə başçısıdır. Onun həyat yoldaşı Tamilla xanım da ixtisasca pediatrdır. O Moskva şəhərində 2 illik kliniki ordinaturada olub. Tamilla həkim pediatriyanın aktual sahəsi olan allerqologia üzrə ixtisaslaşmış həkimdir, ana və uşaq reabilitasiya mərkəzində işləyir, 1984-cü ildən muxtar respublikanın əməkdar həkimidir.

Onlar 3 övlad böyütmuşlər. Böyük oğlu Mir Asəf Leninqrad Elektrotexnika İnstitutunu bitirib, mühəndis - fizikdir. Moskvada biofizika üzrə aspiranturanı qurtarıb, Moskvada yaşayır, ailəlidir.

İkinci oğlu Emin Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirib, hazırda həmin universitetin aspirantıdır. Eyni zamanda ikinci ixtisas almaq üçün həmin universitetin hüqüq fakültəsində oxuyur.

Ailənin son beşiyi Aybəniz Azərbaycan Neft Akademiyasını bitirib. Hazırda Türkiyədə, Afyon şəhərində yaşayır, ailəlidir.

1998-ci il Adil Mirişli üçün əvvəlki illərə nisbətən daha uğurlu olub – uzun illər arzusunda olduğu Məkkə ziyarətində olub, sonra ilk nəvəsi Cəfər dünyaya gəlib.

Bu günsə 60 illik yubileyini qeyd edir. Ömrünün qalan müddətinin də ona yeni-yeni uğurlar gətirməsini Ulu Tanrıdan arzulayırıq.

Adil Mirişlinin keçirdiyi 60 illik həyat və fəaliyyətinin qısa xronolojisi yuxarıda qeyd etdiyim kimidir. Lakin onun şəxsiyyəti bizim dərk etdiyimizdən çox yüksək, tə`rif edə biləcəyimizdən daha alidir. Onun özünün isə tə`rifə heç bir ehtiyacı yoxdur. O, elə bir şəxsiyyətdir ki, Allah onu Mirişli ocağının böyük bir xilqəti - kimi Yaratmış və Tanıtmışdır!

Adil Mirişli ilə 24 ilə yaxın müddətdə əvvəllər həmkarlıq, sonralar dostluq və ailəvi dostluq etdiyim, onunla Kərbəla və Məşhəd ziyarətlərinə birlikdə gedib yol yoldaşlığı etdiyim üçün onun həyat və fəaliyyəti haqda yazmaq mənim üçün çox şərəfli və zövqlü vəzifə oldu. Onun çox sadə tavazörkarlıq nümünəsi sayila bilən həyat yaşaması haqqında yazdıqca adam mə`nəvi cəhətdən çox böyük zövq alır. Hamıya qarşı səmimi, qəlbdən yanarlı, "Öyrənib Öyrətməkdə Xəsislik Bilməyən", qabil sənətkar olan Adil Mirişli təkəbbürdən, yalandan, tamahdan, paxıllıqdan uzaq olması, gözəl davranışı ilə hamının hörmətini qazanmışdır.

Hacı Adilin həyatında ocağa sədaqətillik xususi yer tutur. Məhəmməd peyğəmbər (s) deyib ki, "Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz". Bu müdrik kəlam Mirişli ailəsi timsalında daha qabarıq görünür. Övladlarına gözəl tərbiyə verməsi ilə yanaşı, Mircəfər müəllimin Adilə xitabən **"Oğul, çalış heç kimin ürəyinə dəymə!"** nəsihəti hər an xatırlanır və ona əməl olunur.

Yüksək səviyyəli insan, əsl ziyalı və ə`la həkim olan A.Mirişlinin bütün ömrünü həzrəti Əli (ə)-nin aşağıdakı kəlamı ilə qiymətləndirmək yerinə düşər: "Ən qiymətli mal - ağıl, ən sadiq dost - gözəl xasiyyət, ən qiymətli miras - ədəb, ən xeyirli yol - hidayət yolu, ən böyük şərəf -elmdir."

**Doğrudan da başqalarından ağlı , gözəl xasiyyəti, ədəbi, hidayət yolu ilə getməsi, elmi ilə fərqlənən A.Mirişli ali şəxsiyyət kimi Allahın biz tibb işçilərinə, eləcə də muxtar respublikanın əhalisinə bəxş etdiyi Misilsiz Hədiyyədir.**

A.Mirişlinin sadaladığım xasiyyətlərinin bu gün daha qabarıq nəzərdə çarpmasında və cilalanmasında onun görkəmli cərrah Mehdi Bağırovla 25 il bir yerdə işləməsinin böyük rolu olduğunu qeyd etməliyəm.

Öz sadəliyi ilə el gözündə uca zirvələrə qalxmış A.Mirişlinin həyat və fəaliyyəti bütün gənc tibb işçilərinə örnəkdir.

**Adil Mirişlinin 80 illiyi münasibəti ilə.**

1999-cu ildə Naxçıvan Dövlət Universitetində Pediatriya ixtisasına qəbul aparıldıqdan sonra Adil Mirişli həyatının bir hissəsini məhz yüksək ixtisaslı pediatrların hazırlanmasına sərf etdi. O, 2001-ci ildə yeni yaradılmış Pediatriya kafedrasına müdir tə`yin edildi və universitetdən ayrıldığı günədək kafedra müdiri kimi fəaliyyətini davam etdirdi. Kafedra müdiri kimi işlədiyi müddət ərzində tələbələrimizin nəzəri və təcrübi biliklərə yiyələnməsi üçün əzmlə çalışdı. Bu illər ərzində Türkiyə Respublikasında tələbələrin təcrübi biliklərinin artırılması məqsədilə Van, Elazığ, Ərzurum universitetlərində təşkil edilmiş tibbi hey`ətdə təmsil olunmuş və onlara rəhbərlik etmiş-dir. 2005-ci ildə rəh-

bərlik etdiyi kafedranın dosenti seçilən Adil həkim 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent diplomunu aldı. Universitetdə işlədiyi müddətdə respublikamızın nüfuzlu elmi jurnallarında tibb elminin aktual məsələlərinə həsr olunmuş 47 elmi məqaləsi dərc edilmişdir. Pedaqoji fəaliyyəti dövründə 4 metodik vəsait hazırlayıb çap etdirmişdir. Bunlardan Bəhruz Məmmədov ilə birlikdə 2010-cu ildə çap etdirdiyi "Uşaqlarda maddələr mübadiləsinin xüsusiyyətləri. Diatezlər" *(Bakı. «Elm və təhsil» - 73 səh.)*, Bəhruz Məmmədov və Elsevər Əsədovla birlikdə 2011-ci ildə çap etdirdiyi "Uşaqlarda endokrin sistem və onun xəstəlikləri" *(Bakı. «Elm və təhsil» - 122 səh.)*, 2005-ci ildə çap etdirdiyi "Anaların məlumat kitabı" *(T.Cəfərov və R.İbadullayeva ilə birlikdə; cərrah, SSRİ Xalq həkimi, Azərbaycanın əməkdar həkimi Mehdi Bağırova həsr olunub)* və 2006-cı ildə "Erkən yaşlı uşaqlarda həzm sistemi və qidalanma" *(T.Cəfərovla birlikdə)* metodik vəsaitləri hal-hazırda və bundan sonra da tibb sahəsində çalışan həkimlərin və tibb fakültəsinin tələbələrinin stolüstü kitabı olaraq qalacaqdır.

Adil Mirişli 2013 ildə öz arzusu ilə təqaüdə ayrılmışdır.

Bu əziz gündə 80 illiyi münasibətilə Adil həkimi bütün tibb işçiləri adından təbrik edir, ona can sağlığı, uzun ömür və yeni-yeni uğurlar diləyirəm.

***Tofiq Cəfərov,***
*Naxçıvan MR Səhiyyə nazirinin müavini*
*(1985-yanvar-sentyabr; 1991 – 2001)*

# YAXŞI İNSAN HƏR KƏS ÜÇÜN NEYMƏTDİR

*Elm kesbiyle pâye-i rif'at*
*Arzûy-ı muhâl imiş ancak*
*Eşk imiş hər nə var âləmdə*
*İlm bir kîl ü kâl imiş ancak…*
***Füzûlî***

İnsan, Tanrı sevgisinin nəticəsidir və sevgidən yoğrulmuşdur. İnsan olmağı istəmək də sevginin nəticəsidir, bir eşqdir.

İnsan, beyni, bədəni, duyğuları ve ruhuyla var olmaqdadır. İnsanı başqa canlılardan ayıran bu özəlliklər, insan olmanın təməl əlamətləridir. İnsan doğulmaqla insan olunmaz. İnsan olmaq, böyük sə`y və zəhmət sərf edildikdən sonra qazanılan bir vəsvidir. O, yaranışından e`tibarən daima inkişafda olmaq və arınmak məcburiyyətindədir. Yer üzündəki bütün canlılar kimi ətdən, sümükdən, qandan yoğrulmuşdur insan. İnsan İNSAN olmaq üçün elmini, ruhunu, əxlaqi və mə`nəvi vəsvlərini daima inkişaf etdirməlidir. Bir növü özü özünü bir heykəltəraş kimi yontaraq daxili dünyasına zərər verən hər nə varsa yox edib elimiylə, əxlaqi və mə`nəvi dəyərləriylə, Allahın bizi sevgiylə yoğuraraq qəlbimizə və beynimizə qoyduğu gözəlliklərlə, eşqlə şəxsiyyətini yaratmalıdır. Şərqin filosofu Əli Şəriətinin də dediyi kimi "Sevgi şüurlu bir ünsiyyət; açıq-aydın duruluq və saflıqla baxaraq görə bilmənin nəticəsidir." İnsan sevgidir, sevgidən ibarətdir. İnsanı insan qılan, sadəcə ətdən, qandan və sümükdən var olan vicudu deyildir. Onun hə-

yatdakı duruşu və davranışı, rəftarı və əxlaqı, aydın zəkası, fikirləri və danışıq tərzi, ona yön verən beyni və ağlı, qəlbi və ruhu bir də bütün sahib olduqlarını hər kəsə ifadə edə biləcək dilidir, danışıq mədəniyyətidir. "İnsan ruhu bir qəndildir, elmi isə onun ziyası", demiş Əbu Nəsr Əl-Fərabi.

Hər insan həyatı öz məsləyinin, peşəsinin pəncərəsindən görüb dəyərləndirir. Sahib olduğu məslək onun dünya görüşünü formalaşdırır. Dünyanı irəli götürən, onu formalaşdıran çox peşələr vardır, amma can sağlığı olmasa bunlar nə işə yarıyar? Mənim nəzərimcə məsləklərin ən önəmli olanı həkimlikdir. Çünkü həkimin qarşılaşdığı insanlar ona hər zaman ümidlə baxar. Ümid, var olmanın əsas səbəbidir. Əyər insanın əlindən ümidi alınırsa, o, yaşamaq, var olmaq məqsədini itirər, həyat onun üçün mə`nasızlaşır. Ümidləri yox olursa, insanın yaşamaq arzusu tükənir və həyat eşqi sönür. İnsan səbəbsiz yaşaya bilməz. Yaşamaq ümidiylə qarşısına çıxan insanlara şəfa bəxş edərək həkimlik məsləyinin sirlərini kəşf etmiş bir şəxs, mükəmməl insani keyfiyyətlərə sahib olmaya bilməz, buna ixtiyarı yoxdur.

Peşəsinə üstün bir şəkildə sahib olan, onu sözün əsil mə`nasında insanlara xidmət üçün icra edən çox yaxından tanıdığım həkimlərin siyahısının baş sıralarında doktor Adil Mirişli yer alır. Yuxarıda sadaladığım bütün insani və məsləyi vəsvlərə mükəmməl bir biçimbə sahib olan və təmənnasız bir şəkildə biliyini insanlara ərmağan eyləyən bu şəxsi uzun illər tanımaqdan böyük şərəf duyduğumu ifadə etmək istərdim. İllərin verdiyi təcrübənin və mükəmməl bir şəkildə sahib olduğu həkimlik peşəsinin ərsəyə gətirdiyi müdrikliyin nəticəsində tədricən ailəmizin ağsaqqalına və özəlliklə sağlıq məsləhətçimizə çevrilmiş Adil Mirişli. Bu illər içərisində Adil doktorun hörmətinin sadəcə

ailəmizin içində deyil, onu tanımış olan, onunla sağlıq səbəbiylə təmasda olan hər kəsin ona böyük rəğbət və hörmət bəslədiyinin şahidi oldum. Çünkü aid olduğun məsləyin elmini nə qədər mükəmməl bildiyinə və sahib olduğun təcrübənin, peşəkarlığın səviyyəsinə görə cəmiyyət sənə dəyər verir, səni səciyyələndirir.

Bilindiyi kimi mən uzun illərdir Türkiyədə yaşayıb çalışıram. Bu müddət ərzində mənim kimi xaricdə yaşayan və ya gəzməyə gəlmiş minlərcə insanlarla tanış oldum. Onların arasında doktor Adil Mirişlini tanıyanların sayı heç də az deyildi. Təsadüfmü bu, yoxsa qanuna uyqunluq, bunu deyə bilmərəm. Amma, hal-əhval tutduğumuzda ki, biz Azərbaycanlılarda kimlərdənsən marağı daimidir, özəlliklə Naxşıvanda yaşamış olanlar arasında Adil doktorun qohumu olduğumu bilənlərin gözlərində gördüyüm parıltını heç bir sözlə ifadə edə bilmərəm. Bu baxışların səbəbiyyətinə sonsuz minnətdarlıq demiş olsam az olar. Çoxunun anlatdığı xatirələr, ya uşaqlarının, ya da uşaq ikən özlərinin Adil doktorun onlara yenidən necə həyat verdiyinin, onları sağlığına necə qovuşdurduğunun, ümidsiz bir vəziyyətdə ikən bir həkimin onlara yenidən necə həyat imkanı yaratdığının hekayələri idi bunlar. Bu e`tirafları eşitmək, bu hekayələrdən qürur duymaq necə bir duyqudur, siz təsəvvür edin. Sanıram bu gün Naxçıvanda elə bir ailə tapılmaz ki, ordakı heç olmasa bir uşağa Mir Adil doktorun şəfalı əlləri dəyməsin.

Xatırlayıram, rəhmətlik atam Mütəllib Novruzov və anam Nəsibə Zeynalova Adil doktorun xətrini çox istərdilər. Adil və sadiq ömür yoldaşı Tamilla xanım o zaman Moskvadaydılar. Doktor Adil Mirişli Moskvada aspiranturasını bitirmək üzrə dissertasiyasını müdafiyə edəcəkdi. Anam və atam, bu çox anlamlı gündə Adil və Tamillanı tək qoymayacaqlarına qərar

vermişdilər. Nəsibə xanımın tamaşaları olduğu üçün atam Moskvaya tək getməli oldu. Müdafiə gününə 2 gün qala, o zamankı Moskvada tapılmayacaq azuqəni Bakı bazarından tə`min edərək sürpriz bir şəkildə Moskvaya gəldi atam. Təbii ki, Adil və Tamillanın sevincinin həddi hüdudu yox idi. Bir böyük qardaşın belə bir gündə dəstəyinin nə olduğunu anlarsınız. Atam Adilin müdafiəsində iştirak etdi və qayıtdıqdan sonra bizə orada yaşadığı qüruru anlatdı. Atamın bizə danışdıqlarından tək bir cümləni burada yazmam bu dissertasiyanın müdafiəsinin hansı səviyyədə keçdiyini anlaşılması üçün yetərli olacaq sanıram. "Adil o qədər rahat və biliyinə güvənir bir şəkildə müdafiə olurdu ki, opponentləri üzlərindəki heyranlıqlarını və məmnuniyyətlərini gizləyə bilmədilər." Müdafiə bittikdən sonra opponent professorlardan biri bu müdafiəni qeyri adi bir hadisə kimi dəyərləndirərək "25 ildir aspiranturada imtahanlara girirəm amma həyatımda ilk dəfə üzündə rahat bir təbəssümlə müdafiə olunan bir aspirant gördüm. Aramıza xoş gəldin məsləkdaşım." demişdi.

Adil doktoru tanıdığım uzun illər içərisində onun bu biliyindən, uşaq olmasam da, şifahi bir şəkildə də olsa mən də yararlanmamış deyiləm. Çox maraqlıdır ki, bu konsultasiyalar, bir birimizdən uzaqda olduğumuz üçün, hər zaman telefonla olub. Rahatsızlığımı diqqətlə dinləyib hər dəfəsində bu sözlə başlayır: **"Mən bu xəstəliyin həkimi deyiləm, amma** sən bunlara diqqət et və uzman həkimə getdiyində bunun bu səbəbdən ola biləcəyi ehtimalını da de." İnanın istər Bakıda, istərsə də Türkiyədə getdiym həkimlərə, məni müayinə edib fikirlərini söylədikdən sonra Adil doktorun diqqətini çəkən səbəbi söyləyincə sanki həkimlərin gözlərindən pərdə qalxırdı. Onlar bu ehtimalı gözə alınca Adil doktorun haklı olduğunu söyləyirdilər.

Heyif ki, həkim deyiləm, olsaydım Doktor Mir Adil Mirişlinin professionallığı haqqında dərin bir incələmə yazardım. Amma həkim olmasam da bu insanın xalqına, insanlarına nə qədər yararlı olduğunu və onlara necə vicdanla, təmannasız xidmət etdiyini çox yaxşı bilirəm. Belə insanların qədrini bilmək, onları gələcək nəsillərə örnək olsun deyə qorumaq, əzizləmək lazımdır. Yeraltı və yer üstü sərvətlərimiz olduğu kimi insan qaynaqlarimiz gələcəyimiz üçün bizim əsil sərvətimiz və ən qiymətli varlığımızdır. Biz məslək əxlaqını, peşəyə və insana sədaqəti onlardan öyrənirik çünki. Belə insanlar hər millətin səssiz və göstərişi olmayan qəhrəmanlarıdır. Loğman həkim oğluna nəsihətində belə insanlar haqqında gözəl demiş: " Evladım, elmi alimlər qarşısında lovğalanmaq, səfehlərlə mübahisə mövzusuna çevirərək məclislərdə göstəriş üçün öyrənmə!" Doktor Adil Mirişli məhz Loğman həkimin örnək göstərdiyi kimi bir insandır.

İnsan, varlığını və həyatını bütün insanların həyatıyla bütünləşdirən, onları hər şeyə "rəğmən" sevən və onların yararına çalışandır. Onları sevərkən içindəki bütünlüyə ulaşandır. Sevgiylə birlikdə bilgiyə, elmə yol tapandır. Doktor Adil Mirişlinin 80 yaşı tamam olur. Mə`nalı bir ömür yaşayan bu insana onun sadiq həyat yoldaşı Tamilla xanımla birlikdə, özlərinin illərdir insanlara təmənnasız xidmət göstərərək ərmağan etdikləri sağlıqdan pay alaraq can sağlığı və uzun ömür arzulayıram. Var olduqca gələcək nəsillərə örnək olmağa davam edin.


***Cahangir NOVRUZOV***

*Azərbaycan Respublikasının Xalq artisti,*

*Professor*

## YÜKSƏK AMALLI ŞƏXSİYYƏT

**"Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar".**

***HEYDƏR ƏLİYEV***

*Azərbaycan xalqının ümummilli lideri*

Adil Mircəfər oğlu Mirişli 25 avqust 1938-ci ildə Naxçıvan şəhərində dövrünün tanınmış ziyalı müəllimlərindən və sayılıb-sevilən çox hörmətli ağsaqqallarından olan Mircəfər ağa Mirişlinin ailəsində anadan olub.

1945-ci ildə Naxçıvan şəhər 1 saylı orta məktəbin birinci sinfinə daxil olan Adil Mirişli 1955-ci ildə məktəbi qızıl medalla bitirmiş və həmin il Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə qəbul olunmuşdur. Lakin tibbə olan sonsuz maraq ona təhsilini davam etdirməsinə imkan verməmiş və oktyabr ayının 24-də öz ərizəsi əsasında institutdan xaric edilmişdir.

Adil Mirişli 1956-cı ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə qəbul olunmuşdur. 1962-ci ildə İnstitutu bitirdikdən sonra tə`yinatla Naxçıvan (Babək) rayonunun Nehrəm kənd sahə xəstəxanasına pediatr göndərilən Adil həkim 7 oktyabr 1964-cü ildə Naxçıvan şəhər birləşmiş uşaq xəstəxanasının poliklinika

şö`bəsinə sahə pediatrı vəzifəsinə dəyişilir və 5 il işləyir.

O, 10 oktyabr 1969-cu ildə N.Nərimanov adına respublika xəstəxanasının yoluxucu xəstəliklər şö`bəsinə həkim tə`yin edilir. 1970-ci il 11 fevraldan 30 iyunadək Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda yoluxucu xəstəliklər üzrə ixtisaslaşma kursunda olur və attestasiyadan keçərək birinci dərəcə alır. Kursdan qayıtdıqdan sonra 3 ayadək xəstəxanada işləyir. Elə bu illərdə o, sənədlərini aspiranturaya verir və keçmiş SSRİ Tibb Elmləri Akademiyasının Pediatriya İnstitutunun aspiranturasına qəbul olaraq elmi fəaliyyətini davam etdirir. 1 oktyabr 1970-ci ildən 1 oktyabr 1973-cü ilədək Moskvada ə`yani oxuyur və aspiranturanı bitirən kimi akademik S.D. Nosovun rəhbərliyi altında hazırladığı ,,Uşaqlarda respirator virus-mikoplazma infeksiyasının immunokliniki xarakteristikası" mövzusunda dissertasiya müdafiə edərək, ona Lenin və Qırmızı Əmək Bayrağı ordenli Pediatriya institutunun Elmi Şurasının 30 oktyabr 1973-cü il tarixli qərarı ilə tibb elmləri namizədi alimlik dərəcəsi verilir. Adil həkim aspiranturanı bitirdikdən sonra 1 oktyabr 1973-cü il tarixdən 7 noyabr 1973-cü il tarixədək həmin institutda həkim-infeksionist işləmiş, sonra Naxçıvana qayıtmışdır.

Gənc alim Naxçıvana qayıtdıqda dövlətimizin yüksək qayğısı sayəsində 30 noyabr 1973-cü ildə Naxçıvan MSSR Səhiyyə Nazirliyinin baş pediatrı vəzifəsinə tə`yin edilir. Səhiyyə Nazirliyində Baş pediatr işlədiyi müddətdə uşaq ölümünün azaldılmasına, tibbi sənədlərin tə`limata uyğun aparılmasına nail olmuşdur. O, görkəmli həkim-pediatr kimi də bu gün naxçıvanlıların sevimlisi kimi daima xatırlanır. İşlədiyi illərdə şəfalı əlləri və yüksək elmi ilə daima uşaqların sağlamlığı keşiyində durmuşdur.

Bu tanınmış həkim ziyalı, alim-pedaqoq, gözəl ailə başçısı və el ağsaqqalı nail olduğu bütün uğurlara öz məqsədyönlü mübarizliyi, prinsipiallığı, əməksevərliyi, şəxsi qabiliyyəti sayəsində nail olmuşdur.

2005-ci ildən dövlət qulluğu təqaüdündə olan A.Mirişlinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, ,,Səhiyyə əlaçısı" və ,,Sanitariya əlaçısı" döş nişanları ilə təltif edilmiş, 1988-cu ildə isə Azərbaycanın Əməkdar həkimi fəxri adına layiq görülmüşdür.

Həkim adını daima uca tutmaq, şərəfini və ləyaqətini qorumaq, xəstələrə qarşı həmişə isti münasibətdə bulunmaq, insanlara qarşı diqqətcil olmaq, insanları qiymətləndirməyi bacarmaq Adil həkimin mən deyərdim ki, ən gözəl xüsusiyyətlərindəndir. Həkim kimi də, insan kimi də, ziyalı, pedaqoq alim kimi də, ata kimi də o daima insanların sevimlisi olmuş, bu gün də o sevgi, o məhəbbət yaşayır.

Dəfələrlə şahidi olmuşam ki, Adil həkim iş vaxtından sonra da uşaqlarının xəstəliyi ilə bağlı müraciət edən insanları naümid qoymayıb. Evində belə onları təmənnasız olaraq qəbul edib, xəstəni müayinə edərək diaqnozunu müəyyənləşdirib, dərmanını yazaraq onları gülərüzlə yola salıb, şəfa diləyib. Bax, Adil həkim bu cür mə`nəvi və insani dəyərlərə malik, sözün əsl mə`nasında Hippokrat andına sadiq bir həkimdir.

Adil həkimin 56 illik həkimlik ömrü narahatlı-nigaranlı və sonu da işıqlı-nurlu bir ömür olub. Bilmirəm necə ömürdür, yaxşımı-pismi? Amma şərəfli, namuslu, qeyrətli, xidmətli ömürdür Adil Mirişlinin ömür yolu. Onun ömrü insanlara sevinc bəxş edir, gözlərə təbəssüm gətirir, qəlbləri ziyarət edir. Belə ömrə, belə həyata yaşamalı və ibrətli

ömür deyirlər. Bax, elə buradaca xalq şairi Nəriman Həsənzadənin "Zirvə" adlı gözəl şeirini xatırladım:

*Zirvəyə qalxıram dolama yolla,*
*Bu yol əziyyətdir, tamaşa deyil.*
*Qalxıram tədbirlə, hisslə, ağılla,*
*Zirvənin mənzili bir başa deyil.*

*Kəsir qabağımı gah sis, gah duman,*
*Gözümdə yorğunluq, saçlarımda dən.*
*Qalxıram, daş qopur ayağım altdan,*
*Dağ mənə söykənir, mən dağa hərdən.*

*Ah zirvə hardadır, görəsən harda?*
*Nədir mən getdiyim bu cığır, bu iz.*
*Mən də bir zirvəyəm aşağılarda,*
*Nə mən zirvəsizəm, nə zirvə mənsiz.*

Özü də bir zirvə olan Adil həkim ensklopedik biliyi və həkimlik sahəsində göstərdiyi yorulmaz fəaliyyəti, yüksək amalı ilə bu gün respublikamızda həkimliyin və insanlığın ən yüksək zirvəsində dayanan el ağsaqqallarımızdandır.

Böyük Yaradan Adil Mirişliyə bənzəri olmayan ailə və gözəl övladlar bəxş edib. Mir Asəf və Emin kimi dağ vüqarlı oğullar, Aybəniz xanım kimi gözəl qız övladı. Mir Asəf fizik-mühəndis, Emin hüquqşünas, Aybəniz xanım isə mühəndisdir. Allah hər üçünü də xoşbəxt eləsin, atalı-analı, ailələri ilə birgə xoş illər yaşasınlar, baba-nənə olmaq qismət olsun bu dəyərli övladlara. Amin! Adil həkimin ömür-gün yoldaşı Tamilla xanım da ixtisasca həkimdir. Tamilla xanım da ömrünü xalqımızın balalarının sağlamlığına sərf edən təmkinli, bilikli, əsl azəri qadınlarına xas olan

mə`nəvi dəyərli, geniş dünyagörüşünə malik xanım-xatın bir anadır, sədaqətli, vəfalı həyat yoldaşıdır. Tanrı Sizə yar olsun, həkim. Əlləriniz həmişə şəfalı, ev-eşiyiniz daima çıl-çıraqlı, işıqlı, nurlu olsun.

Bir nəfər Həzrət Peyğəmbərdən soruşur: ya Rəsulallah, insanların ən xeyirlisi kimdir? Rəsulallah buyurur: ömrü uzun, əməli gözəl olan. Siz əməli gözəl, əlləri şəfalı, qəlbi və ruhu işıqlı olan gözəl el ağsaqqalı və xalq həkimisiniz. Aqillərimizin gözəl bir sözü var: ot öz kökü üstə bitər. Bu tarixi bir deyimdir. Atanın çörəyi, ananın südü Sizə halal olsun *(Allah Mircəfər ağaya və Püstə xanıma qəni-qəni rəhmət eləsin, ruhları şad olsun)*.

Mənim üçün doğma və əziz olan gözəl həkim və əsl el ağsaqqalı, daima qayğısını hiss etdiyim, ata qədər doğma və əziz olan Adil Mirişliyə ömrünün bu ixtiyar çağında, 80 illik yubileyində möhkəm can sağlığı, mənəvi rahatlıq, ailəsi ilə birlikdə bundan sonra da firəvan həyat yaşamağı, həkim, pedaqoq, alim kimi fəal yaradıcılıq uğurları arzulayıram.

***Bəhruz Məmmədov***
*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin*
*Əczaçılıq və stomatologiya kafedrasının müdiri,*
*Qabaqcıl təhsil işçisi, dosent*

## İNSANLAR ARASINDA NADİR ŞƏXSİYYƏT

Şəxsiyyətinə böyük hörmət etdiyim, sadə, səmimi, vicdanlı, bulaq suyu qədər təmiz, bir insan haqqında söz demək böyük məsuliyyət tələb edir. Məşhur pediatr, uşaqların sevimlisi Adil həkim də məhz belə nadir şəxsiyyətlərdəndir. Adil həkimin həyatı, gördüyü işlər haqqında yazmaq olduqca çətin, söz tapıb demək mənim qələmimin qüdrəti xaricindədir. Bu insan haqqında yazmaq istəyimin əsas səbəbi xalq, millət, vətən, elm qarşısında xidmətlərinin əvəzsiz ölçüyə, çəkiyə malik olmasıdır. Adil həkim saf, təmiz, yaxşı əməlləri ilə şəxsiyyət zirvəsinə yüksələn bir insandır. İnsan şəxsiyyətə çevriləndə, ona olan hörmət, ehtiram əbədiləşir. Mənə xoşbəxtlik nəsib olmuşdur ki, Adil həkimlə 21 il birlikdə çiyin-çiyinə işləmiş və bu illər ərzində 11 il bir otaqda oturmuşuq. Məhz buna görə deyə bilərəm ki, Adil həkim bu dünyaya gələn nadir şəxsiyyət, olduqca ağıllı, təfəkkür sahibi, təmkinli, dözümlü və çox səbrli bir insandır. İşlədiyi çətin şəraitə baxmayaraq, hər zaman, hər yerdə bu insan özünü təsdiqləyib. Məhz, ona görədir ki, onu tanıyanlar yaxşı bilirlər... O etibarlı dost, yoldaş, mütəxəssis, yaxşı həmkar və vətəndaşdır.

Uzun müddət mineral suların tədqiqi ilə məşğul olduğum üçün bilirəm ki, mineral sular kimyəvi tərkibinə görə bir neçə qrupa bölünür. Mineral sulardan bir qrupu var ki, onlar nadir tapılan sular qrupuna aiddir. Mən rəmzi olaraq məhz Adil həkimi təbiətdə nadir tapılan bu mineral sular qrupuna aid edərdim. Batabatda "Zor bulaq" adında bir bulaq var. Onun suyu o qədər təmiz, şəffaf və sterildir ki,

müdriklərin deyiminə görə, bu suyu iynəyə çəkib birbaşa venaya vurmaq olar. Mən Adil həkimin şəxsiyyətindəki saflığı, təmizliyi rəmzi olaraq bu "Zor bulağın" suyuna bənzədirəm.

Adil həkim institutu bitirib ali təhsil həkim diplomu aldıqdan sonra, könüllü olaraq Nehrəm kənd xəstəxanasında həkim-pediatr kimi fəaliyyətə başlayıb. Halbuki, onun daha rahat yerlərdə işləmək şansı var idi. Ancaq onun obaya, torpağa bağlılığı, vicdanının səsi Azərbaycanın ən böyük kəndlərdən biri olan Nehrəm kəndinə apardı. Bu insan bütün çətinliklərə baxmayaraq uzun müddət Nehrəmdə işlədi və yüzlərlə xəstə uşağı ölüm pəncəsindən xilas etdi. 60-70-ci illərdə onun ağır vəziyyətdə müalicə etdiyi uşaqlar hazırda müxtəlif sahələrdə vətənə, xalqa xidmət edirlər. Adil həkim ailəsinə, valideyinlərinə olan münasibətinə, hörmətinə görə hər bir Azərbaycan ailəsi üçün örnək olacaq oğul, ata və ailə başçısıdır. Bu məğrur ATA fəxr etməlidir ki, Asif, Emin, Aybəniz kimi övladları var.

Mənim yaxın qohumum Samir Cəfərov bir yaşında olanda ağır xəstələndi. Çoxlu müalicələr aparılmasına baxmayaraq, heç bir müalicə effekt vermədi. Mənim və valideyinlərinin əli hər yerdən üzüldü. Həkimlər də Samirin qurtulmasının mümkün olmadığını dedilər. Mənim təkidimlə uşağı Adil həkimin yanına müayinə etməsi üçün apardıq. Adil həkimin təyin etdiyi müalicə Samiri ölüm pəncəsindən xilas etdi. Həmin Samir Cəfərov indi Azərbaycan Respublikasının xalq artistidir. Adilin əmisi oğlu, həm də qudası Ramiz Mirişlinin 80 illik yubiley gecəsində Samirin oxuduğu mahnılar Adilin o qədər xoşuna gəlir ki, ona yaxınlaşıb minnətdarlıq etmək istəyir. Samir isə öz növbəsində ona

təşəkkür edərək bildirir ki, mən sizi bir yaşından tanıyıram. Həkim üçün bu ən böyük hədiyyədir.

Adil həkim həm də güclü yumor hissinə malik və etik normalar daxilində duzlu zarafatları olan biridir.

Əziz qardaşım Adil həkim sizin haqqınızda saatlarla yazmaq və danışmaq olar. Sizi anadan olmağınızın 80 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzu edir və daha uzun həyat yaşamağınızı diləyirəm.

*Düz qamətin sənin uca boyun var,*
*Əslin, kökün, nəcabətin, soyun var,*
*Aybənizin, Asifin, Eminin var,*
*Xalqın sevimlisi ay Adil həkim!*

*Çox şükür çatmısan 80 yaşına,*
*Mən bilirəm nələr gəlib başına,*
*Ağ dən düşməyəcək qara saçına,*
*Xalqın sevimlisi ay Adil həkim!*

*08.06.2018*

***Dərin hörmətlə,***
***Əkbər Bilal oğlu Axundov,***
*tibb üzrə fəlsəfə doktoru,*
*1993-1995-ci illərdə*
*Naxçıvan MR-nın*
*Səhiyyə naziri*



## MİRİŞLİLƏR ŞƏCƏRƏSİ VƏ ADİL MİRİŞLİ

Azərbaycan miqyasında tanınmış şəcərə olan Mirişlilər ölkəmizin elmi-mədəni və maarifçi ziyalılığına böyük simalar bəxş etmişdir. Kökləri etibarilə Naxçıvan torpağına bağlı olan, bu diyarda yaşayıb-yaratmış Mirişlilərin dünyanın ayrı-ayrı ölkələrindən də sorağı gəlir. Bu nəsil üçün halallıq, mənəvi paklıq, maarifçilik çox mühüm səciyyəvi keyfiyyətlərdir. Mirişlilər mədəniyyət, elm, təhsil və tibb sahələrində təmsil olunmağa daha çox üstünlük verirlər. Xalq arasında onların həmişə böyük nüfuzu olmuşdur.

Ölkəmizdə müxtəlif sahələrdə çalışıb nüfuz qazanmış, böyük şöhrətə malik olan Mirişli soyadını daşıyan onlarla ziyalı adları çəkmək mümkündür. Azərbaycan Respublikasının əməkdar artisti Mirhəsən Mirişli (1903-1973) görkəmli teatr xadimi kimi mədəniyyət tariximizə unudulmaz iz salmışdır. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının inkişafında Mirhəsən Mirişlinin böyük xidmətləri olmuşdur. Azərbaycan Respublikasının xalq artisti Ramiz Mirişli (1934-2015) milli bəstəkarlıq sənətinin tarixinə görkəmli mahnı bəstəkarı kimi öz möhürünü vurmuşdur. Naxçıvan Dövlət Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi Faiq Mirişli çoxillik və səmərəli pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mircəfər Mirişli (1898-1979), tanınmış maarif xadimi Aqil Mirişli (1905-1945), Azərbaycan Respublikasının Əməkdar müəllimi Adilə Mirişli (1913-1987) və başqaları muxtar respub-

likada əsl nümunəvi maarifçilər kimi tanınmışlar. Hazırda Rusiyada və Türkiyədə hörmət və nüfuz qazanmış Mirişli soyadından olan adlı-sanlı simalar fəaliyyət göstərməkdə davam etməkdədir.

Mirişlilər nəslinin nüfuzlu simalarından olan Adil Mircəfər oğlu Mirişli (1938) ömrünü həkimlik andına həsr etmişdir. El arasında o, əsl xalq həkimi kimi qəbul olunur. Yüksək professionallıq və şəxsiyyətin bütövlüyü, mə`nəvi saflıq və təmənnasızlıq Adil həkimə və mənsub olduğu böyük nəslə bir daha baş ucalığı gətirmişdir. Ən başlıcası isə Adil Mirişli həkim üçün zəruri sayılan ümumxalq inam və ehtiramı qazanmışdır. Onun verdiyi tə`yinat və diaqnoz mübahisəsiz qəbul olunmuş, hər dəfə özünün gerçəkliyini doğrultmuşdur. Adil həkim xalq arasında uşaq təbabətinin loğmanı hesab edilmişdir.

Adil Mirişlinin simasında həkimliklə müəllimlik bir-birini tamamlamışdır. Tibb elmləri namizədi Adil Mirişli həm də uzun müddət Naxçıvan Tibb Texnikumunda dərs deməklə yüksək ixtisaslı tibb bacılarının hazırlanmasına böyük töhfə vermişdir. Adil Mirişlinin Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsindəki səmərəli fəaliyyəti əsl xalq həkiminin adına və şöhrətinə layiq olan mükəmməl bir örnəkdir. Azərbaycan Respublikasının Əməkdar həkimi, tibb elmləri namizədi Adil Mirişli Naxçıvan Dövlət Universiteti rektorluğunun də`vəti ilə bu ali təhsil ocağında «Pediatriya» kafedrasının müdiri kimi yeni nəsil ali təhsilli uşaq həkimlərinin hazırlanmasında mühüm rol oynamışdır. Əslində o, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində «Pediatriya» kafedrasının qurucusu fuknsiyasını yerinə yetirmişdir. Məhz Adil Mirşlinin səyləri nəticəsində «Pediatriya» kafedrasının tədris-metodiki bazasının əsasları ya-

radılmışdır. Adil Mirişlinin Pediatriyadan oxuduğu mühazirələr onun çoxillik həkimlik təcrübəsi ilə müasir təbabət elminin yeniliklərini özündə cəmləşdirən dərslər kimi Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrü mərhələsinin mükəmməl uşaq həkimlərinin formalaşdırılmasında böyük əhəmiyyət kəsb etmişdir. Adil Mirişlinin «Pediatriya» kafedrasına rəhbərlik etdiyi 2000-2014-cü illər həmin kafedranın möhkəm elmi-metodiki bazasının yarandığı, mühüm təməllərinin atıldığı dövr kim səciyyələndirilməyə layiqdir. Bu gün həm Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində, həm də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində çoxsaylı yetirmələri Adil həkimin şərəfli yolunu məsuliyyətlə və müvəffəqiyyətlə davam etdirirlər.

Əsl xalq həkimi, işıqlı şəxsiyyət kimi həmişə böyük ehtiram bəslədiyim hörmətli Adil həkimə möhkəm cansağlığı arzulayır, onun uca adını yeni nəsillər üçün nümunə hesab edirəm.


***İsa HƏBİBBƏYLİ***

*Azərbaycan Milli Elmlər Akademiyasının*
*vitse-prezidenti, akademik*

## GÖZƏL İNSAN,
## HƏM DƏ GÖZƏL HƏKİM!

Adil Mirişli! Bu ad mənə çox doğmadır. Yadımdadı, 1983-cü ildə ilk övladım dünyaya gələndə onun yanına getdik. Xoş üzlə qarşıladı. Körpəni müayinədən keçirdi. Məsləhətlərini verdi. Daha sonralar 2 övladmın da həkimi Adil həkim oldu. O gözəl insan, həm də gözəl həkim kimi hamının sevgisini qazanmışdı. Bu iki yüksək keyfiyyətə və təmənnasız işinə görə Respublikada dərin hörmət qazanmışdı Adi həkim.

Adil həkimlə yol yoldaşı olduq bir dəfə: İran İslam Respublikasına dövlət səviyyəsində bir qrup ziyalı alim və müxtəlif sənət sahibləri ilə birlikdə tədbirlərdə iştirak etmək üçün yola düşdük. Təbriz, Tehran, Qum və Məşhəd şəhərlərində olduq. Müxtəlif tədbirlərdə iştirak etdik. Orada olduğumuz müddətdə Adil həkimdən insaniyyətlik, səmimiyyət, mehribançılıq gördük. Adil həkim çox həssaslıqla hamının qeydinə qalırdı. Nə çətinliyə düşsəydik o bizə köməklik edərdi. Bir həkim və insan kimi qayğısını əsirgəməzdi. Həmişə mənim xətrimi saxalayardı. Deyərdi ki, mənim də əzizim Mir Həsən Mirişli uzun müddət Naxçıvan teatrında çalışəb, müxtəlif xarakterli rollar oynayıb. Deyirdi ki, sən də onun adını daşıyırsan.

Yadımdadı, 1999-cu ildə mənə Azərbaycan Respublikasının Xalq artisti adını verdilər. Naxçıvan televiziyası mənim haqqımda bir veriliş çəkdi və mən də o verilişə Adil Mirişlini də`vət etdim. O, mənim haqqımda yaxşı fikirlər söylədi. Sağ olsun! O həmişə mənim qəlbimdə yaşayır. İndi Türkiyədə yaşamasına baxmayaraq ordan mənim 60 illik



yubileyimi eşidib təbrik etdi. Çox diqqətli insandır Adil həkim.

Bu il 80 yaşı tamam olur bu qüdrətli insanın, həkimin. Onu ürəkdən təbrik edirəm. Ona can sağlığı, uzun ömür arzu edirəm.

Adil həkim övladlarımın hamısının həkimi olub: 2 qız və 1 oğlan. Hamısı ali təhsil alıblar.

Hər övladımdan da 3 nəvəm var. Bu yaxınlarda bir yerə toplaşdılar nəvələr. 9 nəvə hamısı bir yerdə şəkillərini çəkdim. Adil həkimin övladlarıımın sağlam böyüməsində böyük rolu oldu. Nəvələrimin də hammısı sağlam və gümrahdırlar. Şükür.

Hörmətlə,

***Həsən Ağasoy,***
*Azərbaycan Respublikasının Xalq artisti*

## ALİCƏNAB İNSAN

Ali təhsil alıb Naxçıvana qayıtmışdım, həkim işləyirdim. Bu arada oğlum xəstələndi. Soruşdum ki, burda ən yaxşı pediatr indi kimdir? Adil Mirişli! - dedilər. Uşağı da götürüb getdim evlərinə. O uşağa baxıb məsləhətlərini verdi. Axırda nə qədər elədimsə pul götürmədi, qapıda itələşdik, lakin xeyri olmadı... Sonra həkim yoldaşlarım dedilər ki, bəs sən bilmirsən, Adil həkim o biriləri kimi deyil, o heç kimdən pul götürmür.

Onun adamı dostyana qarşılamağı, ağayana davranışı, bütöv şəxsiyyəti, təmmənnasızlığı istər-istəməz məndə ona qarşı rəğbət hissi oyatdı.

Sonrakı illərdə tale elə gətirdi ki, Naxçıvan Respublika Narkoloji Dispanserində baş həkim işlədiyi 7 il ərzində mən Naxçıvan MR Səhiyyə Nazirliyinə tez-tez gedir, onun şəxsiyyəti ilə yaxından tanış olmaq imkanı əldə edirdim. Hər dəfə nazirliyə gedərkən Adil Mirişli, Mehdi Bağırov, nazir Əqil Mehdiyev, müavin Tofiq Cəfərov kimi gözəl insanlarla təmasda olur, onlardan xeyirxahlıq, yaxşılıq öyrənirdim – bu mənim üçün kiçik bir Akademiya kimi bir şey idi. Əgər mən desəm ki, Adil Mirişli ilə söhbətlərdən zövq alırdım, elə bilirəm siz mənə inanarsız. Üstəlik, həyatda Adil həkim kimi olmağa səy edir, onun kimi mə`nəviyyatca kamil insan olmağa can atırdım ki, bu şəxsi nümunəsi üçün yubilyara minnətdaram. Hamının can atdığı, “adam”, pul vasitəsilə əldə etmək istədiyi vəzifə və mənsəbi Adil Mirişliyə dəfələrlə təklif etsələr də, o həmişə belə şeylərdən,

dünya malından uzaq olmağa çalışmış, bununla da necə bir insan, şəxsiyyət, həkim, alim, Mirişlilər ocağına layiq əsl seyyid olduğunu göstərməklə hamının qəlbində taxt qurmuşdur. Məncə, elə Adil Mirişlinin böyüklüyü də məhz bundadır.

Adil Mirişli – 80! Yubilyarı ürəkdən təbrik edir, can sağlığı, uzun ömür arzulayıram.

Hörmətlə:

***Asif Kəngərli.***
*Həkim-narkoloq. Yazıçı, Dünya Xalqları*
*Yazıçılar Birliyinin üzvü,*
*"AqRa" Elmin inkişafına Dəstək ictimai birliyinin İdarə*
*Heyəti sədrinin müavini.*

## ADI HÖRMƏTLƏ ÇƏKİLƏN HƏKİM ADİL MİRİŞLİ

Naxçıvan Azərbaycan tarixinə hər zaman ən dəyərli, ən önəmli sərvət kimi böyük şəxsiyyətlər bəxş etmişdir. Bu şəxsiyyətlər tarixə öz adlarını yazaraq bu torpağın insanlarının xatirəsində hər zaman fəxr və iftixar hissi ilə anılmış və anılırlar. Mirişlilər isə, bir tayfa olaraq öz adlarını tarixə qızıl hərflərlə yazmışlar. Belə ki, Mirişlilərdən Mircəfər Mirişli və Mir Aqil Mirişli görkəmli pedaqoq, Mirhəsən Mirişli görkəmli teatr xadimi, Azərbaycan respublikasının əməkdar artisti Naxçıvan MSSR Ali Sovetinin deputatı, "Qırmızı Əmək Bayrağı" ordenli və onların övladları Adil Mircəfər oğlu Mirişlinin Azərbaycan, ələlxüsus Naxçıvan Səhiyyəsində zəhməti və xidməti əvəzolunmazdır, eləcə də Azərbaycan Mədəniyyətində təkrarolunmaz bəstəkar Ramiz Mir Aqil oğlu Mirişli də bu tayfanın adını layiqincə davam etdirmişdir.

Mən Əkrəm Məmmədli, Tanrının qismətilə uzun müddət tibb sahəsi üzrə alim Adil həkimlə qonşuluqda yaşamışam, onun mehriban, canayaxın bir uşaq həkimi kimi uzun müddət Naxçıvan səhiyyəsində əvəzsiz xidmətləri olmuşdur. Oğlum Kənanın və onun timsalında minlərlə ailənin övladlarının sağlığının qayğısına qalan Adil həkim bizim yaddaşımızda daim mehriban, qayğıkeş bir həkim kimi yaşayacaqdır. Allahdan Adil həkimə can sağlığı arzulayır, uzun ömür diləyirəm!

Atam Əkrəm Məmmədlinin qeyd etdiyi kimi, Adil həkim ilə qonşuluğumuz böyük xoşbəxtlik idi. Yaddaşımda

hər zaman gülərüz, mehriban, uca qamətli insan kimi yaşayan Adil həkimi və ailəsindən həyat yoldaşı Tamilla xanımı, qızı Aybəniz xanımı hər zaman böyük sevgi ilə xatırlayıram. Mən də Adil həkimə Allahdan uzun ömür və möhkəm can sağlığı arzulayıram!..

Naxçıvan şəhər sakinləri:

***Əkrəm Məmmədli***
*musiqiçi-tarzən, Naxçıvan Muxtar Respublikasının*
*Əməkdar Mədəniyyət işçisi, Prezident təqaüdçüsü,*
***Kənan Məmmədli***
*musiqişünas-pianoçu*

## TANINMIŞ
## SƏHİYYƏ XADİMİ

Naxçivan Muxtar Respublikasında səhiyyənin müxtəlif sahələrində xüsusi xidmətlər göstərmiş, böyük nüfuz qazanmış həkimlər sırasında hörmətli Adil Mirişlinin adı ən layiqli yerlərdən birini tutur. Təxminən yarım əsrlik bir müddət ərzində muxtar respublikada pediatriya sahəsində mötəbər söz sahibi olan, minlərlə körpəyə sağlamlıq bəxş edən, gördüyü bu nəcib işdən hədsiz mənəvi zövq alan Adil Mirişli özünün dərin və hərtərəfli biliyi, zəngin təcrübəsi, alicənab şəxsiyyəti ilə böyük hörmət və nüfuz qazanmışdır.

Adil Mirişli hələ orta məktəb illərindən həkim olmaq arzusu ilə yaşamış, bu tükənməz istəyini reallaşdırmaq üçün səylə oxumuş, 1956-cı ildə Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya ixtisasına daxil olmuşdur. 1962-ci ildə ali təhsili müvəffəqiyyətlə başa vuran A.Mirişli 1962-1964-cü illərdə Nehrəm kənd xəstəxanasında həkim işləmiş, 1964-1969-cu illərdə Naxçıvan uşaq xəstəxanasında sahə pediatrı kimi fəaliyyətini davam etdirmişdir. 1969-1970-ci illərdə Naxçıvan Respublika xəstəxanasında pediatr-infeksionist kimi də çalışmışdır. Qısa müddət ərzində o, savadlı, bacarıqlı bir həkim kimi tanınmışdır.

Daima oxuyub öyrənmək, öz biliyini daha da artırmaq üçün tibbə dair elmi jurnalları, yeni nəşr olunmuş kitabları mütaliə edən Adil Mirişli bunlarla kifayətlənməmiş, elmi tədqiqata da böyük maraq göstərmişdir. O, 1970-ci ildə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının aspiranturasına daxil olmuş, 1973-cü ildə "Uşaqlarda respirator vi-

rus-mikoplazma infeksiyasının klinik-immunoloji xüsusiyyətləri” mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi (tibb üzrə fəlsəfə doktoru) elmi dərəcəsi almışdır.

Bir alim kimi Moskvada, yaxud Bakıda qalıb fəaliyyətini davam etdirmək imkanları olduğu halda Adil Mirişli doğma Naxçıvanda çalışmağa üstünlük vermiş, muxtar respublikaya qayıtmışdır. Tibb elmləri namizədi Adil Mirişli 1973-cü ilin noyabrında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş pediatrı təyin olunmuş, həmçinin uşaq xəstəxanasında da həkim kimi fəaliyyətini davam etdirmişdir. O, on illər boyu bu sahədə vicdanla, ləyaqətlə çalışmış, gələcəyimiz olan körpələrin, uşaqların sağlamlığının qorunması işində böyük əmək sərf etmişdir. Səmərəli fəaliyyətinə görə Adil Mirişli 1988-ci ildə “Azərbaycan Respublikasının əməkdar həkimi” fəxri adına layiq görülmüşdür.

Bu qısa bioqrafik məlumatlardan da göründüyü kimi, Adil Mirişlinin əsas fəaliyyəti indiki Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi Uşaq Xəstəxanası ilə bağlı olmuşdur. O, 1964-cü ildən 01 iyul 2013-cü il tarixədək bu səhiyyə ocağında çalışmış (qısa fasilələrlə), daima kollektivin sayılıb seçilən üzvü kimi hamının dərin rəğbətini qazanmışdır.

Xoşbəxtəm ki, onunla birgə işləmək mənə də qismət olub. Bu illər ərzində mən Adil həkimi daha yaxından tanımışam. Onun yüksək peşə hazırlığına, həssas qəlbə, böyük mədəniyyətə malik olduğunu müşahidə etmişəm. Onu da görmüşəm ki, Adil həkim hər bir xəstəyə məsuliyyətlə, nəvazişlə, qayğı və şəfqətlə yanaşır, onlara dəqiq diaqnoz qoymaq üçün həmişə ətraflı, hərtərəfli müayinələr aparır, bütün müalicə kursu boyunca onları gündəlik diqqətdə saxlayır.

Onu da görmüşəm ki, Adil Mirişli həm də xəstələri təkcə dərman vasitələri ilə deyil, sanki sözlə də müalicə edir. Dəfələrlə şahidi olmuşam ki, Adil həkim xəstəxanaya müayinə və müalicə üçün gətirilmiş uşaqlarla, onların valideynləri ilə elə həssaslıqla və ümid-inam dolu cümlələrlə danışır ki, qarşıdakının qəlbində də tezliklə lazımi effekt alınacağına heç bir şübhə qalmır. Onu da dəfələrlə müşahidə etmişəm ki, hətta təyin olunmuş iynə-dərmanın qəbulundan imtina edən, bir az da qorxub-çəkinən uşaqlar da Adil həkimin qısa müdaxiləsindən sonra müalicə üçün bunları qəbul etməyin vacibliyini anlayır və inadlarından əl götürürdülər.

Bəli, Adil Mirişli dərin biliyə və zəngin təcrübəyə malik həkim olmaqla yanaşı, həm də böyük psixoloq idi, kiminlə necə danışmağın, necə davranmağın üsul və vasitələrini çox gözəl bilirdi. O, uşaqla uşaq, böyüklə böyük idi. İllər boyu birgə işlədiyimiz müddətdə mən Adil həkimdə heç vaxt təkəbbür, lovğalıq, özünü dartmaq, kimə isə yuxarıdan aşağı baxmaq kimi xüsusiyyətlər görmədim. Sadəlik, xeyirxahlıq, insanların köməyinə çatmaq, onlara yaxşılıq etmək Adil həkimin peşə fəaliyyətinin əsas devizi idi.

Günün müxtəlif vaxtlarında, hətta gecə yarısı elə hallar olurdu ki, xəstəxanaya ağır vəziyyətdə xəstə gətirilirdi. Ehtiyac olduğu vaxtlarda Adil həkim dərhal köməyə çatır, özünün yardım əlini uzadırdı. Hətta elə olub ki, iş vaxtı bitəndən sonra evə yenicə çatmış Adil həkim heç bir stəkan çay içməyə də macal tapmamış xəstəxanaya dönüb, ona zillənən ümid dolu baxışları cavabsız qoymayıb, körpələrin imdadına çatıb, onları müalicə edib. Belə vaxtlarda da onun çöhrəsində əsla yorğunluq sezilməzdi, əksinə, işıqlı

təbəssüm sanki bir az da çoxalardı,- gördüyü xeyirxah işin yaratdığı məmnunluq ovqatının təzahürü kimi.

Beləcə, Adil Mirişli əsl əməkdar həkim kimi böyüməkdə olan nəsillərin sağlamlığı keşiyində on illər boyu məsuliyyətlə, şərəflə dayanıb, üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirməyə böyük zəhmət sərf edib. Əməyini dövlətimiz də yüksək qiymətləndirib, əhali də ona daima sonsuz ehtiramla yanasşıb.

Adil Mirişli xəstəxanamızda, ümumən muxtar respublikada tibbi kadrların ixtisasının yüksəldilməsi, onların peşə hazırlığının daha da təkmilləşdirilməsi işində də həmişə yaxından iştirak edib. Uşaq xəstəxanasının həkimləri, ümumən bütün tibb işçiləri ondan çox şey öyrəniblər. Onun müxtəlif seminarlardakı çıxışları, verdiyi qiymətli tövsiyələr indi də hamımızın xatirindədir. Naxçıvan Dövlət Universitetinin pediatriya ixtisasında təhsil alan tələbələrə bir neçə fənn üzrə verdiyi dərin bilik də bu nəcib mərama xidmət edirdi.

Adil həkim hazırda təqaüddə olsa da, biz onu heç vaxt unutmuruq. Onunla əlaqə saxlayıb hal-əhval tuturuq. Arzu edirik ki, ömrünün səkkizinci onilliyini tamamlayan hörmətli Adil həkim yüz yaşına çatsın, həmişə də şən, gümrah olsun! Belə ziyalılar xalq üçün böyük qənimətdir!

***Rəhim RƏHİMOV***
*Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi*
*Uşaq Xəstəxanasının baş həkimi,*
*Azərbaycan Respublikasının əməkdar həkimi*

## NÜMUNƏVİ İNSAN HAQQINDA BİR NEÇƏ SÖZ…

2002-ci ilin iyul ayında Türkiyənin Afyon şəhərində Kocatəpə Üniversitetində çalışmaq üçün həyat yoldaşım Şəhrizad Məmmədova ilə birlikdə bu şəhərə gəldik. Afyona gəldiyimiz gün üniversitet kampında rahat bir mənzilə yerləşdirildik. Kampta bizdən başqa da bir neçə Azərbaycanlı, Rus ve Ukraynalı ailələrinin yaşadığını öyrəndik. Amma onların hamısı məzuniyyətdə idi. Bir müddət sonra onlar kampa gəlməyə başladılar ve biz yavaş-yavaş tanış olduq.

Onların arasında məhşur bəstəkar Ramiz Mirişlinin oğlu, bəstəkar Yusif Mirişli və onun yoldaşı Aybəniz xanım da var idi. Aybəniz xanımın da soyadı Mirişli idi. Onun atası Adil həkim, Ramiz Mirişli ilə əmioğlu idilər. Hər ikisinin babası məhşur Naxçıvanlı seyid Miriş Ağa idi.

Qısa bir müddət sonra onların bir qızı oldu və bu gözəl qız indi 15 yaşlı Günel Mirişlidir. Afyona həm Ramiz Mirişli həyat yoldaşı ilə, həm də Adil Mirişli həyat yoldaşı ilə birlikdə bir neçə dəfə gəldilər. Mənə mə`lum oldu ki, mən Adil Mirişlinin oğlu Emin ilə daha əvvəl Moskva Dövlət Üniversitetindən çox yaxın tanışam.

Mən bu ailənin bütün üzvlərində çox yüksək mədəniyyət, dərin tərbiyə və əxlaq nümunəsi gördüm. Sonra müxtəlif Naxçıvanlılardan Adil həkimin Naxçıvan əhalisi arasında dərin hörmət bəslənən bir nüfuz sahibi olduğunu

öyrəndim. Mən çox yaşlı bir müəllimə m, müxtelif adamlar, müxtəlif kollektivlər görmüşəm. Müsəlman, xristiyan, yəhudi və ateistler görmüşəm. Gördüyüm müsəlmanların bütün şeyxləri, övliyaları və seyyidləri kimi müxtəlif zümrələrinə aid olan ən pak və mö`təbər bir seyyid ailəsinin nə demək olduğunu bu ailədə gördüm.

Adil Ağa Mirişli Tibb elmləri namizədi, dosent və Azərbaycanın əməkdar həkimidir. İnşallah onun yüksək dərəcəli həkimlik qabiliyyəti hələ uzun illər insanlara bol-bol fayda gətirəcək.

***Rauf Vəli oğlu Hüseynov***

*Fizika-riyaziyyat elmlər doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*

## LƏYAQƏTLİ İNSAN, GÖZƏL MÜTƏXƏSSİS

Mən, Adil Mirişlini 1974-cü ildən tanıyıram. O vaxt, Azərbaycan Taun əleyhi stansiyası, Culfa Taun əleyhi şöbəsinin rəisi işləyirdim. İşimlə əlaqədar Naxçıvan Nazirlər sovetinə və Səhiyyə nazirliyinə tez-tez gedirdim. Adil müəllim onda məni tanımırdı. Mən onu da, digər mütəxəssisləri də tanıyırdım. Onlarla birbaşa əlaqəm olmasa da, bəzi funksional məsələlərin həllində məsləhətləşmələr olurdu. Hamısı mənə diqqət və qayğı edirdilər. Sonradan tale elə gətirdi ki,1976-cı ildə Səhiyyə nazirinə müavin tə`yin olundum. O vəzifəyə tə`yin ediləndə çox gənc idim və təklifi tərəddüdlə qəbul elədim. Dedilər narahat olma, Səhiyyə nazirliyinin kollektivi və nazir (Mərhum M.Q.İbrahimov) qayğıkeş insanlardır, onların köməyi ilə işləyəcəksən. İşə başlayandan sonra doğrudan da nazirlik rəhbərliyi və baş mütəxəssislərin göstərdiyi qayğı və köməklik nəticəsində öz vəzifəmin icrasına başladım.

Adil müəllim o vaxt Səhiyyə nazirliyində baş pediatr vəzifəsində çalışırdı. O bu vəzifədə artıq üç il idi ki, işləyirdi. Onun elmi-praktik təcrübəsi, işgüzarlığı imkan verirdi ki,bu işin öhdəsindən yüksək səviyyədə gəlsin. Adil Mirişli bu vəzifəyə tə`yin edildikdən sonra, Muxtar Respublikada uşaq əhalisinə göstərilən tibbi xidmətdə yüksək dəyişikliklər hiss olunurdu. O, uşaq əhalisinə göstərilən tibbi xidmətini elmi əsaslarla həyata keçirirdi. Adil Mirişli nazirliyin baş pediatrı olmaqla yanaşı, eyni zamanda uşaq xəstəxanasında praktiki işlə də məşğul olurdu. Bu ona imkan verirdi ki, öz bilik və təcrübəsini birbaşa tibbi xidmətə, ehtiyacı olan xəstələrə tətbiq edə bilsin.

İş elə gətirdi ki, mən 1980-ci ildə Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri tə`yin edildikdən sonra, 1984-cü ilə qədər

A.Mirişli ilə daha sıx əlaqədə işlədik. Adil müəllimin fəaliyyəti yuxarıda göstərilənlərlə məhdudlaşmırdı. O, eyni zamanda tez-tez rayonlara gedir, yerlərdə uşaq əhalisinə göstərilən tibbi xidməti nəzərdən keçirir, rayon pediatrlarına öz dəyərli məsləhətlərini verirdi.

Nazirliyin işinin formalaşmasında baş mütəxəssislərin qaldırdıqları məsələlər mühüm əhəmiyyət daşıyır. Adil Mirişlinin kollegiya iclaslarının müzakirəsinə çıxardığı məsələlər həmişə öz aktuallığı ilə fərqlənirdi. O, müzakirələr zamanı öz prinsipiallığı və humanist mövqeyini ortaya qoyurdu.

A.Mirişli yuxarıda göstərilənlərdən başqa, savadlı və qayğıkeş bir müəllim kimi pedoqoji fəaliyyətlə də məşğul olurdu.

Adil müəllim hansı kollektivdə işləmişsə, orada böyük hörmət sahibi olmuş, Naxçıvan əhalisi arasında gözəl bir insan, müstəsna nüfuz, yüksək mə`nəviyyat sahibi kimi fərqlənmişdir. Adil müəllim Naxçıvanda hər bir ailənin pənahı, güvənc yeri, ümid bəslədiyi bir insandır.

Hər bir insanın formalaşmasında onun işlədiyi kollektivin tə`siri sözsüzdür. Mənim də nailiyyətlərimdə Naxçıvanda birgə işlədiyim kollektivin tə`siri olmuşdur. Bunun üçün mən digər kollektiv üzvləri kimi, A.Mirişliyə də minnətdaram.

Mənim Adil Mirişli haqqında qısa qeydlərim, onun daha çox layiq olduğu dəyərlərin və məndə onun haqqında olan xatirələrin xülasəsidir.

Adil müəllim, Sizə şərəfli işinizdə müvəffəqiyyətlər, uzun ömür, can sağlığı arzulayıram.

***Oktay Həsənzadə***

*(1980-1983 –cü illərdə Naxçıvan MSSR-nın Səhiyyə naziri, 1983-1989 –cu illərdə Azərbaycan SSR Səhiyyə nazirinin 1-ci müavini)*

*20 iyun 2018 il.*

## ZİYALILAR AİLƏSİ - MİRİŞLİLƏR

XX əsr Naxçıvanının ziyalılarından - müəllimlərindən söz düşəndə Mirişliləri xatırlamadan keçmək mümkün deyildir. Mirişli soyadı ilə keçən əsrdə çox sayda ziyalılar yaşamış və ətrafl ıarını bu ziya ilə işıqlandırmışlar. Onların nəsli bu gün də davam edir.

Bu ailənin ağsaqqallarında biri Mircəfər Mirişli idi. O, Naxçıvanda nadir olan Lenin ordenli müəllimlərdən biri idi. Son iş yeri A.S. Puşkin adına Naxçıvan 3 nömrəli rus məktəbi olmuşdu. Bir ayağı şikəst olduğundan, əl ağacı ilə gəzərdi. Təqaüdə çıxandan sonra hər gün evlərinin yanındakı Böyük bağa gedər, orada oturar, dincələrdi, başına toplanan öz tay-tuşu ilə söhbət edər, ara-sıra zarafatından da qalmazdı. Bütün şəhər onun hörmətini saxlayardı. Oradan keçən hər kəs ayaq saxlayıb Mircəfər müəllimə salam verməyi, keyf-halını soruşmağı özünə borc bilirdi. Hər kəs ona seyyidliyinə, Peyğəmbərimizin (s.a.s) nəvəsi Həzrəti-Hüseynin (r.a.) soyundan olduğuna görə "Ağa" deyə müraciət edərdi.

Mirişlilər ailəsi də seyyid, yəni həzrəti-Hüseynin (r.a.) nəslindən gələnlərdən idi. O, təkcə bu adı daşıyan biri deyildi, seyidlərə məxsus davranışı da var idi.

Mircəfər müəllim həyat tərzində seçilən biri idi, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar etməyi bacaran bir ağsaqqal, bir pedaqoq olmaqla yanaşı, hər kəsə ona uyğun zarafat etməyi də bacaran biri idi və heç vaxt zarafat fürsətini əldən verməzdi.

Yeri gəlmişkən, əcdadlarımız zarafata böyük əhəmiyyət verərmişlər, çünki zarafat qarşısındakı adamın qəlbini rahatladan, yumşaldan bir gücə malikdir. Zarafatdakı zəriflik həddini qaçırmadan birinə zarafatla davranmaq böyük ustalıq, həyat təcrübəsi, bilik və bacarıq tələb edir. Ən əhəmiyyətlisi, zarafat yalana bulaşmamalı, yerində, həddi bilinərək və qarşındakı adamın hisslərinə toxunmaqdan uzaq üslubla edilməlidir. Yoxsa tərəf-müqabilin olan adamın eyibini, qüsurunu, xətasını dilə gətirib onu rəzil-rüsvay etmək zarafat deyildir...

Babam Mircəfər müəllimlə dostluq edirdi və onların bu dostluqları XX əsrin 20-40-cı illərinə gedib çıxırdı. Birlikdə kəndlərdə müəllimlik etmişdilər, buna görə də ailəvi dost idilər və ömürlərinin sonuna qədər də dostluqlarını davam etdirdilər. Buna görə də Mircəfər ağa anama qızı kimi baxar, ona “Nəcoş” deyə müraciət edərdi.

Babam tez-tez Mircəfər müəllimin zarafatlarından danışardı. Biz o zaman 7-8 yaşlarında uşaq idik və Mircəfər müəllim haqqında hekayələrə maraqla qulaq asar, gözlərimiz yaşaranadək gülərdik.

Baməzəlik, zərif yumor Mirişlilərin xarakterinə hopmuş bir xüsusiyyətdir. Məsələn, ömrünü Naxçıvan teatrında komik rolların mahir ustası kimi keçirmiş Mirhəsən Mirişli. Bu adam həyatda nə qədər ciddi idisə, səhnədə də bir o qədər ciddi yumora sahib aktyor idi. O, bir növ Naxçıvan səhnəsinin Bəşir Səfəroğlusu idi. Səhnədə heç bir artıq hərəkət etməz, ağız-burnunu əyişdirməzdi. Sözü də, hərəkətləri də ciddi idi, amma təqdim etdiyi obrazı elə təqdim edirdi ki, tamaşaçı gülməkdən özünü saxlaya bilməz, tamaşadan sonra uzun müddət təəssüratlarını dəfələrlə xatırlayar, danışar, gülərdi.

Mirişlilərdən bir digəri Arif müəllim idi. Arif müəllim də digər Mirişlilər kimi ciddi zarafatcıl idi. Mən inanıram ki, onu tanıyan hər kəs ömrü boyu Arif müəllimdən bir kəlmə incidici söz eşitməmişdir. Arif müəllimdə bir zadəgan əsaləti var idi. O, uzaqdan cox adamayovuşmaz görünərdi, amma elə ki yaxından tanıdın, bir daha ondan ayrıla bilməzdin. Vəfalı, sədaqətli, iffətli, namuslu idi. Əsil müəllim idi.

Adilə xanım Mirişli uzun illər şəhər 1 sayılı məktəbdə müəllim, bir neçə il də həmin məktəbin direktoru işləmişdi. O, Arif müəllimin bir növ qadın versiyası idi. O, mənim hafızəmdə başında kəlayağı yaylıq, dik, məğrur və sakit yerişli, təmkinli bir pedaqoq kimi qalmışdır.

Ramiz Mirişli. Bu ad Azərbaycanda çox məşhurdur. Mənim onunla yaxın münasibətim olmayıb, amma televiziyada, müxtəlif məclislərdə danışığını, söhbətlərini çox dinləmişəm. Ciddi, ciddi olduğu qədər də yumorlu, səmimi bir insan, gözəl bəstəkar idi. Məncə onun mahnılarını bir az diqqətlə dinləsək, Ramiz müəllimin xarakterini anlaya bilərik.

Faiq Mirişli: fizika elmi sahəsində fəaliyyət göstərib, fizika riyaziyyat elmləri namizədi, dosent, Naxçıvan Dövlət Universitetinin canlı tarixi. Faiq müəllimi minlərlə şagirdi, tələbəsi məndən daha yaxşı tanıyır. Faiq müəllim haqqında tək bir söz deyə bilərəm: Faiq müəllim müəllimdir, alimliyi ilə, insani keyfiyyətləri ilə çoxlarına nümunə ola biləcək bir ziyalıdır.

Adil Mirişli: Cəsarətlə demək olar ki, Naxçıvan şəhərində bu adamın haqqı olmadığı ailə yoxdur. O, demək olar ki, naxçıvanlı olan hər kəsin ya özünü, ya övladını, ya da bir yaxınını müayinə və müalicə etmişdir. Savadı, daha çox

da insanca rəftarı ilə çox həkimdən fərqlənən bir Mirişlidir Adil həkim.

Qəribə adamdır Adil həkim. Muxtar respublikanın baş pediatrı, el dilində uşaq həkimi idi. Yerişi, duruşu dik, vüqarlı, üzündə azacıq təbəssüm olan bu adam bütün həyatını həkim, sözün əsil mə`nasında həkim olaraq yaşamışdır. Onu görənlər mütləq salam verər, o da təbəssümlə salamlarını alar və bir az münasibəti varsa, dayanıb hal-əhval edərdi. Söhbətindəki Mirişlilərə məxsus incə yumor da mütləq özünü göstərərdi.

Naxçıvanlılar dost-tanışla, yoldaş-müsahiblə Böyük bağda, onun kimi başqa münasib yerlərdə çay içməyi bir ənənə halına gətirmişdilər. Xüsusən şənbə və bazar günləri hər kəs öz müsahibi, dostu, bir sözlə, sözünün tutduğu adamla görüşüb bir-iki stəkan çay içərdi. Amma mən Adil həkimi bir dəfə olsun, çayçıda görmədim. Qeybətdən, dedi-qodudan uzaq, ailəsi ilə, işi ilə məşğul olan bir insan obrazıdır o.

Bir gün Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi tə`yin edilmiş Əkbər müəllim Əliyev Adil Mirişlini yanına də`vət edib ona səhiyyə naziri vəzifəsi təklif edir. Amma o, başqalarının dərhal "hə" deyəcəyi, hətta kim bilir, neçə-neçə ziyafətlərlə bu vəzifəni "yuyacağı" təklifə nəzakətlə "yox" cavabı verərək yenə öz işini davam etdirir.

O, bu gün sağdır, mənim onun haqqında keçmiş zamanda danışmağım son iyirmi ildə onu görməməyimlə bağlıdır. Allah ona uzun ömür versin, Adil həkim sözün həqiqi mə`nasında nümunə insan, həyat müəllimi bir adamdır.

Mircəfər müəllim Mirişli Naxçıvanın ən sayılıb-seçilən pedaqoqlarından, ağsaqqallarından idi. Mircəfər müəllim minlərlə naxçıvanlının, o cümlədən Heydər Əliyevin də

müəllimi olmuşdu. 1974-cü ildə, Naxçıvan MSSR-in 50 illiyi qeyd ediləndə Heydər Əliyev Naxçıvana gəlmişdi. Bir ara vaxt tapıb şəhəri gəzməyə çıxmış, Böyük bağa getmişdi. Bu vaxt Mircəfər müəllim də bağda, həmişə oturduğu skamyada oturub nar çubuğundan düzəldilmiş müştüyü əlində, siqaretini çəkirmiş. Heydər Əliyev onu görən kimi yolunu dəyişib müəlliminin yanına gəlir, qucaqlayıb öpür, keyf-hal edir.

Mircəfər müəllimgilin evinin yerində Heydər Əliyevin dəstəyi ilə indi möhtəşəm məscid binası ucaldılmışdır!..

***Nazim Əkbərov,***
*təhsil sahəsində mütəxəssis*

## ƏZİZ DOSTUMA...

Mən dostum Adil Mirişlini 1975-ci ildən tanıyıram. O zaman mən Naxçıvan MR xəstəxanasında həkim rentgenoloq, o isə Naxçıvan uşaq xəstəxanasında həkim pediatr və Naxçıvan MR Səhiyyə nazirliyinin baş pediatrı vəzifələrində işləyirdi. Uzun müddətli birgə işimizdə mən onu əxlaqlı, qayğıkeş, öz işini dərindən bilən, xəstələrə diqqətli və layiqli bir ailə başçısı kimi tanıyıram. Təbiətcə mülayim görünən, ancaq hərdən özündən çıxa bilən, başqasını diqqətlə dinləyən, faydalı məsləhətlər verən Adil həkim həm də incə yumor hissinə malik bir insandır. Onda olan bu yumor hissi çox güman ki, onun Nehrəm kəndində pediatr işlədiyi zaman yarandı və formalaşdı ki, bu da onun sonradan əslən Nehrəmli olan məşhur Mehdi həkim, Cabbar həkim və Əqil həkimlə dostluğuna gətirib çıxardı.

Adil Mirişli həm də yaxşı yol yoldaşıdır, belə ki, biz onunla Məşhəd ziyarətində olanda o bizə lazımi məsləhətlərini verir və kömək edirdi.

Adil həkim həm də çox hazırcavabdır, belə ki, biz bir dəfə Bakı şəhərində Azərbaycan Səhiyyə Nazirliyinin kollegiyasında olanda Naxçıvanda uşaq ölümü müzakirə edilirdi. Səhiyyə naziri ondan göstərilən rəqəmlərin nə qədər real olduğuna inandığını soruşduqda, o anında nazirin özünün Azərbaycan üzrə göstərilən rəqəmlərin reallığına

inandığı kimi onun da Naxçıvan üzrə verilən rəqəmlərin reallığına inandığını söylədi.

Adil həkim nədənsə həm həkimlik, həm də pedaqoqluq fəaliyyətindən tez əl çəkdi və xəstələri və tələbələri gözü yolda buraxdı, buna baxmayaraq indi o, daha bir məsuliyyətli işlə - sevimli nəvələrini saxlamaqla məşğuldur. Mən dostum Adil Mirişliyə və xanımı Tamilla həkimə nəvələrini və nəticələrini böyütmək üçün səbr və möhkəm can sağlığı arzulayıram.

Ağa! Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edir, həyatınızın qalan ən azı 20 ilini də sakit, firavan və sağlıqlı keçirmənizi arzu edirəm. Əzrayıl SİZİ unutsun!!! Siz isə bizi unutmayın!


***Dünyamalıyev Qoçəli İsa oğlu***
*Naxçıvan MR xəstəxanası*
*Şüa- diaqnostika şöbəsinin müdürü,*
*Naxçıvan MR –nın əməkdar həkimi,*
*Naxçıvan MR Ali məclisinin deputatı*

## ADİL MİRİŞLİ İLƏ TANIŞLIQ...

*Bismilləhir Rahmənir Rahim!*

Mən Mirişli doktoru şəhərimizin ən gözəl ziyalısı kimi tanıyıram. Onunla elə-belə salamımız-kalamımız çox idi. Bir-birimizə münasibətimiz yaxşı idi. Onu da Naxçıvanın ən yaxşı insanlarından biri kimi tanıdığımıza görə hər zaman onunla əlaqə saxlayırdıq, görüşürdük, salamlaşırdıq. Amma elə oldu ki, mənim yoldaşımla Tamilla doktor bir sahədə işlədilər. Onlar bir sahədə işləyən dövrdə bizim münasibətlər daha da genişləndi.

Bu da İlahidəndir. Allah-Təala özü nizamlayır hər şeyi. Gəldi elə oldu ki, biz onlara getdik, onlar bizə gəldi. 1990-cı ildən sonra da bizdə belə bir şeylər baş verməyə başladı ki, islam dininin qaydası ilə oruc tutmaq, namaz qılmaq daha da genişləndi. Adil doktor da həmişə bu işlərdən kənar qalmazdı. Adil Mirişlinin və onların nəslinin kökündə bu var idi, onların kökü elə belə idi. Atası, babası - əsil seyyidlər əsil dindarlar idi. Mənim də onlarla münasibətim yaxşılaşandan sonra elə oldu ki, 1993-cü ildə Heydər Əliyev cənabları Naxçıvanda Ali məclisin Sədri olarkən ilk dəfə dövlət hesabına Naxçıvandan 25 nəfərin həcc ziyarətinə göndərilməsini təşkil etdi. Mən də bu zəvvarların arasındaydım.

Həcc ziyarətindən qayıdarkən Adil Mirişli mənim görüşümə gəldi. Mənim üçün böyük bir sevinc oldu, çünkü belə bir alim mənim ziyarətimə gəldi, münasibətimiz daha da genişləndi.

Adil həkim, Tofiq Cəfərov və biz ailelikle tez-tez görüşürdük, Ramazan aylarında birlikdə ibadət edər və iftar

yemeklerini bərabər yeyərdik. Biz Adil həkimdən çox şey öyrenərdik. Onun davranişları həmişə bizə nümunə olub.

Mən dəfələrlə onların evində olanda Doktorun xəstələri necə təmənnasız və səbirlə qabul ettiyinin şahidi olmuşam. Onun peşəsini ne qədər çox sevdiyini, evinə gələn xəstələri necə mehribanlıqla müainə ettiyini görmuşəm.

Adil həkim və Tamilla xanım çox sadə insanlardı. Onlar hər səhər piyada işə gedirdilər. Şəhər əhli ilə salamlaşıb kef-əhval tutaraq.

Adil həkim bir gün söhbət əsnasında anası Püstə xanımın çox gözəl daş küftəsi bişirdiyini və o dad üçün darıxdığını söylədi. O gündən ehtibarən menim həyat yoldaşım bəzən daş küftəsi bişirib onları yeməyə dəvət edərdi. Hal hazirda onlar Türkiyədə yaşayırlar. Və hər il buraya gəldiklərində mütləq biz onlarla birlikdə daş küftəsi süfrəsi arxasında yığışırıq.

Türkiyədə yaşamaqlarına baxmayaraq bizim dostluq əlaqələrimiz davam edir. Mən hər danışdığımda Adil həkimə mənə və ailəmə dua etməsini xahiş edirəm, onun dualarının müstəcəb olduğuna inandığımı söyləyirəm.

Mənim böyük qardaşım Qadir ilə də Adil həkimin çox gözəl münasibətləri var idi. Qardaşım bu yaxınlarda rəhmətə gedib. Uzaqda olsada həmişə onu məndən soruşar və salamını göndərirdi.

1999 ildə Mirişlilər ocağında Həzrəti Zəhra Məscidi ucaldıldı. Bir ara mən orada mühasib işlədim. Biz Məsciddə Heydər Əliyev güşəsi və Mirişlilər güşəsi yaratdıq. O mescid Naxçıvan insanları üçün çox müqəddəs bir yerdir. Ulu tanrı tərəfindən seçilmiş bir yer...

*Hacı Nadir Məmmədov*

# MİRİŞLİ BABA HAQQINDA FİKİRLƏRİM

Adil Mirişli mənim üçün həmişə pak, yüksək əxlaqlı, mədəni ideal saydığım bir insandır. Deyərdim ki, o, bu cəmiyyətdə tək-tək, barmaqla sayılacaq nadir insanlardandır. O mənada ki, Adil Mirişli öz şəxsiyəti, ailədə, işdə və cəmiyyətdə davranışı, eləcə də öz həkimlik peşəsi ilə Naxçıvan Muxtar Respublikasında hətta Azərbaycan səhiyyəsində özünəməxsus yeri və adı olan müsbət mənada sayılıb seçilən həkimlərdəndir. Adil həkimin xalq tərəfindən hörmətlə qarşılanmasının və sevilməsinin əsas səbəbi budur ki o, bütün xəstlərini təmənnasız qarşısındakının kimliyindən, vəzifəsindən, peşəsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq hər kəsi eyni həssaslıqla eyni mərhəmətlə qəbul edib. Hər kəsə eyni gözlə baxıb. Həkim kimi hər kəsin uşağına kömək əlini uzadıb və bu yolda heç nəyi əsirgəməyib. Yubileyi ərəfəsində Adil həkimin həkimlik peşəsindən, onun fəaliyyətindən, xalqa xidmətindən danışırıqsa bu məqamda onun həyat yoldaşı Tamilla xanım Mirişlinin də əməyini yaddan çıxarmaq olmaz. Atalar deyir ki, “Hər güclü, hər bacarıqlı kişinin arxasında ağıllı bir qadın dayanıb”. Bu deyimi Adil həkimin keçdiyi həyat yolu timaslında onun həyat yoldaşı Tamilla xanım Mirişliyə şamil etsək lap yerinə düşər. Çünki Tamilla xanım özüdə Naxçıvanda tanınan, seçilən həkimlərdəndir. O, bu böyük, mənalı ömrün

hər zamanında, hər çətin və ağır anlarında Adil həkimin yanında olub ona dəstək olub. İş yerinə, evlərinə gələn hər bir xəstəni qarşılamaq, onlarla mehriban davranmaq, onları dinləmək, hər çətin vəziyyətdə xəstəyə ürək-dirək vermək, xəstəlikdən sağalacağına inandırmaq həqiqətən sözdə danışıqda deyiləsi kimi asan məsələ deyil.

Mən istərdim ki, Adil Mirişli yəni mənim Mirişli babam haqqında söhbətimizi sizinlə lap ilk əvvəldən Adil həkimlə bizim ailənin tanışlığının tarixindən başlayaq. Necə olub ki, bizim ailəmiz Adil həkimi və onun ailəsini tanıyıb və bu ailə dostluğu münasibətləri bu günə kimi davam edir?

Mirişli baba ilə bizim ailənin tanışlığı və onlarla ilə münasibətlərimizin qurulma tarixi 24.12.1985-ci il tarixdən yəni mən anadan olan gündən başlayır. Bir az qəribə görünsə də bu həqiqətən belədir və irəlidə hər şeyi təfərrüatı ilə danışacağam.

Biz Ordubad rayonunun Dəstə kəndindənik. Atam Həsənov Camal Məcnun oğlu 1974-1979-cu illərdə Yusif Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində təhsil alıb. Atamın dayısı Məhəmmədəli Tarverdiyev Naxçıvan şəhərində yaşamış, Şərq qapısı qəzetinin baş redaktoru daha sonra isə Naxçıvan şəhər raykom katibi işləmiş, Naxçıvanda tanınmış ictimais-siyasi xadim olmuşdur. Atam təhsil aldığı dövrdə onlarda qalmışdır. Həmin dövrdə də Adil həkimlə atamın dayısı Məhəmmədəli Tarverdiyev eyni binada yaşamış və qonşu olmuşdurlar. Mən ailədə 5-ci uşaq olmu-

şam. Ailəmizdə məndən əvvəl anadan olan bacı qardaşlarım olub amma o zaman anamın qanında zəhərlənmə olduğu üçün, həmçinin o zaman düzgün diqanoz qoyula bilməməməsi səbəbindən düzgün müalicə olmamış, və məndən əvvəlki uşaqlar anadan olduqdan bir neçə gün sonra vəfat etmişlər. Sadəcə məndən böyük bacım Şəfəq sağ qala bilmişdir. 1985-ci ilin dekabr ayının 24-də mən anadan olanda məndə eyni xəstəliklə anadan olmuşam. Rəhmətlik atam o zaman gənc müəllim və uşaqlarının yaşamamasından böyük narahatçılıq, sarsıntı keçirmiş və məni həyatda yaşatmaq üçün əlindən gələni etmişdir. O zaman valideynlərim atamın dayısı Məhəmmədəli Tarverdiyevin tövsiyəsi ilə qonşuluqda yaşayan uşaq həkimi Adil Mirişliyə müraciət etmişdirlər. Demək olar ki, mən 10-12 yaşıma kimi çox zəif orqanizması olan və tez-tez xəstələnən bir uşaq olmuşam. Bu səbəbdən də valideynlərim yay qış demədən müayinə müalicə üçün günün hər saatında, hətta gecə yarı belə Adil həkimin evinə aparmaq məcburiyətində qalıblar. Bu minvanla münasibətlər zaman-zaman pasient – həkim münasibətlərindən çıxaraq Adil həkimin özü və ailəsi ilə ailə dostluğu həddinə çatmışdır. Onlar bizim ailəni sıradan bir pasientləri yox evlərinə tez-tez gəlib gedən ən yaxın inandıqları şəxslər, məni isə ilk mənəvi nəvələri olaraq qəbul ediblər. Sözün həqiqi mənasında desək mən Adil həkimin evində ayaq açıb yerimişəm.

Bir gün valideynlərim mənim ayaqlarımda əyrilik olduğunu zənn ediblər. Müayinə üçün yenə Adil həkimin

evinə gətiriblər. Məni soyundurublar ki, həkim müayinə etsin və ayaqlarıma baxsın. Adil həkim otaqda məni ayaqüstə qoyub ki, müayinə eləsin baxsın ayaqlarımda əyrilik var ya yox? Bu zaman mən heç kimin gözləmədiyi bir hərəkət edərək qonaq otağndan qaçıb digər otaqlara və mətbəxə girmişəm....

“Mirişli baba” kəliməsinin yaranma tarixini mən sizə danışmaq istəyirəm. Bizim ailəcə qan qohumluğu ilə Adil həkimin ailəsi ilə hər hansı qohumluğumuz yoxdur. Təxminən 2 yaşım olarkən 1987-ci ildə vaildeynlərim məni yenə müayinə üçün Adil həkimin evinə aparıblar. Bu vaxt artıq mən az da olsa danışa bilirmişəm. Mən ilk dəfə o vaxt Adil həkimə “baba” demişəm. Adil həkim mənə deyib ki, “Nicat sən mənə əmi və ya həkim deyə müraciət elə”. Axı mən sənin baban deyiləm, həmçinin bu sənin babanın da xətrinə dəyə bilər. Məndə cavabımda israrla “yox mən elə sizə baba deyəcəm” demişəm. Sonralar mən evdə anama deyirmişəm ki, Məhəmməd baba (anamın atası) mənim babam deyil görmürsüz o Röyalgildə qalır, (Röyal dayım oğludur) o, Röyalın babasıdır mənim babam deyil. “Mənim babam Mirişli babadır”. 10 yaşıma kimi mən həqiqətən elə bilirmişəm ki, Mirişli baba mənim öz babamdır. O vaxtdan sonra Adil həkim buna etiraz etməyib və 2 yaşımdan bu günə kimi mən onlara “Mirişli baba və Tamilla nənə” deyirəm. Burdan da belə bir məntiqi nəticə çıxarmaq olar ki, mən Adil həkimin ilk mənəvi nəvəsiyəm. Hansı ki, o illərdə Adil həkimin uşaqları təxminən orta məktbi təzə bitirmişdilər

ya da universitetdə oxuyardılar. Onun üçün mən Adil həkimin ilk nəvəsiyəm.

Mən çox zəif orqanizmli və xəstə uşaq olduğum üçün mənim həyatda yaşamağıma səbəb göydə Allahın qisməti, yerdə isə Adil həkim səbəbkar olub. O mənada ki, mənim uşaq vaxtı müayinələrim zamanı Adil həkimin təyin etdiyi diaqnoz və müaliclər Bakıda və Moskvadakı həkimlər, məşhur professorlar tərəfindən təsdiq edilərək qəbul edilmişdir. Onlar valideynlərimə tövsiyyə edibmişlər ki, bu diqanoz və müalicələri hansı həkim təyin edibsə əvvəldən axıra kimi o həkimin yəni Adil həkimin dediklərini edin və o həkimdən başqa həkimə müraciət etməyin.

Mən bir digər başqa bir məqamı xüsusilə qeyd etmək istəyirəm. Hansı ki, bu nüans bizim ailəmiz tərəfindən qəbul edilib. Bilirsiz ki, Adil həkimin atası, babası, əmiləri Naxçıvanda hörmətli, sayılıb seçilən ağır seyidlərdən olublar. Adil həkimin özü də seyiddir. Yəni onların evlərində ocaqlarında bir fərqlilik, təmizlik, şəfa var. Dəfələrlə olub ki, körpə vaxtı valideynlərim məni çox ağır halda demək olar ki, hərəkətsiz, taqətsiz vəziyyətlərdə Adil həkimin evinə aparıblar. Belə demək düzgündürsə bir neçə müddətdən sonra mən özümə gəlmişəm, əhvalım müsbət mənada dəyişib. Hansı ki, eyni situasiyada məni 1-ci uşaq xəstəxanasına aparıblar. Çox çalışsalar da bir dəyişiklik olmayıb.... Adil həkimin həkim kimi biliyi, savadı və təcrübəsi olmaqla bahəm bir də onun müsbət nurani aurası əlinin şəfası var. O çox mənim kimi xəstə uşaqlara şəfa verib.

İndi artıq mənim 33 yaşım var, ailəliyəm, ali-hərbi təhsil almışam, zabitəm, Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarında hərbi xidmətdəyəm. Atam vəfat edib, anamla birlikdə yaşayıram. Mirişli babanın ailəsi ilə bu ailə dostluğunun təməli rəhmətlik atam Camal müəllim tərəfindən qoyulub bu gündə mənim tərəfimdən bu xoş münasibətlər, dostluğumuz davam etdirilir. Məkan baxımından bir birimizdən uzaqda olsaqda qəlbən yaxınıq və inşallah ki, gələcəkdə də Mirişli baba və onun uşaqları ilə dostluq münasibətlərimiz davam edəcək.

***Həsənov Nicat Camal oğlu***
*26.07.2018-ci il*

## UNUDULMAZ MÜƏLLİMİM

Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin pediatriya ixtisasında təhsil aldığım 2006-2012-ci illəri heç vaxt unuda bilmərəm. Bizə müxtəlif fənləri tədris edən, dərin bilik verməyə ciddi səy göstərən müəllimlərin zəhmətini indi də ehtiramla xatırlayıram. Onların sırasında isə tibb elmləri namizədi, dosent Adil Mirişlinin xüsusi yeri var. Təkcə mən yox, Adil həkimdən dərs almış tələbələrin, demək olar ki, hamısı onun alicənab, xeyirxah davranışı, zəngin mənəviyyatı, dərin biliyi, yüksək pedaqoji ustalığı barədə həmişə böyük sayğı ilə söz açırlar.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Yüksək mənəvi keyfiyyətlərə malik olmaq, daim ünsiyyətdə olduğu gənclərə nümunə göstərmək müəllimin borcudur”. Biz tələbələr Adil həkimi məhz belə gördük, belə tanıdıq və özümüz üçün nümunəvi həkim-müəllim obrazını onun simasında tapdıq.

...Onu da deyim ki, bir çoxları kimi, mən də Adil həkimi hələ tələbəsi olmazdan əvvəl qiyabi surətdə tanımışam, haqqında xoş sözlər eşitmişəm. Hələ orta məktəbdə təhsil aldığım illərdə onun müalicə edib şəfa verdiyi bir sıra uşaqların valideynlərindən (onların sırasında qohumlarımız da var idi) Adil Mirişlinin bacarıqlı həkim, ləyaqətli, xeyirxah insan olması barədə eşitdiyim minnətdarlıq dolu sözlər indi də xatirimdədir...

İlıər keçdi. Ali məktəbə daxil olub tələbə adını qazandım. Və taleyin xoş qisməti idi ki, bizə ixtisas fənlərini təd-

ris edən müəllimlər sırasında Adil həkim də vardı. Hörmətli Adil həkim universitetin pediatriya kafedrasının müdiri kimi bizlərə, pediatriya ixtisasında təhsil alan tələbələrə böyük qayğı və həssaslıqla yanaşır, mümkün olan hər cür köməkliyi göstərirdi. O həm də bizə bir sıra fənləri tədris edirdi. Üçüncü kursda Uşaq xəstəliklərinin propedevtikası, dördüncü və beşinci kurslarda isə Uşaq xəstəlikləri fənlərindən mühazirə və praktik məşğələləri Adil həkim bizə elə yüksək səviyyədə tədris edirdi ki, bunlar bizim həkim-pediatr kimi formalaşmağımıza çox böyük təsir göstərdi.

Adil həkim on illər boyu səhiyyə sahəsində çalışaraq minlərlə xəstəyə şəfa verməklə yanaşı, həm də zəngin təcrübə toplamışdı. O, dərin biliyini və çoxşaxəli ixtisas təcrübəsini bizə həvəslə öyrədir, nəzəri biliklərlə praktik fəaliyyəti məharətlə əlaqələndirirdi. Biz praktik məşğələlər, həmçinin ixtisas təcrübələri dövründə onun xəstələri necə müayinə etməsinin tibbi əsaslarını və prinsiplərini yaxından müşahidə edib çox məsələləri öyrənməklə yanaşı, həm də ondan əyani şəkildə peşə etikası dərsi aldıq. Xəstə uşağa, onun valideynlərinə necə yanaşmağın ən optimal üsullarını da ondan öyrənmək imkanımız oldu.

Tanınmış alim-pedaqoq olan Adil Mirişlinin mühazirələri indi də yadımdadır. O hətta ən dərin elmi mətləbləri elə sadə, anlaşıqlı və əhatəli şəkildə izah edirdi ki, tələbələr üçün, demək olar ki, qaranlıq məqam qalmırdı. Minnətdarlıq hissi ilə onu da qeyd edim ki, universitet təhsili illərində tələbə elmi cəmiyyəti xətti ilə elmi məruzələrimi də məhz Adil Mirişlinin rəhbərliyi, dəyərli məsləhətləri ilə hazırlamışam.

Adil həkimin sadə, təvazökar davranışı, təmkini, ləyaqəti, çöhrəsindən heç vaxt əskik olmayan nurlu təbəssü-

mü, mənəvi ucalığı ilə dərin nəzəri-praktik bilyi bir-birini ideal dərəcədə tamamlayırdı. Biz altı illik təhsil müddətində bir dəfə də olsun, onun səsini ucaltmasını görmədik, eşitmədik. Kiməsə irad tutanda da bunu elə nəzakətlə bildirirdi ki, həmin şəxs dərhal bundan düzgün nəticə çıxarırdı. Yaxşı xatırlayıram, hətta qrupumuzda dərslərə nisbətən zəif hazırlaşan bəzi tələbələr də onun tədris etdiyi fənni var qüvvələri ilə, bəlkə, daha artıq məsuliyyətlə oxuyurdular. Çünki Adil Mirişli öz alicənab davranışı ilə elə böyük hörmət qazanmışdı ki, tələbələr onun fənnini oxumamağa utanardılar.

Naxçıvan Muxtar Respublikasının rəhbərliyi bütün digər sahələrlə yanaşı, kadr hazırlığının ən müasir tələblər səviyyəsində qurulmasına da ardıcıl və hərtərəfli qayğı göstərir. Biz bunu təhsil aldığımız müddətdə də əyani şəkildə gördük. Məhz bu qayğının çoxşaxəli təzahürlərindən biri kimi biz Türkiyə və İranın universitetlərinin tibb fakültələrində, xəstəxanalarında təcrübələr keçdik. Həmin müddətdə müəllimlərimizin, o cümlədən Adil həkimin bu işə böyük məsuliyyətlə yanaşmasının şahidi olduq. Bir daha anladıq ki, Adil Mirişli kimi müəllimlər hər məqamda gəncliyin inkişafı üçün yaradılmış şəraitdən maksimum səmərəli istifadə etməyə çalışır. Bu, özlüyündə həm də böyük vətəndaşlıq işidir.

2012-ci ildə pediatriya ixtisasını bitirib rezidenturaya daxil olduğum zaman məni ilk təbrik edənlərdən biri Adil həkim oldu. Rezidentlərlə görüşdə onun çıxışı, verdiyi müdrik tövsiyələr bizim üçün çox qiymətlidir...

İllər bir-birini əvəzləyir. Artıq təhsil illəri arxada qalıb. Bir neçə ildir ki, rezidenturanı bitirib Adil həkimin uzun illər səmərəli fəaliyyət göstərdiyi Ə.Əliyev adına Naxçıvan

Muxtar Respublikası Mərkəzi Uşaq xəstəxanasında çalışıram. Vaxtı ilə onun bizə öyrətdiyi biliklər daima köməyimə çatır. Həm də təkcə mənim yox. Naxçıvan Dövlət Universitetində tibb təhsili almış çoxsaylı gənclər bu gün müstəqil Azərbaycanın müxtəlif guşələrində həkim kimi fəaliyyət göstərirlər. Və onlar öz sevimli müəllimlərini, o cümlədən Adil Mirişlini böyük ehtiramla xatırlayırlar. Müəllim, həkim üçün yetirmələri tərəfindən daima xatırlanmaq isə böyük səadətdir. Çox hörmətli Adil Mirişli illərdir ki, bu səadətin sevinc və qürurunu yaşamaqdadır. Arzu edirik ki, hələ bundan sonra da neçə-neçə illər boyu yaşasın!

Əziz müəllimimizi əlamətdar yubileyi münasibəti ilə bütün tələbələri adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı arzulayıram!

***İlkay ƏLİYEVA (HƏŞİMLİ)***
*Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi*
*Uşaq xəstəxanası baş həkiminin müavini,*
*Naxçıvan Dövlət Universitetinin*
*tibb fakültəsinin dissertantı*

## BİZİM ƏZİZ QONŞUMUZ...

Dəyərli alim, əvəzsiz həkim, əziz və mehriban insan olan Adil Mirişlinin qonşu kimi çox gözəl xatirələri vardır. Onunla bağlı xatirələr çoxdur: bir kitaba sığmayacaq dərəcədə.

Həmişə evə pillələri qalxarkən Adil Mirişli və qızı Aybənizin gözəl zümzümələrini eşidirdik. Aybəniz Mirişli ilə rəfiqə olduğuma görə tez-tez onlarda olardım. Adil Mirişli həmişə gözəl məsləhətlər verər, bizi elmə, poeziyaya həvəsləndirərdi (ş`er yazdırar, onları həvəslə dinləyərdi). Dəfələrlə evlərinə gələn saysız-hesabsız xəstələri təmənnasız olaraq necə səbr və həssaslıqla müayinə etdiyinin şahidi olmuşam. İşdən evə nə qədər yorğun gəlsə də bir xəstəyə e`tiraz etməzdi. Adil Mirişlinin gözəl həyat yoldaşı (çox gözəl insan və həkim) Tamilla xanım bütün əziyyətlərində onu dəstəkləyirdi. Bu qədər xəstələr "goşusuna" xidmət edə-edə 3 gözəl, ağıllı, savadlı, cəmiyyətə xidmət edən övladlar böyüdüb tərbiyə etmək dahi insanlara məxsusdur.

Hacı Adil Mirişli hər tərəfli gözəl təfəkkürə malik bir insan, alimdir. Mən həm bir azərbaycanlı, həm də bir qonşu olaraq Adil Mirişlini tanıdığıma görə fəxr edirəm.

***Aidə Hacıyeva***
*(qonşu)*

## DOKTOR ADİL MİRİŞLİ HAQQINDA BİLDİKLƏRİMDƏN...

Bizim ailənin Adil həkimin atası Mircəfər müəllimin (Allah rəhmət eləsin!) ailəsi ilə çox yaxın münasibəti olub. Atam-Abbasəli Həsənovla rəhmətlik Mircəfər müəllim möhkəm dost idilər. Tez-tez ailəvi gediş-gəlişimiz olardı, bayramlarda biri-birimizə pay aparardıq. Yadımdadır, bizim ailə Bazarçay yaylağında istirahətdə olanda atası etibar edib oğlu Ramizi də bizimlə ora göndərmişdi.

Mircəfər müəllim Naxçıvanda çox nüfuzlu adam idi, hamı ona hörmətlə yanaşırdı.

Bir vaxtlar Mircəfər müəllimin evi plana düşdü və yerində məişət evi tikilməyə başlandı. Mən o vaxt tikinti təşkilatında iş icraçısı işləyirdim. Həmin obyektin tikintisi mənim iş yoldaşlarımdan birinə həvalə olunmuşdu, amma orada hər dəfə xoşagəlməz hadisələr baş verirdi və sahəsi təqribən 500 kv.metr olan bir bina tikilə bilmirdi. Sonradan həmin yarımçıq vəziyyətdə olan obyektin tikintisini mənə tapşırdılar. Eyni səbəblərdən az bir müddətdən sonra tikintini tamamilə dayandırmalı oldular.

Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri olanda isə, həmin yerdə böyük və gözəl bir məscid tikilməsinə qərar verdi və tikdirdi də.

Adil həkim Naxçıvanda olanda, bizim körpələr xəstələnəndə onun evinə aparırdıq və o təmannasız olaraq hamını və bizi elə evindəcə qəbul edərdi və məsləhətlərini verərdi. O da yadımdadır ki, bacanağım Əhməd 1998-ci ildə rəhmətə gedəndən sonra – onlar Naxçıvanda yaşadıqları dövrdə - onun uşaqlqrına da Adil həkim baxırdı və onları ayrıca nəzarətdə saxlayırdı.

Hörmətli dostumuz Adil həkimi  yubileyi münasibətilə ailəmiz adından təbrik edirəm, ona cansağlığı və bütün arzularına çatmasını diləyirəm!

*Məhəmmədəli*
*Abbasəli oğlu Həsənov*



*Həkim yoldaşları Əkbər Axundov və Akif Abdullayev ilə*




*Respublika uşaq xəstəxanasının kollektivilə*



*NDU, Pediatriya kafedrası. Praktik məşğələ*



*Akademik Adilə xanım Namazova ilə dövlət imtahanında*



*Akademik Adilə xanım Namazova ilə dövlət imtahanında*



*NDU Tibb fakültəsi müəllim və tələbələri ilə*



*NDU-nun tibb fakültəsinin tələbələri müəllimləri ilə*



*NDU-nun tibb fakültəsinin tələbələri müəllimləri ilə*



*NDU Elmi Konfransında*



*NDU Elmi Konfransında*



*NDU Elmi Konfransında*





*NDU Elmi Konfransında*



*NDU Tibb fakültəsi məzunları,*
*2012*




*NDU Tibb fakültəsi məzunları,*
*2012*



*NDU Tibb fakültəsinın yeni laboratoriyasında*



*NDU Tibb fakültəsinın yeni laboratoriyasında*



*NDU Tibb fakültəsinin yeni laboratoriyasında*




*Unudulmaz anlardan...*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun iştirakı ilə NDU Tibb fakültəsinin buraxılışı*



*Unudulmaz anlardan...*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun iştirakı ilə NDU Tibb fakültəsinin buraxılışı*



*Tibb fakültəsində*



*Tələbələrlə xəstənin müainəsi zamanı*



*Tibb fakültəsi tələbələri ilə*



*Tibb fakültəsində*



*NDU Tibb fakültəsinin tələbələri ilə,*
*Təbriz, 2010*



*Ümümdünya türkdilli ölkələrin pediatrların konfransında*



*Ümümdünya türkdilli ölkələrin pediatr konfransında*



*Nadir və Qadir Məmmədovlar ilə (yaxın dostlar)*



*Azərbaycanın xalq artisti Samir Cəfərov ilə*

# MƏN ƏMİOĞLUM İLƏ FƏXR EDİRƏM

Biz Adillə yaşıdıq, cəmi 4 ay fərqimiz var. Buna görə orta məktəbdə məndən bir sinif yuxarıda oxuyurdu. Biz hər ikimiz Naxçıvan şəhərində 1 nömrəli orta məktəbdə təhsil almışıq. O təhsil dövrümüz çox ağır bir vaxta təsadüf edib. Belə ki, müharibədən sonrakı vaxtlar çətin, ağır iqtisadi-siyasi vaxtlar idi. Bu dövrdə xüsusən ibtidai sinifdə dərs deyən müəllimlərin hamısı bizim yaxşı təhsil almağımız üçün fədakarlıq göstərirdilər. Yuxarı siniflərdə mənə ədəbiyyat fənnindən Yavuz Axundlu, Məmməd Bektaşi, tarixdən Qasım Qasımov, Adilə Seyidova, coğrafiyadan Nadir Rəhimov, kimyadan Cəfər İmanov, fizikadan Məmməd Bektaşi dərs demişlər. Mən yadıma düşən bu müəllimlərimin adlarını təfsilatı ilə ona görə qeyd edirəm ki, onların əksəri, bəlkə də hamısı əmioğlum Adilə də dərs demişlər. Biz bu müəllimlərimizi daim yad edirik. İndi də Adil Mirişlinin 80 yaşının tamamlanmasının yubiley ilində sözün əsl mə`nasında bu peşəkar müəllimlərimizi böyük hörmətlə yad etməyə hər ikimiz borcluyuq.

Adil Mirişli orta məktəbi qızıl medalla bitirib, N.Nərimanov adına Azərbaycan Tibb institutuna imtahan verərək pediatriya ixtisasına qəbul olmuşdur və oranı 1962-ci ildə bitirdikdən sonra Naxçıvan Səhiyyə sistemində işə başlamışdır.

Bir neçə il burada işlədikdən sonra o, SSRİ Tibb EA-nın pediatriya institutuna aspiranturaya daxil olunub. 1973-cü

ildə yazdığı dissertasiyanı müdafiə edərək Naxçıvan şəhərinə qayıtmışdır.

1973-cü ildən Adil Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyində baş pediatr vəzifəsinə tə`yin olunub. 2001-ci ildə NDU-nin Tibb fakültəsində Pediatriya kafedrasının müdiri vəzifəsinə də`vət etdilər. O bu kafedraya 12 il rəhbərlik etmişdir.

Adilin atası Mirişli Mircəfər Mirişağa oğlu "Azərbaycan dili və ədəbiyyat" müəllimi olmuşdur. O, Muxtar Respublikanın bir çox rayonlarında, şəhər orta məktəblərində və eləcə də Naxçıvan pedaqoji texnikumunda dərs demişdir. Mircəfər Mirişli Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüş və Muxtar Respublikanın ilk "Lenin ordeni" alanlarından birincisi olmuşdur.

Mircəfər ağa Naxçıvanda böyük nüfuza malik olub və indi də hörmətlə yad edilir.

Adil Tibb institutunu bitirdikdən sonra, qrup yoldaşı Tamilla xanımla ailə həyatı qurmuşdur. Onların 2 oğlu və bir qızı var. Hər üçü Naxçıvan şəhər 3 №-li məktəbi bitirmişlər.

Adil həkimin böyük oğlu Asif Rusiyada Sankt-Peterburq şəhərində Elektrotexnika institutunu bitirmişdir. Emin isə Moskvada M.Lomonosov adına universitetin fizika ixtisasını bitirmişdir. Qızı Aybəniz isə Bakıda Azərbaycan Neft-Kimya institutunu bitirmişdir.

Hər iki qardaş evlidir və Moskva şəhərində yaşayırlar. Qızı Aybəniz xanım isə mənim qardaşım oğlu bəstəkar Yusiflə ailə qurub. Onlar Türkiyədə Afyon Kocatəpə Universitetində işləyirlər.

Adil Mirişli dostluğu və onu qoruyub saxlamağı yaxşı bilir. Orta məktəbin yuxarı siniflərində oxuduğu zaman dostlarından biri Əbülfəz olmuşdur. Digər dostu isə, ədə-

biyyat sahəsində xüsusi yeri olan professor Abbas Zamanovun oğlu Fuad olmuşdur.

Adil Mirişli Səhiyyə Nazirliyində işlədiyi zaman Respublikanın tanınmış həkim-cərrahı Mehdi Bağırovla uzun müddət dostluq etmişdir. Mən onları həmişə işə gedəndə və işdən qayıdanda bir yerdə görürdüm.

Onların hər ikisinin xasiyyətləri demək olar ki, eyni idi. Sadəlik, zarafatcıllıq, insanlarla xoş münasibət və qürurluluq.

Mehdi həkim urologiya üzrə keçmiş SSRİ məkanında tanınan alimdir. O, SSRİ-nin "Xalq həkimi" və "Lenin ordeni" ilə təltif edilmişdir. Bununla yanaşı Azərbaycanın əməkdar həkimi adına layiq görülmüşdür.

Mənim əmioğlum və dostum Adil Mirişli haqqında xatirələrim çoxdur. Ona görə ki, bu həyatı – 80 illik ömrü birgə yaşamışıq. Necə yaşadığımızın bir hissəsini sizlərlə bölüşdüm. Mən onunla həmişə fəxr etmişəm. Adil həkimə uzun ömür arzulayıram.

***Mirişli Faiq Aqil oğlu***
*fizika-riyaziyyat elmləri namizədi*

.

## BİBİOĞLUMA TƏŞƏKKÜR EDİRƏM

Biz Adil Mirişli ilə birlikdə böyüdük. Adil bibioğlum çox gözəl voleybol oynayardı. Böyük Bağda maçlar olardı, mən də azərkeşlik edərdim. O mənə voleybolu sevdirdi və mən onun sayəsində idman azerkeşi oldum. Voleybolu necə ustalıqla oynayırdısa illər sonra da öz peşəsini sevən həkim oldu.

Mən 1972-1973 cü illərdə Moskva şəhərində KQB klinikasında xəstəliyimlə əlaqədər müalicə alırdım. Həmin zaman mənim bibioğlum Adil Mirişli həyat yoldaşı Tamilla xanım ilə Moskvada işləyir və təhsillərinə dəvam edirdilər.

Məni və 2 xəstə polkovniki Moskva Burdenko adına Nevrolijı klinikaya mualicə almaq üçün göndərdilər. Orada palata yoldaşlarım əməlliyyat oldu və ikisi də vəfat etdilər. Mən də əməlliyyat olmaliydım. Palata yoldaşlarımın vəfatı məni gorxudmuşdu. Bu zaman mən bibioğlum Adil Mirişliyə zəng edib narahatlığımı bildirdim. Səhər o gəlib klinikanın başhəkimi ilə danışdı və mənim əməlliyyat olmasam da yaşaya biləcəyimi, həyatı heçbir qorxusu olmadığını, əməlliyatın həyatım üçün təhlükəli olduğunu söylədi və məni o xəstəxanadan çıxartdı. İlk olaraq mən KQB-nin klinikasına qayıdıb sonra Bakıya geri döndüm.

Hal hazırda mən 75 yaşındayam, 2 qızım və 4 nəvəm var. Bu yaşa gəlməmə, ata və baba olma xoşbəxtliyinə sahib olmama Adilə borcluyam. Mən buna görə Bibioğluma Təşəkkür edirəm.

***Tehran Zeynalov***
*Dayisi oğlu*

## " Я ВСЕГО ЛИШЬ ВЫПОЛНЯЮ СВОЙ ДОЛГ..."

Наша семья не была состоятельной, но при этом никогда ни в чем не нуждалась. Когда отец занимал должность в Министерстве здравоохранения или преподавал в университете, он не переставал работать практикующим педиатром. Ко всем своим пациентам он относился одинаково, будь это ребенок друга, родственника, малоимущего человека или влиятельного чиновника. Все они были для него детьми, которым нужна помощь. 24 часа в сутки к нему могли обращаться жители всей Автономной Республики. Он никому не отказывал.

Отцу не раз предлагали разного рода благодарности от родителей пациентов. Но он всегда отвергал, будь это финансовое предложение или перспективная должность. Ответ был всегда один: «Благодарю, я всего лишь выполняю свой долг, свою работу!» Дом наш всегда был «полной чашей», и я знаю,что это все и есть «рузу» - благо от Бога. Знаю, что еда, которой нас кормили была благословлена самим Богом.

Рядом с моим отцом всегда была моя мать, Тамилла ханум. Она, как многие азербайджанские женшины, прошла весь тернистый путь рядом с отцом. От многого ей пришлось отказаться, чтобы поддержать отца в трудные минуты.

Все в нашем доме всегда делалось с именем Аллаха. Это качество отец унаследовал от своего отца Миришли Мир Джафара и своего деда Мириш Ага, и в свою очередь, передал это своим детям и внукам.

***Миришли Мир Асаф Адил оглы,***
*старший сын*

## НЕСКОЛЬКО СЛОВ О МОЁМ ОТЦЕ

Z увидел у своего отца некоторые черты характера, которыми хотел бы поделиться. Первое - это благодарность Богу в любых жизненных обстоятельствах. Я помню, когда поменял мир мой дед, отец моего отца Мир Джафар МирАга (МиришАга) оглы, то первое что сделал папа, когда пришел домой после похорон – помолился Богу, поблагодарил его, произнеся: «Аллах сена чох шукур».

Отец образец беспристрастности. Мой амиоглу Мир Расул, Аллах рахмат еласин, говорил: «Если дядю Адиля назначат первым секретарем Нахичеванского обкома КПСС, он первым делом выгонит из Нахичевани всех своих родственников, чтобы они не мешали навести порядок».

При отце нельзя ни о ком говорить плохо. Он обязательно перебьет и переменит тему.

Отец не приемлет подтасовок, любого поведения, идущего вразрез законам. Я очень просил сделать мне медицинскую справку о том, что я болен, чтобы не поехать на сбор картошки. Для него, члена коллегии министерства здравоохранения Нахичеванской АССР, это был пустяк. Но папа наотрез отказался. В итоге я на картошку просто не поехал – благо шел уже 1990-ый год, и за это не наказывали. Но поведение отца навсегда осталось в моей памяти. То же самое было, когда я в 1987 году приехал в отпуск из армии. Ровно в срок окончания отпуска, несмотря на мои просьбы

продлить отпуск по медицинским показаниям, отец отправил меня обратно служить в Забайкальский военный округ.

Все свое детство и отрочество, пока я жил в Нахичевани, в нерабочее время к нам домой приходили люди с больными детьми. Отец их принимал в гостиной. В это время мы обычно отдыхали, смотрели телевизор. Приходилось уходить в другую комнату. За один вечер могли приводить по пять-шесть больных детей. Мы, его семья, знали, что отец не берет с них денег. Это знала вся Нахичеванская АССР. Это была его принципиальная позиция. Мы гордились этим. Это было и есть сегодня особое чувство. Спасибо отцу, что он подарил нам его. Многие в те времена гордились фирменными джинсами, очками, футболками и так далее. Но, то чувство гордости, которое нам подарил отец, было и есть большая редкость. Джинсы порвутся, деньги закончатся, а это чувство живет вместе с нами. В отличие от материальных ценностей это чувство гордости – достояние всех нахичеванцев. Каждый из нас может сказать – наш главный педиатр Республики (с 1973 по 2006 год) принимал у себя дома больных детей и ни у кого не брал мзду. Даже, если родные больных очень настаивали. А, может быть, этим могут гордиться не только нахичеванцы?

Когда я учился на первом курсе физического факультета МГУ имени М. В. Ломоносова, заместитель главного врача поликлиники МГУ позволила себе грубые высказывания в мой адрес. Мне тогда было 17 лет, и я в сердцах ей сказал: «Мой отец очень большой человек в министерстве здравоохранения, и он Вас нака-

жет». Тогда отец меня долго ругал за эти слова. И, в недоумении, спрашивал: «Что бы я мог ей сделать? Какой же я большой человек?». Только сейчас я понимаю всю подоплеку этого случая. Мои высказывания были бессознательными. Я сравнивал своего отца и врача, с которым я говорил, не по должности и рангу, а по другим, не поддающимся измерениям критериям.

Отец в 1970 году, имея на иждивении двух детей, практически не владея русским языком, поступил в аспирантуру в Москве. Сейчас я понимаю, каких усилий ему стоило ровно через три года – к концу окончания срока аспирантуры, защитить кандидатскую диссертацию. В Москве остро не хватало участковых врачей и отцу предложили работу и жилье в столице Советского союза. Он отказался и прилетел с семьей в Баку. Здесь он уже почти согласился на должность ассистента в Азербайджанском Государственном Медицинском институте, но в последний момент собрал нас (к тому времени у меня родилась сестренка) и поехал в Нахичевань. Там, за более чем сорокалетнюю работу, ему предлагали несколько раз большие и авторитетные должности, но он всегда отказывался. Он не брал бесплатные земельные участки, которые раздавало государство, недорогие машины, распродаваемые с гаража министерства. Отец не признает авторитетов только по занимаемой должности и всегда осаживал людей, которые пытались разговаривать с ним с высоты своего положения. Он всецело предан своей работе, все время совершенствует свои знания. Долгое время делился ими, когда преподавал в Нахичеванском Государственном Университете.

Больше всего папа гордится паломничествами в Хадж (два раза), Мешхед, Карбалу. Сколько я помню себя, отец всегда молился Богу: с утра, после каждого приема пищи (просит Аллаха накормить всех голодных), перед сном. С девяностых годов прошлого столетия отец стал полностью соблюдать исламские каноны. Каждый год я очень волнуюсь, когда наступает месяц Рамазан – знаю, что никакие уговоры не помогут, и отец будет поститься.

Есть фундаментальный закон физики – закон сохранения энергии. Мы - дети Адиля Миришли – не обладали возможностью покупать все на своем жизненном пути и надеялись на свои знания и силы. Но много раз Бог посылал нам помощь в лице людей, которые с большим уважением относились к нашему отцу. Спасибо им всем, хвала Аллаху господу миров и хранит Аллах всех наших близких. Амин.

***Эмин Адил оглы Миришли,***
*сын*

## ATAM…

Atam… Adil Mirişli.. Bu ad mənə nəyimi anladır? Doğruluğu, dürüstlüyü, haqqı, hüququ, insanları sevməyi, insanlara yardım etməyi, çox oxumağı, çox düşünməyi…

Mən evin sonbeşiyiyəm. Uşaqlıgım Naxçıvan şəhərində, atamın artıq tanınan və  çox sevilən bir həkim olduğu illərdə keçib. Hər səhər atam əlimdən tutub məni 2 nomrəli uşaq baxçasına aparırdı. Və o yol boyunca qarşımıza çıxan hər insan atamla çox mehriban salamlaşardı. Mən atamın çox sevildiyini o yaşlarda anlamışdım. Zaman keçdikcə, mən böyüyüb məktəbə getdiyim vaxt atamın nə qədər dəyərli bir insan olduğunu daha da yaxşı anlamağa başladım. Müəllimlərim, məktəb yoldaşlarım və rəfiqələrimdən atam haqqında hər zaman gözəl sözlər eşitdim.

Biz atamla iki dost olduq həmişə. Bə`zən anamla belə paylaşmadığım sirrlərimi atamla paylaşardım.

Mənə həyatı öyrədən, ayaqlarım üzərində sağlam dayanmağa təşviq edən, inancımın tam olmasını tə`min edən, elədiyim səhfləri görüb düzəldən, həyatımın bütün çətinliklərində yanımda olan insandı Atam.. Elədiyim hər işdə, aldığım hər qərarda, atdığım hər addımda onun məsləhətinə ehtiyacım var. Yanımda olmadığı vaxt atam nə deyər bu işə – deyə fikirləşirəm, sonra qərar verirəm.

Mən çox xoşbəxt bir insanam.. Atam müdrik fikirləri ilə həmişə yanımda olub. Atama can sağlığı, uzun ömür arzu edir, Allahdan tək istəyim ona layiq övlad olmaq və ona layiq nəsil yetişdirməkdir.

*Aybəniz Mirişli*
*qızı*

## KÖMƏYİ YALNIZ TANRIDAN İSTƏ...

Belə bir söz var, deyərlər, insanın bəxti üç dəfə gətirir - yaxşı ailədə doğulmaq, yaxşı təhsil almaq və uğurlu evlilik.

Tam əminliklə deyə bilərəm ki, mən çox şanslı insanam, çünki əsil-nəcabətli bir ailədə doğulmuşam, Azərbaycanın ən hörmətli və soylu-köklü bir nəslinin nümayəndəsi ilə ailə qurmuşam.

Adil müəllim mənim üçün təkcə qayınata deyil, eyni zamanda həyat müəllimimdir. O, mənə müsəlman qadının ən mühüm xüsusiyyətlərindən biri - səbirli olmağı öyrətdi. Və bu həyatımın ən çətin anlarında köməyimə çatır.

Onun əsas nəsihətləri: səbirli ol, az danış və köməyi yalnız Tanrıdan istə. Və zaman Adil müəllimin nə qədər müdrik olduğunu sübut etdi.

Adil müəllimin ədəb, təkva, əxlaq, səbrlilik və bir çox başqa insan keyfiyyətlərini özüm və övladlarım üçün nümünə hesab edirəm.

Arzu edirəm ki Adil Mirişlinin böyük ailəsi daim onun ətrafında olaraq ruhən zənginləşsin və öz dərin məhəbbətini və hörmətini Adil həkimə bəxş etsin.

***Nəzrin Novruzova,***
*gəlini*

## ПРОДОЛЖАЙТЕ ДЕЛАТЬ НАШ МИР ЛУЧШЕ, КАК МОЖНО ДОЛЬШЕ, МОЙ ЛЮБИМЫЙ И ГЛУБОКОУВАЖАЕМЫЙ ДЯДЯ АДИЛ!!!

Dо моего знакомства с дядей Адилом, я знала представителем какого древнего, известного и почитаемого рода он является; какой он уважаемый врач и один из лучших специалистов в области педиатрии, но не представляла, что это за личность. Ведь, иногда, известные и уникальные люди в повседневной жизни могут оказаться чересчур заносчивыми. Как же приятно и радостно было увидеть очень мудрого, невероятно сильного, уверенного в себе человека, который при этом добр, внимателен и тактичен.

Я с уверенностью могу сказать, что Миришли Адил МирДжафар оглы - это уникальная личность, сочетающая в себе профессионализм с лучшими человеческими качествами. Он до сих пор продолжает совершенствоваться, развиваться и каждым поступком и словом в своей жизни доказывает, что является не только потомком своего почитаемого рода, но прежде всего личностью!

Хотелось бы, чтобы в каждой семье был свой Миришли Адил МирДжафар оглы, мне кажется, тогда мир бы стал лучше, светлее и добрее.

Продолжайте делать наш мир лучше, как можно дольше, мой любимый и глубокоуважаемый дядя Адил!!!

***Елена Миришли,***
*невестка*

## Я БЛАГОДАРЕН ВСЕВЫШНЕМУ, ЧТО АДИЛ МИРИШЛИ МОЙ ДЕД!

Дед. Что подразумевается под этим словом? Для каждого оно имеет свои ассоциации. Для меня же это слово особенное! Говорят, мы не выбираем, в какой семье мы родимся, и определяет нашу судьбу только Всевышний. Я благодарен Аллаху, что родился именно в этой семье и моим дедом стал именно Адил Миришли . Многие, скажут о моем деде, что он был отличным доктором, честым и добрым человеком, но мало кто знает его, как деда. Мне же посчастливилось познать ответ на этот вопрос.

Как дед Адил Миришли совершенно необычный. Каждая встреча с ним для меня - это праздник. С кем еще я могу получить такое большое количество информации о жизни, помимо того я узнаю все самое интересное про свою семью и, даже больше, про свой род.

Моему деду уже почти 80 лет, и его память уникальна! Он способен рассказать про каждого родственника или про наших предков, даже самого дальнего, много интересных фактов, историй и событий. Это бесценные знания. Именно с ним я могу обсудить все вопросы, касающиеся нашей религии. Хочу сказать, что его наставления я помню и буду помнить всегда. Как-то он мне сказал: «Никогда ни у кого ничего не проси! Обращайся с просьбой только к Аллаху!»

У меня есть детская мечта, я хочу, чтобы дед увидел моего первенца. И я молю Аллаха, чтобы он позволил этому дню свершиться. Я благодарен Всевышнему, что Адил Миришли мой дед!

***Миришли Джафар Мир Асаф оглы***

## DEĞERLİ DEDEM

Yazacak o kadar çok şey var ki ama kalemi elime aldığımda bunları bir kağıt üzerinde anlatamayacağımı, gösteremeyeceğimi anlıyorum. Belki bunu okuduğunuzda yanlış anlayabilirsiniz ama bu ailede olduğum için, Adil Mirişli'nin torunu olduğum için, Allah'a sonsuz teşekkür ediyorum. Dedem olmasaydı, onun bana öğrettiklerini belki de kimse öğretemezdi. Onunla sohbet etmek hep hayatıma bir şeyler katıyor; din olsun, fen olsun, matematik, tarih hiç bilmediğim şeyler anlatarak bana birçok şey öğretiyor. Onun davranışları bana hep örnek olur ve birçok konuda dedeme bakıp ders çıkarttığım için yanlış yapmadım. Birbirimizden çok uzak olduğumuz için fazla güzel anılarımız yoktur belki ama çocukluğumdan beri hep yaz tatilinin gelmesini, kavuşacağımızı ve dolu dolu bir ayı beraber geçireceğimizi dört gözle beklerdim. Yıllar geçiyor ve ne kadar çok beraber zaman geçiriyorsak kendimi o kadar çok şanslı hissediyorum.

İyi ki dedemsin.

Sevgilerle,
torunun **_Tamilla Mirişli_**

## O, BENİM HAYATTAKİ ŞANSIM

Adil Mirişli, benim canım dedem, çocukluğum, gençliğim, öğretmenim, doktorum ve daha birçok sıfat verebileceğim çoğu konuda destekçim olan insan…

İnsanlara değer vermek ve onlara kendi hayatında farklı bir yer ayırmak özel bir durumdur ve dedem bu özel insanlardan biri benim hayatımda. Hayata gözümü açtığımdan bu yana onun arkamda, yanımda, benimle olduğuna inanarak büyüdüm ve ailem için bir güç kaynağı, bir dayanak olduğuna inandım.

Zor ve çaresiz kalınan durumlarda ona koşmanın ve onun dualarına sığınmanın vermiş olduğu rahatlığı sizlere anlatmak benim için güç. Ben onun Allah'a ve dinine olan bağlılığının, onun ettiği duaların ve onun bizlere verdiği nasihatların bizi ayakta tuttuğuna inanıyorum. Çünkü o çetin şartlarda nasıl davranılması ne yapılması gerektiğinin en güzel örneği. O benim hayatıma verilmiş bir şans; ders anlamında, moral anlamında, sağlık anlamında ve daha sayabileceğim birçok konuda hep benimle oldu.

Hastalandığımda yanımda olan, konuşmaya ihtiyacım olduğunda yanımda olan, gerektiğinde her türlü eziyetime katlanan, nasıl hissettiğimi gözümden anlayan bir insan, şans değil de nedir? Ben, onun genç bir torunu olarak, onunla konuştuğum veya tartıştığım her konuya değer veriyorum. Çünkü biliyorum ki o değerli bir insan.

Bir gün, o hayatta olmasa ve benimle vedalaşmak zorunda kalsa dahi, onun hayatını ve fikirlerini önemseyece-

ğim. Hava almak için evden çıkıp onun kapısına koştuğum günleri asla unutmayacağım, bu onun bana kazandırdığı en büyük hediye zannımca.

Onunla geçirdiğim her saat benim için kıymetli: beraber yemek, birlikte yürümek, birlikte gezmek, beraber oruç tutmak, oyun oynamak, sohbet etmek, konuşmak ve daha birçok eylem… Özel günlerde bir insanı mutlu edecek şeyin kitap olduğunu düşünerek hevesli hevesli gidip kitap aldığım sayılı insanlardan biri hatta belki de tek insan o, bu yüzdendir ki onun düşünceleri de benim şansım.

Hayatımın en güzel yaşlarında, en güzel dönemlerinde benimle olduğu için ona minnettarım ve müteşekkirim.

***Günel Mirişli***
*(torunu)*

# ƏSL İNSAN - ADİL MİRİŞLİ

*(Adil Mirişli həddindən artıq təvazökar İNSAN olduğundan və 80 illik yubileyi ilə əlaqədar müsahibə verməkistəməyəcəyini nəzərə alaraq, 1998-ci ilin avqustunda Naxçıvan televiziyasında hazırlanmış* ***"Əsl insan - Adil Mirişli"*** *televerilişinin stenoqram mətni)*

Tarixlər şahidi Naxçıvan. Mirişli nəsli Naxçıvanın ən nüfuzlu nəsillərindəndir. Yaşlı nəslin nümayəndələri bu nəslin ağsaqqalı Miriş ağanı tanınan ən mötəbər insan kimi xatırlayırlar. Miriş ağa və onun övladlarına isə ocaq seyidləri də deyərdilər. Onların yaşadıqları ev-ocağa üz tutanlar, niyyət edənlər xeyir görüb, niyyətləri baş tutub, saflaşıblar. Şair yaxşı deyib: Sirrini heç kəsə verməyən dünya. Həyatda elə sirrlər var ki, insan ağlı, insan zəkası hələ onları dərk edə bilmir, onları yalnız Yaradan - Ulu Tanrı bilir. Mirişli nəslindən çıxanların hamısı ziyalı olub.

Muxtar Respublikanın Əməkdar artisti Mir Həsən Mirişli. Bu unudulmaz sənət ustasının Naxçıvan teatrında xüsusi yeri var.

Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, ömrünün çoxunu şəhər və kəndlərdə müəllimliklə başa vuran mərhum Mir Aqil Mirişli.

Həyatını məktəbə, uşaqların təlim, tərbiyəsinə həsr etmiş Lenin ordenli mərhum Mircəfər Mirişli. "Oğul çalış heç kimin ürəyinə dəymə". Mircəfər ağa, Allah sənə rəhmət eləsin. Qəbrin nurla dolsun. Oğluna xitabən dediyin bu fikir yaşadığımız dövrdə təmasda olduğumuz bütün

insanlar üçün nəinki lazımdır, çox lazımdır. Necə də gözəl səslənir bu söz: çalış heç kəsin ürəyinə toxunma.

Azərbaycanın tanınmış bəstəkarı, Azərbaycan musiqi akademiyasının professoru, Respublikanın Xalq artisti Ramiz Mirişli bu nəslin yetirməsidir.

Azərbaycan Respublikasının əməkdar həkimi, Muxtar Respublika Səhiyyə Nazirliyinin baş pediatrı, tibb elmləri namizədi Adil Mirişli mərhum Mircəfər ağanın və Püstə ananın kiçik oğludur. Hər adama insan demək olmaz. Adamın pisi də olur, yaxşısı da. Insan adı ülvi olduğuna görə ona pis demək olmaz. Insan hər şeydən əvvəl sadə, təvazökar, səmimi, xeyirxah, gözü-könlü tox, nəcib, təmiz və digər yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik olmalıdır. Adil Mirişli belə keyfiyyətlərə malik insanlardan biridir.

Əsl insan Adil Mirişli.

O, həm də yüksək ixtisaslı, savadlı uşaq həkimidir. Ona adamlara, xüsusilə körpəsi olan analara, nəvəsi olan babalara, nənələrə sevdirən də məhz insani keyfiyyətləridir. Valideynlərin ürək sözləri:

***- Bağışlayın, siz Adil Mirişlini tanıyırsınızmı və onun haqqında nə deyə bilərsiniz?***

- Tanıyıram. O, çox yaxşı insandır, anaların çoxu onunla tanışdır, onun xətrini çox istəyir, kimin ki, uşağına baxıb o, təmənnasız olub. Həm bir insan, həm də bir həkim kimi mən də ona can sağlığı, uzun ömür və gələcək işlərində uğurlar arzulayıram. O, həmişə mənim nəvələrimə baxıb. Onun əli şəfalıdır. Kimin uşağına baxsa 3-5 gündən sonra düzəlir.

***- Bağışlayın, siz həkim Adil Mirişlini tanıyırsınızmı?***

- Adil Mirişli Naxçıvanın fəxridir, o, çox yaxşı uşaq həkimidir. O, mənim nəvələrimi də müalicə edib. Allah onun ömrünü uzun eləsin.

***- Adil Mirişlini tanıyırsınızmı?***

- Çox yaxşı tanıyıram. O, insanpərvər, yaxşı həkim kimi mənim nəvələrimi də müalicə edib. Çox yaxşı həkimdir.

Muxtar Respublikada yaşayan valideynlər xəstə uşaqlarının şəfa tapması üçün dar ayaqda Adil Mirişliyə müraciət edirlər. Kimliyindən asılı olmayaraq, günün hansı vaxtında olur olsun, o, xəstə uşağa kömək əli uzadır, uşağı müalicə edən həkimlərə lazımi məsləhətlər verir, xəstə tam sağalana qədər valideynlərlə əlaqə saxlayır, uşağı sağlam görəndə valideynin sevincini öz sevinci hesab edir.

**Adil Mirişli ilə bir söhbət:**

***- Xoş gördük sizi, Adil həkim. Mən dəfələrlə sizi buradan keçəndə müşahidə eləmişəm, biz sizin haqqınızda veriliş hazırlayırıq və yenə sizi burada gördüm. Nə isə sizi buraya cəlb edən səbəb var.***

- Siz bildiyiniz kimi bura bizim evlərimizin yeridir, Mirişlilər ocağıdır. Mən hər həftə heç olmasa bir və ya iki dəfə gəlib buranı bir növ ziyarət edirəm. Dua oxuyub, rahatlayıb evə qayıdıram.

***- Muxtar Respublikanın Ali Məclisinin Sədri Heydər Əliyev burada olarkən ona müraciət etmişdilər ki, bu Mirişlilərin ocağının yerində nə tikilsin? O da cavabında demişdi ki, yaxşı olar ki, məscid tikilsin. Hal-hazırda burada gözəl məscid tikilir. Buna necə baxırsınız?***

- Çox gözəl, bu elə onu göstərir ki, ocaq yerində məscid tikilməli: bura Allah evidir, ona görə də siz dediyiniz kimi lap əvvəllər mətbəə tikmək istəyirdilər, sonra səadət sarayı tikmək istəyirdilər, sonra yüksək mərtəbəli yaşayış evi. Bunlar hamısı alınmadı. Sürücülərdən biri ruhi xəstə oldu və s. belə hallar olub. 1962-ci il noyabrında sökülən evin yerində, nəhayət ki, 1993-cü ildə tikinti başladı. Tikintinin himinə ilk daş qoyan o vaxt Naxçıvan Muxtar Respublikası-

nın Ali Məclisinin sədri olan Heydər Əliyev cənabları oldu. Bunu televiziyada da vermişdilər mən özüm görmüşdüm. Burada məscid tikiləcəyini Heydər Əliyev özü demişdi.

- Mən bilirəm ki, ağam bu pilləkənlərdən qalxardı. Orada bir skameyka var idi, yadımdadır. Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi olarkən 1974-cü ildə Naxçıvana Muxtar Respublikanın 50 illiyi münasibətilə gələrkən bu bağa gəlib, oranı seyr etdi. Bir dəstə də adam yanında vardı. Mircəfər ağa yerindən qalxmaq istədi. Dedi Mircəfər ağa qalxma. Mən gələcəm sizin yanınıza. Gəldi, Mircəfər ağanı qucaqladı, öpdü və onunla belə səmimi idi. O, Mircəfər müəllim bizim ağsaqqalımızdır deyirdi. O, hər səhər oradakı fantanın suyu ilə dəstəmazını alardı. Hamısı yadımdadır.

*Adil həkimin evində.*

***- Həkim indi sizin evinizdəyik və sizinlə qeyri-rəsmi söhbət etmək istəyirəm. Son zamanlar siz Həcc ziyarətinə getmisiniz, Naxçıvanın ziyarətçiləri ilə birgə. Allah ziyarətinizi qəbul eləsin. Mən şad oldum ki, sizin kimi bir adam Həccə gedib. Sizdə olan bu dinə maraq əvvəldən olubmu, ya yuxarıdan gəlibmi, yoxsa siz özünüz dərk edərək bu yolu seçmisiniz? Bu barədə tamaşaçılara istədim ki, mə`lumat verəsiniz.***

- Siz yaxşı bilirsiniz ki, mən seyyid ailəsində doğulmuşam. Atam baxmayaraq ki, sovet hakimiyyətinin qəddar vaxtları idi, öz namazını qılardı, oruc tutardı. Anam da həmçinin ölənə qədər öz namazını kəsməmişdir. Belə ailədə böyüyən adam təbii ki, bu cür ola bilər. Mənim rəhmətlik qardaşım da müəllim idi, o da namazını qılardı, orucunu tutardı. Mən də namazı və orucu ilk günlərdə anamdan öyrənmişəm. Belədir ki, dinsiz alim, dinsiz ziyalı tam insan ola bilməz, gərək mütləq insan Allaha inansın. Bizim dinimiz islam dini isə ən proqressiv və ən axırıncı dindir. Hz. Peyğəmbərimiz–rəsu-

lullah Muhəmməd (s.ə.s.) axırıncı peyğəmbərdir. Quran ki, peyğəmbərə nazil olub, orada bütün dinlərin İsa (ə.), Musa (ə.) və s. adları çəkilir. Ona görə də mən bu dinə həmişə də inanmışam, yenə də bu din yolunda möminəm. İslam o deməkdir ki, cahillərlə öz elmi ilə, savadı ilə mübarizə aparsın. Allah da qismət elədi mən də Məşhəd ziyarətinə getdim, Kərbəla ziyarətində oldum və bu şəkil lap qədim Kufə məscidində çəkilib. Kufə məscidi o məsciddir ki, imam hz. Əli (ə)-ni buarada zərbətləyiblər. Daha sonra Allah qismət etdi heç gözləmədiyim bir yerdən Həcc ziyarətinə getdim. Həcc ziyarətinin əsası Məkkə şəhəridir. Məkkə şəhərində Allah evini ziyarət edirik, agah oluruq. Ondan sonra isə sünnət yə`ni ki, qeyri-rəsmi savab olur ki, Mədinəyə gedib orada peyğəmbər (s.ə.s.)-in qəbrini ziyarət elədik. Bu Mədinədəki şəklimdir. Hz.Peyğəmbər (s.ə.s.) – ın ilk dəfə tikdirdiyi məscid – Quba məscididir. Bu bizim Mədinədə həbəşlərlə çəkdirdiyimiz şəkildir. İslam dini belədir ki, millət məsələsi yoxdur. Bu mənim peyğəmbər məscidi qarşısındakı şəklimdir. Bu şəkildə isə mən əbada Mədinə şəhərində şəkil çəkdirmişəm. Bu da Məkkə şəhərindədir. Burada da namaz qılırdıq. Bunu da bizə Həcc ziyarətindən sonra Mədinədə verdilər. Bir iri Quran, bir balaca Quran, bir də 22 kasetdən ibarət bütün Quran-1-ci surədən 114-cü surəyədək hamısı buradadır.

***- İndi isə ailəniz, uşaqlarınız haqqında deyərdiniz.***

- Mənim 3 övladım var. Allah sizinkiləri də saxlasın. Böyük övladım Mirişli Mir Asəf: evlidir, 1 oğlu var adı Cəfərdir. İmam Cəfəri Sadiqin (ə) adıdır bəli. İkinci oğlum Moskvadadır. O, da Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirib. İndi hüquq həm də aspiranturada oxuyur. Fəlsəfə aspiranturasında Rusiyada İslam dininin xristianlığa tə`siri mövzusudur. O, da babalarının yolu ilə gedir. İxtisası fizikadır, lakin o, aspiranturasında fəlsəfəni götü-

rüb, o, fəlsəfəyə daxil olub. Qızım isə Neft Akademiyasını bitirib. Hal-hazırda Bakıda kompüter proqramlaşdırma üzrə işləyir. 2 uşağım ailəlidir. Bir oğlum subayır. Birinci gəlinim də öz qaynımın nəvəsidir. Novruzov Cahangirin qızıdır. Əlaqəmiz var, yaxşıdırlar.

***- Həkim bildiyimə görə siz öz ixtisasınızda məhdud dairədə qalan insan deyilsiniz, ədəbiyyatı da çox sevirsiniz.***

- Bizdə kitablar xeylidir. Klassiklər, eləcə də tibbi ədəbiyyat, Allahın köməkliyilə oxuyuruq. Axır aylarda mənə bunlar öz müəllifləri tərəfindən mənə verilən kitablardır. Məsələn, Böyrək köçürülməsi. Böyrək köçürülməsi bizim həmyerlimiz Akif Bağırov 3 il İstanbulda olub və böyrəyin köçürülməsi haqqında doktorluq dissertasiyası olub. Bu günlərdə gəlmişdi və yazısı ilə birgə mənə verib. Burada böyük yeniliklər var, deməli tibb elminin ən yüksək cəhətləri burada göstərilir və fəxr etməliyik belə doktorlarımızla. Bu kitab isə mənim müəllimim professor Yavuz Axundlunun kitabıdır. Bu yaxınlarda öz müəllifi tərəfindən mənə bağışlanıb. Yenə bu günlərdə mənə Maqsud müəllim Mahmudzadə Şeyx Şamil və onun varisləri haqqında öz kitabını mənə bağışlayıb. Lap təzədir və 9 avqustda bağışlayıb. Bir neçə gün bundan qabaq. Məsələn, bu çox gözəl kitabdır, pediatriya haqqında rəhbər kitabdır. Burada Rusiyadan başqa bütün xarici – İsveçrə və s. hərə bir temanı yazır, bircə rusları yazmayıblar bura. Amma sonradan Rus dilinə də tərcümə olunub. Bunu da mənə Leninqraddan rəhmətlik qaynım alıb, Orxan göndərib öz xəttilə. Sonra burada dini kitablar vardır. Məsələn, şəriət haqqında, daha sonra bu isə, burun-boğaz-qulaq haqqında kitabdır.

**Baş həkim Fərzalı Hüseynov:**

- Adil Mirişli haqqında söz demək mənim üçün çox çətindir. Ona görə də müəyyən qədər də gərək onun hə-

yatda alimlik dərəcəsinə görə, insanlıq dərəcəsinə görə ona yaxın olum ki, onun haqqında söz deyə bilim. Amma buna baxmayaraq o mənimlə uzun müddət bir yerdə işlədiyinə görə, həm də bir alim kimi onun sənətinə vurğun olmuşam, ondan köməklər görmüşəm, həm də həyatda bir insan kimi ondan köməklər görmüşəm. Yolum Bakıya düşəndə xəstəxanalara da baş çəkərdim. Orada mənə deyərdilər ki, Naxçıvandan bura xəstə gəlmir. Bakı şəhəri ilə Respublikanın bütün rayonlarını müqayisə etdikdə Naxçıvandan getmirdilər. Onlar məndən də qabaq deyirdilər ki, Naxçıvanda gözəl alimlər, həkimlər var və həm də o çox gözəl bir insandır. O, həm də bütün neqativ hallardan həmişə uzaq olardı. Bə`zən görürsən həkimlə xəstə arasında pis münasibət olur, o belə hallardan uzaq olardı. Bu xarakterlə bağlıdır. Ona görə həmişə buraya xəstə göndərməyə ehtiyac olmazdı. Bizim ən çox mürəkkəb halarda, tutaq ki, qan xəstəlikləri üçün şərait olmasa, onu müayinə, müalicə üçün, o adicə baxışla dəqiq diaqnoz qoyurdu və biz xəstəni müalicə edirdik və sonralar Bakıya gedəndə də həmin diaqnoz təstiq olunurdu. Elə olurdu ki, həm diaqnozun qoyulması, həm də xəstənin Bakı şəhərinə göndərilməsinin asanlıqla qarşısı alınırdı. Mən arzu edirəm ki, həyatda kiməsə elə bir iş yoldaşı qismət olsun. O, həmişə məni pis yollardan, daim pis işlərdən, xəstə ilə oturanda, duranda həmişə bu yollardan çəkindirərdi. Mən həyatımda bunları bir valideynlərimdən, bir də Adil həkimdən görmüşəm. Açığı sizə deyim həmişə çətinliyə düşəndə doktordan məsləhət almışam. O, elə ağıllı, elə düzgün yol göstərirdi ki, mən o yolla məqsədə çatmışam. Burada onun böyük əməyi vardır. Doktor Mirişli üçün xarakterik xüsusiyyətlərdən biri də belədir ki, alim olmaq asandır, insan olmaq çətin. Bu şəxsiyyətdə insanlıq dərəcəsi çox-çox yüksəklərdədir. Oxuyan alim ola bilər, lakin bu cür xarakterli insan mən

həyatımda görməmişəm. Onun əsas xarakterik xüsusiyyətlərindən biri yüksək mə`nəviyyata sahib olmasıdır. Sonra onun xalq arasında, bizim tərəflərdə belə sevilməsinin əsas səbəbi mən açıq sizə deyim, ailəsinin də yüksək səviyyədə köməyi olub. Bu nə ilə əlaqədardır, mən sizə deyim. Adətən xanımlar şöhrətə meyilli olur, lakin Tamilla xanım isə, nə şöhrətə nə də dünya malına heç zaman baş əymədi. O, həyat yoldaşı Adil Mirişlinin həmişə doğru yolda olduğunu göstərdi. Adil Mirişlinin bu günki hörmətə sahib olmasında həyat yoldaşının da sözsüz ki, rolu vardır. Mən bu yolda hərdən qibtə də edirəm. Allah onları həmişə mehriban eləsin. Ona görə də Adil Mirişli həm alim kimi, həm insan kimi, onunla birlikdə işlədiyimə görə mən çox şadam.

**Həyat yoldaşı ilə müsahibə:**

***- Siz onunla həm bir peşə, həm də ailənin bir üzvü kimi – həyat yoldaşı kimi məni maraqlandırır ki, bir peşə ilə əlaqədar necə məsləhətləşirsiniz, eyni zamanda Adil Mirişlinin həyat yoldaşı kimi onun hansı xüsusiyyətlərini deyə bilərsiniz? Siz burada neçə ildir işləyirsiniz?***

- Mən 36 ildir bu uşaq poliklinikasında işləyirəm. Bura əvvəllər uşaq xəstəxanası, indi isə ana və uşaq reabilitasiya mərkəzidir. Əvvəlcə mən pediatr işləyirdim, 2 il yarım ordinaturanı Moskvada qurtarandan sonra indiyəcən mən bu kabinetdə işləyirəm.

***- Yoldaşınız haqqında danışardınız?***

- Biz 42 ildir bir-birimizi tanıyırıq, 6 il tibb institutunda bir yerdə oxumuşuq. 1962-ci ildə tibb institutunu qurtardıqdan sonra ailə həyatı qurmuşuq. Mən bircə onu deyə bilərəm ki, ancaq cavanlara bizim ailə kimi ailə arzulayıram. Özü də ki, mən həyat yoldaşımla baxmayaraq ki, bir institutu qurtarmışıq, yaşıdıq, ancaq həmişə ondan öyrənmişəm. Çünki o, mənim üçün bir növ böyük olubdur. Həm

elmi cəhətdən, çünki o, alimdir, həm uşaqlarımın atasıdır. Mən hələ bu 36 ildə bir-birimizə, biz həm tələbə yoldaşı olmuşuq, həm də həyat yoldaşı olmuşuq, bizim aramızda narazıçılıq adında bir şey olmayıb. Uşaqlarımız da bizim tərbiyəmizi alıblar, Allaha çox şükür!

***- Ancaq xanımın da kişiyə böyük tə`siri var.***

- Sözsüz, əlbəttə, evdə qadın bir növ ailə başçısı kimi olur. Baxmayaraq ki, kişi evdə olsun. Əlbəttə evin yöntəmi, işini ailədə, mən elə etmişəm ki, ailədə söz olmasın. Kişi evə gəlirdi və hər bir şey öz yerində olandan sonra nə söz ola bilər? Uşaqlarımın dərsi ilə məşğul olmuşam, hətta biz Adillə günümüzün bir neçə saatını mütaliə ilə məşğul olmuşuq. O, mənə deyirdi ki, bu gün bunu oxumalısan. Həmişə dünya ədəbiyyatından oxumuşuq. Mən heç vaxt deyə bilmərəm ki, bizim aramızda anlaşılmamazlıq olub. Çünki uşaqların tərbiyəsi üçün, o uşaqlarını çox istəyirdi, mən isə, ərköyün olmalarına icazə verməmişəm. Həmişə deyiblər ana. Ona görə də uşaqları birlikdə böyütmüşük.

***- Siz yaxşı anasınız, yaxşı həyat yoldaşısınız. Çox şadam ki, Muxtar Respublikamızda belə ailələr var.***

- Mən həmişə cavanlara məsləhət eləmişəm. Həm ailə, həm həkimlik barəsində yoldaşımla birgə onlara həmişə yaxşı məsləhətlər vermişik.

***- Biz bir daha sizə ailə xoşbəxtliyi arzu edirik. Həmişə xoşbəxt yaşayın.***

Muxtar Respublika Səhiyyə Nazirinin müavini pediatr Tofiq Cəfərov.

- Mən onunla bir pediatr kimi tanış olmuşam. Bildiyiniz kimi mən də ixtisasca pediatram. Bizim həmkarlığımız sonradan dostluğa çevrildi. Bizim ikimizin də dostuluğundan sonra ailələrimizin də dostluğuna çevrildi. Mən bir həmkar kimi, bir dostu və iş yoldaşı kimi doktor Mirişli haqqın-

da deyə bilərəm ki, o çox qabil sənətkardır. Doktor Mirişli dəqiq diaqnostik və yaxşı müalicə həkimidir. Onun istər Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun keçdiyi ixtisaslaşma və təkmilləşmə, istərsə də Moskvada oxuduğu aspirantura illəri, alimlik dərəcəsi alması bu gün də öz bəhrəsini verir. Muxtar Respublikanın pediatrları hər hansı bir çətinliklə üzləşərsə, mütləq doktor Mirişliyə müraciət etməli olurlar. Adil Mirişli gözəl həkim olduğu kimi hamıya qarşı mehriban, səmimi, qəlbə yanan bir insandır. Doktor Mirişli 25 ildir ki, Səhiyyə Nazirliyinin Baş pediatrıdır. Adil Mirişli həm də yüksək səviyyəli insandır. O, hamıya qarşı mehriban, səmimi bir insandır. O, eyni zamanda gözəl ailə başçısıdır. 3 övladını böyüdüb, boya-başa çatdırıb və onların hər biri bu gün də ali təhsilli olmaqla, həm də ikisinin aspirantura təhsilini görmüşük. Adil Mirişliyə həyatda mən uzun ömür, möhkəm can sağlığı, yeni-yeni uğurlar diləyirəm.

Adil Mirişli Muxtar Respublikanın Səhiyyə Nazirliyinin Baş Pediatrı kimi tez-tez uşaq tibb ocaqlarında olur. Həkimlərə lazımi məsləhətlər verir, belə görüşlər isə faydalı olur.

**Baş həkim Nizami Məmmədov:**

- Adil Mirişli ilə mən 1969-cu ildən bir-birimizi tanıyırıq. Mən Azərbaycan Tibb İnstitutunu qurtarıb gənc mütəxəssis kimi Naxçıvana gəldikdə Adil Mirişli ilə bir sahədə, uşaq xəstəxanasında bir yerdə işləmişik, sahə həkimi kimi işə başlamışam. Mirişli mənim bir həkim kimi yetişməyimdə, xalq arasında tanınmağımda onun böyük zəhməti, əməyi var. Onu Azərbaycan Tibb İnstitutunun İnfeksion kafedrasında saxlamaq istəyirdilər, o ancaq doğma yurdunu heç nə ilə dəyişmədi. Naxçıvana gəlib öz xalqı, öz camaatına qulluq etməyə başlayıb. Mirişli ilə mənim həm həmkar kimi, həm həkim kimi çox gözəl münasibətlərim var, həm də ki,

Adil Mirişlini özümə böyük qardaş hesab edirəm. Adil Mirişli haqqında günlərlə, aylarla, illərlə danışmaq olar. O, elə bir insandır ki, onu sözlə təsəvvür etmək mümkün deyil. Biz çətinə düşəndə, ağır xəstələrimiz olduqda həmişə ona müraciət edirik. Deməyim odur ki, Naxçıvanın bütün tibb kollektivi, xüsusilə də uşaq həkimləri, pediatrlar hamısı öz sənətində yetişməyində, bir insan kimi yetişməyində Adil Mirişliyə borcludur. Adil Mirişlini Naxçıvan camaatı, həm də bütün Azərbaycanda yaxşı tanıyırlar. Adil, sənə can sağlığı, uzun ömür, ailə səadəti, yeni anadan olmuş nəvənin toyunu görəsən, sənə ürəyində nə arzun var bütün pediatrlar adından, uşaq xəstəxanasının kollektivi sənə arzulayır. Sənə can sağlığı, uzun ömür.

**Adil həkimlə söhbət.**

**- Həkim, təbiətin balaca bir güşəsindəyik. Təbiətlə aranız necədir?**

- Bizim sənətimiz elədir ki, əvvəlcə təbiəti sevməkdir. Təbiət güldür, çiçəkdir, yaşıllıqdır. Bizim sənətimiz də pediatriya – uşaq həkimliyidir. Uşaqlar da gül kimidir. Mən təbiəti necə sevməyə bilərəm ki, mənim 5 günlüyündə baxdığım uşaqlar indi ana olublar, ata olublar və özlərinin uşaqları olub. Onlar özləri də bir növ təbiət kimi inkişaf edirlər.

***- Biz də təbiətin övladıyıq. Yaxşı oldu ki, kabinetdən aralanmışıq.***

- Mən vaxtımın çoxunu burada keçirirəm.

***- Həkim, əvvəlki söhbətlərinizdən də aydın oldu ki, sizin 36 il əmək fəaliyyətiniz var. Bunun bir hissəsini kənddə - Nehrəmdə başlamısınız. Sonra şəhərə gəlmisiniz, şəhər poliklinikasında sahə həkimi işləmisiniz. İlk sahə həkimi siz olmusunuz. Sonra da Respublika xəstəxanasında işləmisiniz. 25 ildir ki, Səhiyyə Nazirliyinin baş pediatrısınız.***

***Bu 36 illik əmək fəaliyyətiniz dövründə hansı problemlərlə qarşılaşmısınız, hansı problemləri həll etmisiniz? Xahiş edirəm bu haqda da mə`lumat verəsiniz.***

- Fərman müəllim, insanın öz xasiyyətindən də çox şey asılıdır, bir də ümumiyyətlə bizim sənətimizdə. Bizim sənətimiz – həkimlik təmizliyi, həmişə təmiz olmağı sevir. Mənim özümdə də bu xarakter var, ona görə də mən elə birinci gündən arzulamışam ki, elə olsun ki, mən işlədiyim yerdə həmişə su olsun. Hər bir həkim hər dəfə xəstəyə baxdıqdan sonra əlini sabunlamadı, yumadısa bu heç bir şeydir. Ona görə Allah da ürəyimə görə verib. Nehrəmdə olduğum müddətdə Aqil müəllim də orada baş həkim idi. Oranın suyu bol idi, hətta hamamı da vardı. Həm xəstələr üçün həm də bizim üçün. Hovuzlarımız, fantanlarımız bol idi. Sonra mən gəldim siz dediyiniz kimi kənddən, şəhərdə işlədim, ən sonda Moskvaya gedib aspiranturanı bitirdim. Mənə Tibb İnstitutunda iş təklif elədilər, istəmədim. Naxçıvana gəldim. Elə 25 ildir mən Muxtar Respublikanın Baş Pediatrıyam. Mən demək tək özümün yox, həm onların qeydinə qalmalıyam. Bu gördüyünüz uşaq xəstəxanasının ətrafı hərbi şəhərcik idi. Hərbiçi zabitlərin əksəriyyəti başqa millətlərdən idi. İşə baxın ki, analar bir qab sudan ötrü gedib onların qapısını döyərdilər ki, bizə bir qab su verin, uşağımız ağır vəziyyətdədir. Mən gələndə burada su yox idi. Gəlib buradan doldurub aparırdılar. Mənim arzum idi ki, bura su çəkdirim və buna nail oldum. Baş həkim Qəhrəman Əliyev işləyirdi o vaxt. Mən nazirə dedim. Tapşırdı ki, hələ başlamamısınız, Qəhrəmana 1 ay vaxt verdi, buranın su məsələsi üçün. Sağ olsun Allah atasına rəhmət eləsin 1 ay müddətində bu 3 mərtəbənin hamısı su ilə tə`min olundu. İndi bizim hər otağımızda açırsınız, yaxşı içməli su var. 3 mərtəbənin üçündə də. İkinci arzum belədir ki, axı siz özünüz də mənə dəfələrlə zəng vurmusunuz, valideyn tutaq

ki, Şərurdan uşaq gəlir ölümcül vəziyyətdə. Bu hara müraciət etməlidir? Xəstəxanaya. Bizdə də reanimasiya şö`bəsi yox idi. Ağır xəstələrə baxmağa yer yox idi. Mənim Azərbaycan Səhiyyə Nazirliyilə çalışdım, vuruşdum, bizim bə`zi aidiyyati şəxslər də qoşuldu, ona nail oldum və burada reanimasiya şö`bəsi açdırdıq. Reanimasiya şö`bəsi həm uşaqları o vəziyyətdən qurtardı, həm də günün hər hansı vaxtında hansı həkim gəlirsə orada həkimi, tibb bacısı, hər cür xidməti var. Yoxsa həm xəstələr əziyyət çəkir, həm də məni gəlib qoymurlar yatmağa. İnanın ki, Novruz bayramında da plovu ortaya qoyarkən belə gəlib məni aparıblar. Onlar nə etsinlər? Yox idi. İndi isə var və buna nail olduq. Reanimasiya şö`bəsi açdırdım. Orada həkimləri Minskidən, Moskvadan tutmuş hamısını məcburən kursa göndərdim ki, getsinlər və kursları öyrənsinlər. Bizdə ikinci ağır şö`bə, deməli bizdə hər oğlan uşağından 50%-i travma ilə doğulurdu. Buna nevroloji xəstəlik deyirlər. Bunu apardılar Bakıya. İkinci fikrim o idi ki, burada nevroloji şö`bə açdırım. Bu da hələ heç kəsin fikrinə gəlmirdi. Ona da nail oldum. Uzun müddətdən sonra nevroloji şö`bəni, indi oranın müdiri Yalçın həkimdir, oranı da açdıq. Bu dəqiqə elə fəaliyyət göstərir ki, çox yaxşıdır. Burada işləyən həkimlərin əksəriyyəti qadındır. Onların Bakıya gedib kursdan keçmələri çətindir. Keçməsələr də onlardan çətin həkim olar. Mən danışdım və mənə də rəhbərliyimiz köməklik etdi. Azərbaycan Dövlət Əziz Əliyev adına həkimləri Təkmilləşdirmə İnstitutunun kollektivi, başda professor rəhmətlik Nilufər xanım olmaqla, bütün dosentlər gəldilər buraya. 1 ay müddətində mühazirələr oxundu, praktikalar keçirildi, həmin bizim kursda pediatrlar kursdan keçdi, onlardan imtahan götürdük və vəsiqələrini əllərinə verdik. Beləcə bu arzum da yerinə yetirildi. İndi mənim yenə arzum budur ki, bu kursu yenidən sentyabrda, oktyabrda Allahın köməkliyi ilə təkrar edək. Aqil müəllim də onu təstiqləyir və

kömək edir ki, bunu keçirək. Bir də yadınızda qalsın, Muxtar Respublika kənd rayonudur. Burada əhalinin 89%-i kənd əhalisidir. Şəhərdə yaşayan çox az adam var. Onların kəndlə əlaqəsi var. Deməli biz çalışmalıyıq ki, kənd əhalisinə yaxşı xidmət edək. Bu məqsədlə mən özüm də keçmişəm Nehrəmə. İlk dəfə Nehrəmdə baş pediatr mən olmuşam. İndi də arzumdur ki, kəndlərdə pediatr olsun. 100-dən artıq pediatr var. Məsələn, Şərur rayonunda yaxşı kənd pediatrı Qıvraq kənd pediatrı Nəcəf həkim.

***- Həkim mən bilmək istərdim ki, gənc başlayan pediatrlara məsləhətləriniz nədən ibarətdir və bir də analara, kiçik yaşlı uşaqları olan valideynlərə məsləhətləriniz nədən ibarətdir?***

- Mənim gənc həkimlərə məsləhətim odur ki, onlar sənətlərini dəyişməsinlər. Fərman müəllim, inanın ki, bu 100 pediatrdan 50-si sənətini dəyişib, olub cərrah, burun-boğaz həkimi, ginekoloq və s. Çünki pediatr bir az ağır sənətdir. Amma onlar bu işin ləzzətini bilmirlər... Bu gün doğulmuş uşaq bir aydan sonra böyüyür. Xeyli vaxtdan sonra görürsən ki, yetkinlik yaşına çatıb. Artıq özü də valideyndir və körpəsini həkimə gətirib. Bundan böyük nə xoşbəxtlik? Allaha and olsun neçə dəfə imkan yaranıb ki, mən də sənətimi dəyişim, dəyişməmişəm... Budur Nəcəf həkim özü də gəldi.

***- Analara sözünüz?***

- Analara demək istəyirəm ki, bizim kəndlərdə akademiya, universitet, ali məktəb yoxdur. Kəndin akademiki də, ali təhsillisi də kəndin müəllimləri, savadlılarıdır. Onlar gərək uşaqların qidalanmasını, uşaqların peyvənd vaxtlarını hamıdan yaxşı bilsinlər ki, həm öz uşaqları, həm də qonşuların uşaqlarına bunu başa sala bilsinlər. Mənim valideynlərə məsləhətim budur ki, bunu yerinə yetirsinlər. Ana südünün qiymətini bilsinlər, uşağı süddən kəsməsinlər. İndi bilirsiniz

necədir? Axır zamanlar laboratoriya xidmətlər yaxşılaşıb. Vaxt var idi ancaq qan, sidik və nəcisi analiz edirdilər. İndi südü də analiz edirlər. Analiz edən adam orada bir dənə də olsun mikrob tapacaq. Bu ana da başa düşmür ki, süddəki mikroba görə uşağı döşdən kəsməzlər. Ana bunu döşdən kəsir. Salır inək südünə. Uşaq ağır qusma, öymə ilə ölümcül hala düşür. Ona görə məsləhətim budur ki, qətiyyən döşdən kəsməsinlər. Ana südündə nə qədər mikrob olsa da o çox təmizdir, sanki bulaqdan gəlir. Uşaq düzgün qidalandırılmalıdı. Əgər onun hər hansı narahatçılığı varsa, çox vaxt "Bu döşdəndir!" deyib, uşağı ana südündən məhrum edirlər. Allahın qanunları, təbiətin isə o qanunlara uyğunluğu var, Fərman müəllim. Həmişə uşağa döş verdikdən sonra uşaq ağlayacaq. Bu qanundur. Ana da görür ki, həmişə döşdən sonra ağlayır, deyir yəqin bundandır. Körpəni ana südündən ayırır. Bilmir ki, ana südü ilə qidalanmayan uşaq sonra daha çox xəstəlik tapacaq. Uşaq xəstələnməmişdən qabaq ana ayda bir dəfə həkim yanına getməlidir. Xəstələnəndən sonra artıq o "gərək" keçdi. Uşaqların xəstələnməsinə yol verməmək üçün onların profilaktikası ilə məşğul olmaq, ayda bir dəfə həkimə gətirmək lazımdır. Ana var ki, deyir 2 aydı evdəyəm, həkim gəlib baxmır. Belə analara demək lazımdır ki, axı sənin vicdanın olmalıdır. Həkim özbaşına gəlib uşağa baxası deyil. Uşağın xəstə olanda çağırış ver. Amma sağlam olanda, sən həkimə get. Etikanı gözləmək lazımdır.

***- Adil müəllim, siz Naxçıvan şəhərində doğulmusunuz. Naxçıvanın əvvəlini də görmüsünüz, indi də. Nə kimi fərqliliklər var?***

- Naxçıvan, açıq desək, böyük inkişaf edib. Siz özünüz də Naxçıvanı məndən yaxşı tanıyırsınız. Naxçıvanda üstü örtülü – şiferli dam görməzdik. Hamısı palçıqdan idi. Yağış yağan kimi evlərə axardı. İndi Naxçıvanda yaxşı, çoxmərtə-

bəli, şiferli evlər, yaxşı qapı-pəncərələr, yəni müasir dövrə cavab verən evlər-eşiklər vardır. Su boldur. Naxçıvanda bir belə su olmazdı. Şərait yaxşıdır. Mən buraya baş pediatr gələndə Naxçıvanda uşaq xəstəxanası 1 şö`bə idi. İndi təsəvvür edin bu şö`bə ilə yanaşı samatik şö`bə, mədə-bağırsaq şö`bəsi, reanimasiya şö`bəsi, uşaq nevroloji şö`bəsi, yeni doğulmuşlar şö`bəsi. 5 şö`bə olubdur. Bunun rentgeni, fizioterapiyası, laboratoriyaları, özü də bizim uşaq xəstəxanasında biokimyəvi baktereoloji laboratoriya çox yüksək səviyyədə var. Mən 25 ildə bunlara nail olmuşam. Düzdür mən tək eləməmişəm, bunu baş həkimlər, nazirliklər, Azərbaycan Səhiyyə Nazirliyinin rolu olub. Bəli mənim də bir damcı rolum olubdur.

***- Bilirsiniz həkim bu şəhərə baxanda adiləşib bizim gözümüzdə. Amma kənardan gələn adam 1 ildə Naxçıvanın dəyişdiyini görür: onun prospektlərində, onun parklarında.***

- Açığı sizə bir söz deyim. Bir dəfə bir professor gəlmişdi bura pediatr. Bu adam dayana bilmədi, öz qısqanclığını saxlaya bilmədi. Dedi ki, Adil sənin xəbərin var ki, Heydər Əliyevdən sonra Naxçıvan kimi başqa heç bir Azərbaycan rayonu belə inkişaf etməyib? Dedim ay xanım axı siz niyə elə deyirsiniz? Dedim hər rayonda inkişaf var. Dedi yox Vallah. Naxçıvan kəndə bənzəyirdi. İndi müasir şəhər tipini alıb: bu Cavid məqbərəsidir, indiki parklardır, uşaq bağçalarıdır, universitetlərimizdir, mədəniyyət mərkəzlərimizdir, tibb ocaqlarımızdır, çox böyük inkişaf var.

Naxçıvan camaatının sevimlisi Adil həkimin 60 yaşı tamam olur. Həkim yaşa dolduqca daha təcrübəli olur. 60 yaş nədir ki? Xeyirxah insan olan Adil Mirişli yeni-yeni 10 illərə qovuşsun, nəvəsinin toyunu görsün. Bir də uşaq gülüşünü,

uşaq sevincini özünə səadət bilən insanın, yaxşı bir həkimin daha çox yaşaması hamının arzusudur. Tanrı sənə yar olsun Adil həkim.

**Camaatla görüş hissəsi.**

Bu gün Muxtar Respublika Səhiyyəsinin həyatında çox önəmli, çox dəyərli günlərdən biridir. Muxtar Respublikamızın səhiyyəsində çox özümlü dəsti-xətti olan çox geniş əhatəli bir həkimlik yolu keçən, el üçün, xalq üçün, qəlbini fəda edən, bizim sevimlimiz Adil Mirişli Azərbaycan Respublikasının Əməkdar Həkimi, tibb elmləri namizədi, Adil Mircəfər oğlu Mirişlinin dünyaya gəlişinin 60-cı sənəsini qeyd eləmək üçün bu gözəl, yığcam, haradasa geniş qəlbli, geniş ruhlu salona toplaşmışıq. Adil Mircəfər oğlu Mirişli deyəndə mənim fikrimə, daha doğrusu fikrimin öncəsinə çox əzəmətli bir sima, çox əzəmətli bir şəxsiyyət, el üçün, xalq üçün yanan bir insan canlanır. Adil Mirişli ömrünü ən xeyirxah bir işə, ən müqəddəs bir işə, ən işıqlı bir işə sərf edib. Tayfa şəcərəsinə, tayfa ənənəsinə, tayfa əzəmətinə, tayfa soy-kökünə riayət edən və tayfanın həmişə ən gözəl işlərini öz gözəl, nurlu-işıqlı əməlləri ilə daha da pöhrələndirən, daha da genişləndirən bir yol keçib. Həkimə belə baxmaq doğrudan da qəribədir. Həkim çox böyük məfumdur, həkim böyük sənətdir. Təsəvvür edin dünyanın elə bir dahisi yoxdur ki, mən inanın 100 adam sayaram ki, şəxsiyyət sayaram ki, Luy Araqondan tutmuş, Bulqakovdan tutmuş, Abbas Səhhətdən tutmuş, Nəriman Nərimanovdan tutmuş, İbrahim Topçubaşovdan tutmuş, Paşa Qəlbinurdan tutmuş, Baradindən tutmuş, bunlar hamısı böyük-böyük şəxsiyyətlərdir, hamısı da həkimdirlər. Hər şeydən öncə onların ixtisası həkim olub. Çexovun bir sözü var, sual veriblər ki, Anton Pavloviç, siz həm ədibsiniz, həm də həkimsiniz. Hansına daha çox üstünlük verir-

siniz? O, çox konkret cavab verib. Deyir ki, yazıçılıq mənim məşğuliyyətimdir, həkimlik mənim kəbinli arvadımdır. Halbuki Çexov həkimliklə bərabər bir xətdə götürəndə o daha böyük ədib idi, daha dünya şöhrətli dramaturq idi. İndi 100 ildən artıqdır ki, onun pyesləri dünya səhnələrinə gəlib. Amma həkimliyə olan onun məhəbbəti, ehtiramı, o sədaqəti o boyda həkimin nə qədər həkimliyə tərəf meyl etdiyini göstərir. Bayaq dediyim kimi Adil həkim...kimi...

Verilişi hazırlayanlar:

***Fərman Sultanoğlu***
***Etiqad Seyidov***
***Cəmil Məhərrəmov***
***Şəfəq Rüstəmova***

Naxşıvan televiziyası:
İctimai - siyasi proqramlar
baş redaksiyası.
Avqust, 1998




*2007 Hacc ziyarəti, həyat yoldaşı ilə*



*Həcc ziyarəti. 2007*




*Həyat yoldaşı ilə*





*Adil Mirişli,* *Həyat yoldaşı Tamilla xanım ilə*



*Böyük oğlu Mir Asəf ilə. Konya - 2004*



*Oğlu Mir Asəf ailəsi ilə. 2012*




*Adil Mirişli*
*2017.04.14*



*Oğlu Mir Asəf,*
*08.09.2013*



*Oğlu Mir Asəf həyat yoldaşı ilə*



*Ramiz Mirişli ilə*



*Ramiz, Adil və Akif Mirişlilər*
*2014*



*Nicat Həsənov ilə*



*Nəvələri Tamilla, Günel, Cəfər*



*Qızı Aybəniz və nəvəsi Günel ilə*



*Nəvələri Mədinə, Əminə, Günel*



*A.Mirişli*
*Naxçıvan, 17.09.2011*




*Həyat yoldaşı Tamilla xanım və nəvəsi Günellə,*
*2006*



*Adil Mirişli ailəsi ilə*




*Həyat yoldaşı Tamilla xanım və nəvəsi Günellə,*
*2014*



*Qızı Aybəniz ailəsi ilə*



*Tamilla, Cəfər, Nəzrin 2016*



*Nəvələri*
*Günel və Tamilla*



*Aybəniz, Əminə, Tamilla*



*Tamilla*



*Mədinə, Cahangir Novruzov, Aybəniz*
*2014*



*Ailəsi, gardaşı oğulları Alim Mirişli və Mirməhəmməd Mirişli ilə*



*Oglu Emin Mirişli*




*Oglu Emin ailəsi ilə*



*Adil Mirişli*
*2010-08*



*Adil həkim.*
*İstanbul 2018.06.10*



*Nəvələri ilə*



*Emin, Mir Asəf, Cəfər*



*Oğlu və gəlini ilə. 2018*



*Mir Asəf ailəsi ilə.*
*2016*



*Adil Mirişli nəvəsi Mədinə ilə.*
*08.08.2013*

## MƏQALƏLƏRDƏN SEÇMƏLƏR

…Yadımdadı, 1999-cu ildə mənə Azərbaycan Respublikasının Xalq artisti adını verdilər. Naxçıvan televiziyası mənim haqqımda bir veriliş çəkdi və mən də o verilişə Adil Mirişlini də`vət etdim. O, mənim haqqımda yaxşı fikirlər söylədi. Sağ olsun! O həmişə mənim qəlbimdə yaşayır. İndi Türkiyədə yaşamasına baxmayaraq ordan mənim 60 illik yubileyimi eşidib təbrik etdi. Çox diqqətli insandır Adil həkim…

Adil həkim övladlarımın hamısının həkimi olub: 2 qız və 1 oğlan. Hamısı ali təhsil alıblar.

Hər övladımdan da 3 nəvəm var. Bu yaxınlarda bir yerə toplaşdılar nəvələr. 9 nəvə hamısı bir yerdə şəkillərini çəkdim. Adil həkimin övladlarıımın sağlam böyüməsində böyük rolu oldu. Nəvələrimin də hammısı sağlam və gümrahdırlar. Şükür.

***Həsən Ağasoy,***

***

...Naxçıvan Respublika Narkoloji Dispanserində baş həkim işlədiyi 7 il ərzində mən Naxçıvan MR Səhiyyə Nazirliyinə tez-tez gedir, onun şəxsiyyəti ilə yaxından tanış olmaq imkanı əldə edirdim. Hər dəfə nazirliyə gedərkən Adil Mirişli, Mehdi Bağırov, nazir Əqil Mehdiyev, müavin Tofiq Cəfərov kimi gözəl insanlarla təmasda olur, onlardan xeyirxahlıq, yaxşılıq öyrənirdim – bu mənim üçün kiçik bir Akademiya kimi bir şey idi. Əgər mən desəm ki, Adil Mirişli ilə söhbətlərdən zövq alırdım, elə bilirəm siz mənə inanarsız. Üstəlik, həyatda Adil həkim kimi olmağa səy edir, onun kimi mə`nəviyyatca kamil insan olmağa can atırdım ki, bu şəxsi nümunəsi üçün yubilyara minnətdaram.

***Asif Kəngərli***

***

Adil Mirişli ilə
Məşhədə getdik.
O, İmam Rzanı ziyarət etdi,
Mən onu.
Yol yoldaşı olanda gördüm
Onun da imam olduğunu.

***Elman Həbib***

***

Bir nəfər Həzrət Peyğəmbərdən soruşur: ya Rəsulallah, insanların ən xeyirlisi kimdir? Rəsulallah buyurur: ömrü uzun, əməli gözəl olan. Siz əməli gözəl, əlləri şəfalı, qəlbi və ruhu işıqlı olan gözəl el ağsaqqalı və xalq həkimisiniz. Aqillərimizin gözəl bir sözü var: ot öz kökü üstə bitər. Bu tarixi bir deyimdir. Atanın çörəyi, ananın südü Sizə halal olsun (Allah Mircəfər ağaya və Püstə xanıma qəni-qəni rəhmət eləsin, ruhları şad olsun).

Mənim üçün doğma və əziz olan gözəl həkim və əsl el ağsaqqalı, daima qayğısını hiss etdiyim, ata qədər doğma və əziz olan Adil Mirişliyə ömrünün bu ixtiyar çağında, 80 illik yubileyində möhkəm can sağlığı, mənəvi rahatlıq, ailəsi ilə birlikdə bundan sonra da firəvan həyat yaşamağı, həkim, pedaqoq, alim kimi fəal yaradıcılıq uğurları arzulayıram.

***Bəhruz Məmmədov***

***

...Moskvada: "Adil o qədər rahat və biliyinə güvənir bir şəkildə müdafiə olurdu ki, opponentləri üzlərindəki heyranlıqlarını və məmnuniyyətlərini gizləyə bilmədilər." Müdafiə bittikdən sonra opponent professorlardan biri bu müdafiəni qeyri adi bir hadisə kimi dəyərlən-

dirərək “25 ildir aspiranturada imtahanlara girirəm amma həyatımda ilk dəfə üzündə rahat bir təbəssümlə müdafiə olunan bir aspirant gördüm. Aramıza xoş gəldin məsləkdaşım.” demişdi.

***Cahangir Novruzov***

...**Heydər Əliyev**: ”Nə üçün bu yeri seçmişdim? Çünki, birincisi, bu yer Naxçıvan şəhərinin gözəl bir guşəsidir. İkincisi də, naxçıvanlılar bilir, bu yerdə böyük bir seyidlər ailəsi yaşamışdır. Mircəfər Seyidov mənim müəllimim olubdur, onun qardaşı Aqil Seyidov müəllimlik edibdir, Mirhəsən Seyidov Naxçıvanın teatrının aktyoru olubdur. Mən bu ailədən olanlara Seyidov dedim, çünki onlar seyid idilər. Amma əslində onlar Mircəfər Mirişli, Aqil Mirişli, Mirhəsən Mirişli və bu gün Azərbaycanın böyük bir bəstəkarı olan Ramiz Mirişlidir.

